# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

4 mart 2017-ci il №08(8724) www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** muallim@edu.gov.az


# Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşü keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva yürüşdə iştirak ediblər



XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar.

Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 25 il" və s. çağırışlar və şüarlar nümayiş etdirilirdi.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

***

Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkan qəsəbəsindəki 6 nömrəli xüsusi internat məktəbində yaradılan şəraitlə tanış olub




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva martın 1-də Xəzər rayonunun Türkan qəsəbəsindəki Elmar Mirzəyev adına sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli respublika xüsusi internat məktəbində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, xüsusi internat məktəbi 1979-cu ildən fəaliyyət göstərir. 2005-2006-cı tədris ilindən internat məktəbi ümumi orta təhsili təmin edən təhsil müəssisəsi kimi fəaliyyətdədir.

Birinci vitse-prezident Mehriban Əliyeva bu məktəbdə də yaradılan "Sağlam təhsil sinfi" ilə yaxından tanış oldu, aparılan tədris üsulları ilə maraqlandı.

Məlumat verildi ki, burada sağlamlıq imkanları məhdud uşaqların biliklərə yiyələnməsi üçün lazımi şərait yaradılıb, müəssisə xüsusi avadanlıq və inventarla təchiz edilib. Bu isə öz növbəsində həmin sinifdə təhsil alan uşaqların müxtəlif yarışlarda iştirakını təmin edir. Ümumilikdə "Sağlam təhsil sinifləri" ölkəmizin 135 məktəbində fəaliyyət göstərir. Heydər Əliyev Fondunun prezidenti "Sağlam təhsil sinfi"ndə təhsil alan uşaqlara uğurlar arzuladı.

Hazırda məktəbdə 176 şagird təhsil alır və onlardan 88 nəfəri müəssisədə yaşayır. Şagirdlər 15 sinif üzrə qruplaşdırılıb. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 101 nəfərdən ibarət işçi heyət məşğul olur. İnternat məktəbinin maddi-texniki bazası nəzərə alınaraq 2008-2009-cu tədris ilindən əmək dərslərində "Xalçaçılıq texnologiyası" fənni tədris edilir. İnternat məktəbinin şagirdləri ümumi təhsil almaqla yanaşı, Azərbaycan dekorativ xalq tətbiqi sənətinin çox qədim və geniş yayılmış növlərindən biri olan xalçaçılıq sənətinə yiyələnirlər. İnternat məktəbinin şagirdlərindən ibarət futbol komandası mütəmadi olaraq respublika daxilində keçirilən idman yarışlarında iştirak edir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu internat məktəbində Fondun təşəbbüsü ilə aparılan əsaslı təmirdən sonra 2014-cü il sentyabrın 15-də müəssisənin açılışında iştirak edib. Yenidənqurma işlərindən sonra məktəb kompleksində 4 korpus, 3 açıq tipli idman stadionu, 1 qapalı idman zalı istifadəyə verilib. Üçmərtəbəli böyük tədris korpusu, ikimərtəbəli tədris-istirahət korpusu, ikimərtəbəli məişət korpusu və birmərtəbəli yardımçı korpus məktəblilərin təhsil və müalicəsinə xidmət edir.

İnternat məktəbi ilə tanışlıqdan sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkan qəsəbəsinin sakinləri ilə görüşdü.

## Bilgəh qəsəbəsindəki 11 saylı inteqrasiya təlimli internat məktəbi yenidənqurmadan sonra istifadəyə verilib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva martın 1-də Sabunçu rayonunun Bilgəh qəsəbəsindəki 11 saylı inteqrasiya təlimli internat məktəbinin yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, yenidənqurma işləri çərçivəsində məktəbin həyətində geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb. Həyətdə uşaqlar üçün idman meydançaları, müxtəlif attraksion, qurğu və yelləncəklər qoyulub, balacaların istirahətinin mənalı təşkili üçün əyləncə-istirahət guşələri yaradılıb.

Binanın foyesində ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın uşaqlara diqqət və qayğısını əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada, həmçinin "Rəşadətli Azərbaycan Ordusu" fotostendi də var.

Bu məktəb 1961-ci ildən fəaliyyət göstərir. Hazırda internat məktəbində 945 şagird təhsil alır və onlardan 158 nəfəri xüsusi təhsilə cəlb olunub. 2016-2017-ci tədris ilində məktəbdə təhsil alan şagirdlər 59 sinif üzrə qruplaşdırılıb. Onlardan 38-i ümumtəhsil sinifləri, 21-i isə xüsusi siniflərdir. Ümumtəhsil siniflərində təlim Azərbaycan və rus dillərində aparılır. Müəssisənin yataq korpusunda 133 şagird yaşayır. Xüsusi siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlər on illik təhsil müddətini başa vurduqdan sonra şəhadətnamə alırlar.



Azərbaycanın Birinci vitse-prezidenti məktəbin animasiya studiyasında oldu. Burada uşaqlara kadrların hərəkət qaydaları, ssenari yazmaq, montaj işi və animasiyanın digər sirləri öyrədilir. Bildirildi ki, buradakı uşaqların işlərinin gələcəkdə beynəlxalq səviyyədə tanıdılması və müsabiqələrdə iştirakı nəzərdə tutulur.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaqların hazırladığı animasiya filminə baxdı.

Xüsusi təhsil proqramları ilə yanaşı, şagirdlər məktəbin tədris emalatxanalarında tikiş, naxışvurma, xalçaçılıq və dulusçuluq üzrə peşələrə yiyələnirlər. Şagirdlər, həmçinin məktəbdə "Bacarıqlı əllər" və rəsm dərnəklərində məşğul olurlar. İnternat məktəbində təsviri incəsənət kabineti də fəaliyyət göstərir. Bununla yanaşı, çətin həyat şəraiti olan ailələrdən 114 uşaq günərzi mərkəzə cəlb edilib. Məktəbdə uşaqların təlim-tərbiyəsi ilə 139 müəllim və tərbiyəçidən ibarət işçi heyət məşğul olur.

Şagirdlər Azərbaycanın Birinci vitse-prezidentinə xatirə hədiyyəsi təqdim etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildə məktəbin yataq və tədris korpusu əsaslı təmir edilib və müasir avadanlıqlarla təchiz olunub. Heydər Əliyev Fondunun prezidenti həmin il təmirdən sonra məktəbin açılışında, həmçinin kimsəsiz məzunlar Nərgizlə Vüqarın və Ceyranla Fərhadın məktəbdə keçirilən toy məclisində iştirak edib. 2013-cü ildə isə Fondun vitse-prezidenti Leyla Əliyeva internat məktəbində olub. 2004-2005-ci tədris ilindən internat məktəbinin nəzdində ümumtəhsil sinifləri açılıb və sağlamlıq imkanları məhdud uşaqlarla yanaşı, çətin həyat şəraitində və risk qrupuna daxil olan ailələrin uşaqları da təhsilə cəlb edilib. Hazırda müəssisədə 787 nəfər şagird ümumtəhsil siniflərində biliklərə yiyələnir. İnternat məktəbi Təhsil Nazirliyinin həyata keçirdiyi layihələrdə də fəal iştirak edir. 2016-2017-ci tədris ilindən "Sağlam təhsil - sağlam millət" layihəsi çərçivəsində müəssisədə bir "Sağlam təhsil sinfi" yaradılıb.

Əsaslı yenidənqurma işləri çərçivəsində internat məktəbinin tədris korpusu da müasir səviyyədə təmir edilib. Burada Ulu Öndərin büstü qoyulub, fizika, kimya, biologiya laboratoriyaları şagirdlərin ixtiyarına verilib. Korpusun kitabxanası, dərs və kompüter otaqları, həmçinin idman zalı da müasir səviyyədə qurulub.

# "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" layihəsinin təqdimatı








Martın 3-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) SABAH qrupları tələbələrinin hazırladığı "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" adlı layihənin təqdimat mərasimi keçirilib.

Tədbirdə Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Milli Məclis sədrinin müavini Bahar Muradova, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Elmira Süleymanova, təhsil naziri Mikayıl Cabbarov, millət vəkilləri, ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə qonaqlar universitetin foyesində layihə ilə bağlı nümayiş etdirilən sərgiyə baxıblar.

Sonra tədbirin rəsmi hissəsində universitetin rektoru Gülçöhrə Məmmədova qeyd edib ki, layihənin əsas məqsədi işğal altında olan torpaqlarımız azad edildikdən sonra böyük qayıdış zamanı tələbələrimizin bu işə bütün imkanları ilə töhfə verməsidir. Bu, Qarabağın davamlı inkişafının layihələndirmə konsepsiyasıdır.

Layihənin ideya rəhbəri, universitetin ekologiya kafedrasının müdiri Fəqan Əliyev bildirib ki, layihə AzMİU-nun SABAH qruplarında təhsil alan tələbələrlə professor-müəllim heyətinin birgə işidir.

Daha sonra tələbələr Ağdam şəhərinin nümunəsində işğal altında olan ərazilərimizdə gələcəkdə aparılacaq bərpa və quruculuq işlərinin planını təqdim ediblər. Təqdimatda Ağdam şəhərinin baş planı, nəqliyyat infrastrukturu, bərpa olunan enerji mənbələri, Qarabağın kiçik çay mənbələrindən alınan enerji imkanları, Ağdam şəhərinin çirkli sularının kənar edilməsi layihəsi, magistral su kəməri layihəsi, fərdi evlərin, çoxmərtəbəli yaşayış komplekslərinin layihə təklifi və digər məlumatlar yer alıb.

Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov SABAH qruplarında təhsil alan tələbələrin təşəbbüsünü alqışlayıb, "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" layihəsinin əsl vətənpərvərlik nümunəsi olduğunu bildirib. Əli Həsənov tələbələrin bu cür layihələrlə ölkə Prezidentinin rəhbərliyi altında işğaldan azad ediləcək ərazilərimizin bərpası və inkişafına töhfə verəcəklərinə ümidvar olduğunu vurğulayıb. İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpa işlərini başlamaq barədə ölkə başçısının qərarı mühüm tarixi missiyanın başlanğıcıdır. Bugünkü tədbir də bu tarixi qayıdışın gələcək konturlarını müəyyən edən bir çağırışdır.

Milli Məclisin sədr müavini Bahar Muradova, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov layihə münasibətilə tələbələri təbrik edib, onların bu təşəbbüsünün ölkə başçısı tərəfindən aparılan siyasətin məqsədinə tam uyğun olduğunu bildirib.

Təhsil naziri Mikayıl Cabbarov uzunmüddətli əməyin nəticəsi olan layihənin sadəcə peşəkar yanaşmanın deyil, həmçinin yetişən gəncliyin ölkəmizin taleyüklü məsələlərinə laqeyd yanaşmadığını, vətənpərvərlik və təəssübkeşliyin bariz nümunəsi olduğunu bildirib. Təhsil naziri tələbələrin yaxın gələcəkdə ölkəmizə lazım olacaq mühüm bir bərpa planını təqdim etdiklərini vurğulayaraq bu layihənin tələbələrimizin potensialından xəbər verdiyini diqqətə çatdırıb.

Layihənin yüksək təqdimatından xüsusi məmnunluğunu bildirən Mikayıl Cabbarov, bunun Azərbaycan Memarlıq və İnşaat Universitetinin SABAH qruplarında təhsil alan tələbələrin biliyi və əməyi nəticəsində ərsəyə gəldiyini deyib. Nazir bildirib ki, SABAH qrupları 3 il əvvəl ali təhsildə yenilikçi mühitin formalaşdırılması, savadlı, bacarıqlı, hazırlıqlı tələbələrin yetişdirilməsi, kadr hazırlığının təmin edilməsi məqsədilə yaradılıb.

Sonda AzMİU-nun rektoru Gülçöhrə Məmmədova universitetin professor və müəllim heyəti adından qonaqlara təşəkkür edib.

## Nazir Ukrayna nümayəndə heyətini qəbul edib




Fevralın 28-də təhsil naziri Mikayıl Cabbarov Ukrayna təhsil və elm nazirinin birinci müavini Vladimir Kovtunetsin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan və Ukrayna arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və inkişafı, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq, gələcək əməkdaşlığın perspektivləri müzakirə edilib.

## Təhsil naziri Ağdaş şəhərində vətəndaşları qəbul edəcək

**Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərinin nəzərinə!**

Təhsil naziri Mikayıl Cabbarov 6 mart 2017-ci il tarixində saat 11:00-da Ağdaş şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərini qəbul edəcək. Qəbulda Ağdaş, Yevlax, Bərdə rayonlarında və Mingəçevir şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

**www.edu.gov.az**

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ümumtəhsil məktəb şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan xalqının dahi oğlu, qüdrətli dövlət xadimi və müdrik siyasətçi, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ərəfəsində ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə ulu öndərə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilsin.

**2.** Müsabiqə rayon (şəhər) və ölkə üzrə olmaqla 2 mərhələdə təşkil edilsin.

**3.** Müsabiqənin ilk mərhələsi 2017-ci ilin mart ayında rayon və şəhərlərdə, ölkə mərhələsi isə aprel ayında Bakı şəhərində keçirilsin.

**4.** Müsabiqənin ölkə mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilsin:

4.1. Bakı şəhərindən - 12 nəfər;

4.2. Gəncə şəhərindən - 3 nəfər;

4.3. Sumqayıt və Mingəçevir şəhərlərinin hər birindən - 2 nəfər;

4.4. digər şəhər və rayonların hər birindən - 1 nəfər;

4.5. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki və özəl ümumi təhsil müəssisələrinin hər birindən - 1 nəfər.

**5.** Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki və özəl ümumi təhsil müəssisələrinin direktorları müsabiqənin ilk mərhələsini mütəşəkkil keçirmək üçün işçi qrupu və münsiflər heyəti yaratsınlar, müəyyən etdikləri meyarlar əsasında iştirakçıları qiymətləndirib qaliblərin adlı siyahısını (SAA, oxuduğu məktəb, sinif və tədris dili) mart ayının 30-dək Təhsil Nazirliyinə göndərsinlər.

**6.** Müsabiqənin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirilməsi meyarları və qiymətləndirməni aparan işçi qrupunun tərkibi təsdiq edilsin (1 və 2-ci əlavələr).

**7.** Müsabiqənin qalibləri diplom, tərifnamə və qiymətli hədiyyələrlə mükafatlandırılsın.

**8.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) müsabiqənin ölkə mərhələsinin nəticələri barədə əmr layihəsini müsabiqə başa çatdıqdan sonra 3 gün müddətinə hazırlayıb rəhbərliyə təqdim etsin.

**9.** Nəzərə alınsın ki, "Ən yaxşı təqdimat" müsabiqəsi" Naxçıvan MR Təhsil Nazirliyi tərəfindən bu əmrdən irəli gələn tələblər əsas tutulmaqla müstəqil təşkil olunub yekunlaşdırılır.

**10.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin yekun tədbirinin keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**11.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) müsabiqə ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**12.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.

**13.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavələri ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

**14.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*27 fevral 2017-ci il*

# ADNSU-da görkəmli alimin 100 illiyinə həsr edilmiş konfransın yekun iclası







Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) görkəmli alim, texnika elmləri doktoru, professor İsrafil Quliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Dəniz neft və qaz yataqlarının işlənilməsinin aktual problemləri" mövzusunda konfransın yekun iclası keçirilib. Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı görkəmli alim İsrafil Quliyevin elmə verdiyi töhfələr, əldə etdiyi yüksək nailiyyətlər haqda məlumat verib. Rektor M.Babanlı konfransın təşkilat komitəsinə təqdim edilmiş məruzələrdən 28-nin nəşr olunmuş konfrans materiallarına daxil edildiyini bildirib. Sonra görkəmli alimin mənalı ömür yolu və elmi yaradıcılığından bəhs edən sənədli film nümayiş olunub.

Filmin nümayişindən sonra Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya ETİ-nin direktoru, AMEA-nın müxbir üzvü, professor Elmira Ramazanova, ADNSU-nun qaz-neft-mədən fakültəsinin dekanı, professor Qafar İsmayılov, neft-qaz mühəndisliyi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Tulparxan Salavatov çıxış edərək görkəmli alimin rəhbərliyi altında dənizdə neft-qaz qurğularının işlənməsi istiqamətinin müəyyənləşdirildiyini bildiriblər. Qeyd olunub ki, müxtəlif vəzifələrdə çalışan alim dəniz neft sənaye hidrotexnikasının yaradılmasının banilərindən biri olub. O, nəzəri və praktik xassəli əsaslı tədqiqatlar həyata keçirib. Natiqlər İsrafil Quliyevin 300-dən çox elmi məqalənin, 17 monoqrafiyanın və kitabın müəllifi olduğunu, onun məqalələrinin müxtəlif dillərə tərcümə edildiyini və dünyanın ayrı-ayrı ölkələrində nəşr olunduğunu qeyd ediblər.

Alimin nəvəsi "Schlumberger" şirkətinin rezervuarların monitorinqi şöbəsinin baş mühəndisi İsrafil Quliyev məzunu olduğu universitetdə babasının 100 illik yubileyində iştirak etməkdən qürur duyduğunu deyib. İsrafil Quliyevin qızı, ADNSU-nun neftin-qazın nəqli və saxlanması kafedrasının dosenti Gülarə İmanova atasının xatirəsinə göstərilən diqqət və hörmətə görə tədbir iştirakçılarına təşəkkür edib.

Konfransın sonunda ADNSU-nun rektoru, professor M.Babanlı professor İ.Quliyevin adına 2 təqaüdün təsis edilməsi barədə qərara gəlindiyini bildirib. Rektor qeyd edib ki, 1 bakalavr və 1 magistr üçün nəzərdə tutulan təqaüd "Neft-qaz mühəndisliyi" ixtisası üzrə yüksək nəticələr göstərən tələbələrə şamil ediləcək. Bundan başqa universitetdə auditoriyalardan birinin alimin şərəfinə qurulacağını qeyd edib.

**Mətbuat xidməti**

# BDU-da növbəti "Novruz mühazirəsi" keçirilib



Fevralın 28-də Bakı Dövlət Universitetində növbəti "Novruz mühazirəsi" keçirilib.

Mühazirədə BDU-nun nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi Flora Hacıyevanın "Kiçik zərrələrin böyük qüdrəti: Nanotexnologiyalar" mövzusunda mühazirəsi dinlənilib.

Mühazirədə təhsil nazirinin müavini Firudin Qurbanov, millət vəkilləri, AMEA-nın müvafiq institutları və ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

BDU-nun rektoru Abel Məhərrəmov cəmiyyəti düşündürən, aktual elm sahələri barədə sadə və anlaşıqlı mühazirələri dinləmək imkanını yaradan "Novruz mühazirələri"nin əhəmiyyətindən danışıb.

Dosent Flora Hacıyeva mühazirəsində XXI əsrin texnologiyası hesab olunan nanotexnologiya, onun tarixi, inkişaf xronologiyası, dünyada əsas tətbiq imkanları, o cümlədən BDU-da bu sahənin inkişafı və əldə edilən nəticələr barədə məlumat verib. Bildirib ki, universitetdə bu sahədə elmi məktəb və yüksək səriştəli kadr potensialı formalaşıb, alimlərin araşdırmaları dünyanın bu istiqamətdə tədqiqat aparan mərkəzlərində çalışan mütəxəssislər, o cümlədən BDU-da mühazirə deyən Nobel mükafatları laureatları tərəfindən yüksək qiymətləndirilib.

Mühazirəçi, eyni zamanda, nanotexnologiyanın hərbi sənaye, tibb, ekologiya sahələrində tətbiqi, nanorobotların gələcək fəaliyyəti, ətraf mühitin qorunmasında robototexnikanın rolu, nanotoksikologiya ilə alınan məhsulların artması, tətbiq sahələrinin genişlənməsi, xüsusilə ətraf mühitin qorunması və tibbi praktikada tətbiqi, aviasiya və kosmonavtikada istifadəsindən bəhs edib.

Daha sonra görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov "Novruz mühazirələri"nin əsas məqsədinin təhsil və elmin müxtəlif sahələrinə dair mövzuların gündəmə gətirilməsi olduğunu bildirib və Flora Hacıyevanın mühazirəsini yüksək qiymətləndirib.

# SABAH innovasiya forumu təşkil olunub



Martın 2-də SABAH qruplarının təşkilatçılığı ilə SABAH innovasiya forumu keçirilib.

Tədbirdən məqsəd bu il məzun olacaq SABAH qrupları tələbələrinin inkişaf istiqamətlərindən biri olan sahibkarlıq sahəsində fəaliyyətlərinə dəstək olmaqdır.

Forumda təhsil nazirinin müavini Ceyhun Bayramov SABAH qrupları haqqında məlumat verib, tədbirin əhəmiyyətini qeyd edib.

Qeyd olunub ki, SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilində yeddi ali təhsil müəssisəsində yaradılmış ən aparıcı layihələrdəndir. Layihənin əsas məqsədi ali təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsidir.

Hazırda SABAH qrupları 11 ali təhsil müəssisəsində fəaliyyət göstərir və 2.300-dən artıq tələbəni əhatə edir. 2016-2017-ci tədris ilində SABAH qruplarında 45 ixtisas üzrə 748 tələbə məzun olacaq.

Diqqətə çatdırılıb ki, SABAH innovasiya forumu SABAH Karyera Akademiyası çərçivəsində reallaşdırılır.

SABAH Karyera Akademiyası proqramı ilk SABAH məzunlarının gələcək peşəkar inkişaf istiqamətlərinin (işə qəbul, magistratura, startap və elmi araşdırma) müəyyənləşdirilməsi və bu sahədə tələbələrə dəstək verilməsi məqsədilə yaradılıb.

Forumda ayrı-ayrı müəssisə və şirkətlərin nümayəndələri sahibkarlıq və digər məsələlərlə bağlı fikirlərini bildirib, təcrübələrini bölüşüblər.

Sonra SABAH startap komandaları layihələrini təqdim ediblər.

Qalib komanda mükafatlandırılıb.

**AZƏRTAC**

# Təhsil müəssisələrində aparılan araşdırmaların nəticələri

Təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, yeni məlumat və hesabat sistemlərinin yaradılması istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Bu baxımdan vətəndaş müraciətlərinə baxılması, daxil olan şikayətlərin araşdırılması sahəsində görülən işləri xüsusi qeyd etmək olar.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məlumatına görə, 22 nömrəli tam orta məktəbdə qanunsuzluq halı baş verib. Məktəbin direktor müavini Cavad Səfərov direktor səlahiyyətlərini müvəqqəti icra edən zaman 2015-2016-cı tədris ilində rəsmi qeydiyyata alınmadan qanunsuz olaraq 15 nəfər şagirddən ibarət ödənişli məktəbəhazırlıq qrupu yaradıb. Belə ki, bu məktəb Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq əmrlərinə əlavə edilmiş ödənişli pilot məktəbəhazırlıq qruplarının təşkil olunduğu ümumtəhsil məktəblərinin siyahısına daxil edilməyib.

Eyni zamanda valideynlər tərəfindən ödənilən 3960 manat vəsait dövlət büdcəsinə keçirilməyib. Cavad Səfərov valideynləri 6 yaşı tamam olmayan uşaqlarının bu kursu bitirdikdən sonra müsabiqəsiz 1-ci sinfə qəbul olunacaqları ilə də aldadıb.

Göstərilənlərlə əlaqədar Bakı şəhəri 22 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Cavad Səfərov vəzifə funksiyalarını yerinə yetirmədiyinə görə onunla bağlanılmış əmək müqaviləsi ləğv edilib. C.Səfərovun əməllərinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar aidiyyəti üzrə prokurorluq orqanlarına göndərilib.

Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma mərkəzlərinin verdiyi məlumatlarda da yerli təhsili idarəetmə qurumlarında və təhsil müəssisələrində vəzifə funksiyalarını lazımi şəkildə yerinə yetirməyən şəxslərlə bağlı görülən tədbirlər açıqlanır.

Şəmkir rayonu Çənlibel kənd 2 nömrəli tam orta məktəbdə ingilis dili müəllimi işləmiş Elnarə İsmayılova nazirliyə müraciət edərək cari tədris ilində işdən azad edildiyini bildirib.

Şəmkir Rayon Təhsil Şöbəsi E.İsmayılovanın həmin məktəbdə müddətli müqavilə ilə işlədiyini və cari tədris ilində ehtiyac olmadığından onunla müqavilə bağlanmadığını açıqlayıb. Eyni zamanda həmin məktəbdə ingilis dili fənni üzrə 26 saat dərs yükünün 2 nəfər müəllim tərəfindən tədris olunduğu bildirilib.

Araşdırma zamanı Çənlibel kənd 2 nömrəli tam orta məktəbdə ingilis dili fənni üzrə ümumi dərs yükünün 26 saat deyil, 51 saat olduğu məlum olub. Həmçinin məktəbin ingilis dili müəllimi Vüsalə İsmayılovaya Gəncə Məişət Xidməti Kolleci tərəfindən verilən təhsil haqqında sənədin dövlət nümunəli olmadığı aşkarlanıb.

Qeyd olunanlarla bağlı Şəmkir Rayon Təhsil Şöbəsinin məsləhətçisi Elşən Qasımova və kargüzar Sitarə Xəlilovaya töhmət verilib.

Elnarə İsmayılova müəllimlərin işə qəbulu üzrə imtahanda 47,2104 bal topladığı və ingilis dili fənni üzrə dərs yükü olduğu üçün Çənlibel kənd 2 nömrəli tam orta məktəbdə müddətsiz müqavilə ilə işə qəbul edilib.

Ötən və bu tədris illərində mərkəzləşdirilmiş qaydada keçirilmiş müsabiqəyə əsasən Kürdəmir rayonunun ümumtəhsil məktəblərində işə qəbul olunmuş müəllimlərin (onların çoxuna həvəsləndirmə tədbirləri (H1,H2) tətbiq olunub) dərsə davamiyyəti vəziyyəti yoxlanılıb. 10 ümumtəhsil məktəbində 34 müəllimin dərsə davamiyyəti vəziyyətinin araşdırılması zamanı rayonun Ərəbqubalı kənd İ.Məmmədov adına tam orta məktəbində 2, Sığırlı kənd C.Əsgərov adına tam orta məktəbində 1, Çərtəyəz kənd ümumi orta məktəbində 1 müəllimin işdə olmadığı aşkarlanıb. Buna baxmayaraq, Ərəbqubalı kənd tam orta məktəbinin müəllimləri Dilbər Həmidzadə və Asiyət Xəlilovanın ötən ilin sentyabr-noyabr aylarında işə gəlməməsinə şərait yaradan məktəbin direktor əvəzi iş vaxtının uçotu tabelinə onların işdə olması barədə saxta məlumatlar daxil edib.

Eyni zamanda Sığırlı kənd tam orta məktəbinin müəllimi Gülöyşə Bədəlovanın 2 ay müddətində dərs keçməməsinə və sinif jurnallarında qeydlər aparmamasına, Çərtəyəz kənd ümumi orta məktəbinin müəllimi Rəna Əliyevanın 1 ay 15 gün dərsə gəlməməsinə baxmayaraq, məktəb rəhbərliyi tərəfindən onların işdə olmamasının səbəbləri araşdırılmadan qanunsuz əməkhaqqının ödənilməsinə şərait yaradılıb.

Kürdəmir Rayon Təhsil Şöbəsinin tabeliyindəki təhsil müəssisələrinin fəaliyyətinə zəif nəzarəti nəticəsində ciddi nöqsanlara yol verildiyinə görə şöbənin müdiri vəzifəsinin Mətləb Allahverdiyevə həvalə edilməsi barədə əmr ləğv edilib. Metodist Əsgər Hüseynov isə əmək qanunvericiliyinin tələbləri gözlənilməklə intizam məsuliyyətinə cəlb olunub.

Həmçinin yuxarıda adları qeyd olunan məktəblərdə direktor vəzifəsi həvalə olunan Mütəllim Mütəllimov, Firəngiz Həşimova və Rəmzi Ağayev barədə əmrlər ləğv olunub. Direktor müavinləri Aqşin Qədiyev, Minarə Ağayeva və müəllimlər Gülöyşə Bədəlova, Rəna Əliyeva, Dilbər Həmidzadə və Asiyət Xəlilova tutduqları vəzifədən azad ediliblər.

Quba rayonunun 7 ümumtəhsil məktəbində də mərkəzləşdirilmiş qaydada işə qəbul olunmuş 11 müəllimin işə davamiyyəti yoxlanılıb. Bu rayonda da yeni işə qəbul olunmuş müəllimlərin əksəriyyətinə həvəsləndirmə tədbirləri (H1, H2) tətbiq olunub.

Yoxlama zamanı Çiçi kənd tam orta məktəbində 2016-cı ildə işə qəbul olunmuş müəllim Aynur Abbasovanın işə gəlmədiyi və direktor Həvva Süleymanovanın iş vaxtının uçotu tabelinə A.Abbasovanın işdə olması barədə saxta məlumatlar daxil etdiyi aşkarlanıb.

Quba Rayon Təhsil Şöbəsinin müdiri Loğman Müslümova və aparıcı məsləhətçi Cahangir Abdullayevə rayonun ümumtəhsil məktəblərinə zəif nəzarət edərək vəzifə funksiyalarını lazımi şəkildə yerinə yetirmədiklərinə görə töhmət verilib.

Məktəbə rəhbərlik və nəzarətdə ciddi nöqsanlara yol verərək işçinin işdən yayınmasına şərait yaratdığına və rəsmi sənədlərə yalan məlumatlar daxil etdiyinə görə Çiçi kənd tam orta məktəbinin direktoru Həvva Süleymanova ilə bağlanmış əmək müqaviləsi ləğv edilib.

Təhsil Nazirliyi bundan sonra da işində nöqsanlara yol vermiş şəxslərə qarşı mövcud qanunvericiliyin tələblərinə əsasən tədbirlər görüləcəyini və müraciətlərin araşdırılması nəticəsində aşkarlanan faktlar barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandıracağını bildirir.

**Mətbuat xidməti**

# Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin məlumatı

2013-cü ildən dünyanın ən qədim və nüfuzlu universitetlərindən biri olan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi fəaliyyət göstərir. Mərkəz Oksford Universitetinin tərkib hissəsi və nadir tədqiqat müəssisəsi olaraq Azərbaycan və onun elmi irsi üçün xüsusi və mühüm əhəmiyyət daşıyır. Elmi mərkəzin yaradılmasının təşəbbüskarı və onun Azərbaycan tərəfdən rəhbəri AMEA-nın müxbir üzvü, professor Nərgiz Paşayevadır. Mərkəzin Britaniya tərəfdən rəhbəri, Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin professoru Edmund Hersiqdir.

**Nizami Gəncəvi Mərkəzi Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin Universitetin tək Şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir.**

Hal-hazırda Mərkəz Oksford Universiteti tərəfindən tərtib və təsdiq edilmiş 5 illik elmi-tədris proqram üzrə kitabların yüksək akademik səviyyədə tərcüməsi, Bərdə şəhərində arxeoloji tədqiqatların aparılması, beynəlxalq konfransların keçirilməsi, əlyazmaların öyrənilməsi, aspirant və magistrantların hazırlığı istiqamətində fəaliyyət göstərir. Həmçinin Oksford Universitetinin qaydaları çərçivəsində mədəni-akademik layihələri də həyata keçirərək dünya elmi-intellektual birliyi ilə əlaqələr yaratmağa çalışır.

Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi yarandığı gündən Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı onun ilkin partnyoru olmuş və həmin mərkəzlə ən sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Belə ki, MDU-nun Bakı filialı Azərbaycanda fəaliyyət göstərən bütün elmi müəssisə və təşkilatlar üçün də yeganə əlaqə mərkəzidir. MDU-nun Bakı filialında bu funksiyanı yerinə yetirən "Oxford Room" adlı xüsusi şöbə mövcuddur. Şöbə Mərkəzin fəaliyyəti ilə maraqlanan, onun ali missiyasına köməklik göstərmək istəyən təhsil və elm müəssisələrini, fiziki və hüquqi şəxsləri Mərkəzin fəaliyyəti haqqında informasiya ilə təmin edir. Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinə edilən bütün birbaşa müraciətlər "Oxford Room" şöbəsinə göndərilir və burada ilkin baxışdan keçirilir. Nizami Gəncəvi Elmi Mərkəzinin fəaliyyəti haqqında bütün məsələlərlə əlaqədar aşağıdakı ünvana müraciət edə bilərsiniz:

**Lomonosov adına MDU-nun Bakı filialı, "Oxford Room".**
**AZ 1144, Azərbaycan, Bakı şəhəri, Binəqədi rayonu,**
**Xocasən qəsəbəsi, Universitet küçəsi 1.**
**Tel/fax : (+994 12) 598 97 39 ; mob (+994 55) 222 98 87**
**e-mail: oxfordroom@msu.az; nizami.ganjavi@orinst.ox.ac.uk**
**http://www.orinst.ox.ac.uk/research/nizami-ganjavi/home**

# BDU-da "Qorqud atadan günümüzə aşıqlıq ənənəsi" mövzusunda simpozium




Bakı Dövlət Universitetində bu ali təhsil müəssisəsinin və Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə "Qorqud atadan günümüzə aşıqlıq ənənəsi" mövzusunda simpozium keçirilib. BDU-nun rektoru, akademik Abel Məhərrəmov tədbir iştirakçılarını və türkdilli ölkələrdən gəlmiş çoxsaylı qonaqları salamlayıb, simpoziumun rəhbərlik etdiyi ali təhsil müəssisəsində keçirilməsini yüksək qiymətləndirib. Bildirib ki, təxminən 100 il bundan əvvəl-1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetinin ilk 2 fakültəsindən biri tarix-filologiya adlanıb, ötən dövr ərzində xalqımızın milli-mənəvi dəyərləri, o cümlədən qardaş türk xalqları ilə bağlı müştərək tariximiz, mədəniyyətimiz dərindən araşdırılıb. Bu irsin ən dəyərli nümunələrindən biri olan "Dədə Qorqud" abidəsinin zəngin tarixini, onun mifologiyadan yazıya, eposdan kitaba çevrilmək qüdrətini tədqiq etmək baxımından alimlərimiz çox böyük işlər görüblər. Rektor onu da qeyd edib ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi beynəlxalq səviyyədə qeyd edilərkən BDU-nun alimləri həmin tədbirlərdə aparıcı qüvvə kimi iştirak ediblər. Bu gün BDU-da "Dədə Qorqud" Elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. "Kitabi-Dədə Qorqud" dastanlarının daha çox Azərbaycan əraziləri, toponimikası və bədii təfəkkürü ilə bağlılığı tədqiqatçılar tərəfindən təbii hesab edilir.

Tədbirdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Türkiyənin "Türk dili" qurumunun rəhbəri, professor Mustafa S.Kaçalin, Bayburt Universitetinin rektor köməkçisi Süleyman Ciydem, Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru, professor Sebahattin Balcı, Qazaxıstan Respublikası Qorqud Ata Elmi Araşdırmalar İnstitutunun müdiri Şirinbek Koylibayev, AMEA-nın Folklor İnstitutunun direktoru Muxtar İmanov və Yunus Əmrə İnstitutunun direktoru İbrahim Yıldırım çıxış ediblər.

Sonra simpozium öz işini bölmə iclasları ilə davam etdirib. İclaslarda alim və tədqiqatçıların aşıq sənəti və ənənələrindən, ayrı-ayrı el sənətkarlarından bəhs edən mövzularla bağlı məruzələri dinlənilib, müzakirələr aparılıb, mədəni tədbirlər keçirilib və Dədə Qorqud bəstələri səsləndirilib.

**Mətbuat və informasiya şöbəsi**

# "Heydər Əliyev və İslam mədəniyyəti" mövzusunda məşğələ keçirilib

Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin "Heydər Əliyev və İslam mədəniyyəti" mövzusunda 211-ci məşğələsi keçirilib.



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq İslam dininin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil etdiyini bildirib. Rektor qeyd edib ki, ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanda din sahəsində gərginliyin azaldılması, dini vəziyyətin yaxşılaşdırılması, dövlət-din münasibətlərinin tənzimlənməsi və radikal qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində mühüm tədbirlər həyata keçirilib. 1996 və 1997-ci illərdə «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklərin edilməsi ilə isə dövlət-din münasibətlərində yeni bir mərhələnin əsası qoyulub, din sahəsinə və dindarlara dövlətin qayğısı artıb. Bu ənənə bu gün də ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi, NDU-nun şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Vüqar Babayev çıxışında vurğulayıb ki, muxtar respublikada dini tolerantlıq mövcuddur. 2014-cü il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə muxtar respublikada dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsi, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsi məqsədilə multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Muxtar respublikada radikal və dini nifrət yayan cərəyanlara, qondarma dini təriqətlərə, zərərli dini ideyalara qarşı mübarizə məqsədilə maarifləndirmə işləri aparılır.

**Nərmin CABBAROVA,**
*Mətbuat şöbəsinin əməkdaşı*

# ATU-da elm-sənaye əlaqələrinə həsr olunan elmi-praktik seminar



Azərbaycan Texnologiya Universitetində (ATU) "XXI əsr elm-sənaye əlaqələri: nəticələr və perspektivlər" mövzusunda elmi-praktik seminar keçirilib. "Det-Al" Alüminium Kompleksi ilə birgə təşkil edilən seminar əsasən bu sənaye müəssisəsi ilə universitet arasında əməkdaşlıq əlaqələri çərçivəsində görülən işlərin nəticələrinə həsr olunub.

Tədbiri giriş sözü ilə açan ATU-nun rektoru, professor Akif Süleymanov bildirib ki, müasir dövrdə elm və sənaye arasında əlaqələrin genişləndirilməsi həm təhsil sahəsi, həm də istehsalat müəssisələri üçün mühüm əhəmiyyət kəsb edir. Universitet-sənaye əməkdaşlığının formalaşması və genişləndirilməsi ilə bağlı müxtəlif nəzəriyyələrin mövcud olduğunu xatırladan rektor qeyd edib ki, əlaqələrin inkişafı maraqların qarşılıqlı təmin olunmasına əsaslanmalı, prosesə göstərilən dövlət dəstəyi ilə tamamlanmalıdır.

"Det-Al" Alüminium Kompleksinin direktoru Cəmil Səfərov çıxışında artıq elm və istehsalatın birgə işinin təşəbbüs yox, zərurət nöqtəsində dayandığını bildirib. Elmi tədqiqatların istehsalata tətbiqinin zəruriliyinə toxunan C.Səfərov ATU ilə "Det-Al" Alüminium Kompleksi arasında əlaqələrin təşkilindən danışıb. Qeyd olunub ki, əməkdaşlıq çərçivəsində ATU-nun alimləri tərəfindən "Det-Al" Alüminium Kompleksi üçün elmi-tədqiqat işinin həyata keçirilməsi, eyni zamanda universitetdə zavod tərəfindən iki metallurgiya laboratoriyasının qurulması tərəflərin işgüzar əməkdaşlığının bariz nümunəsidir.

Sonra mexanika və texnoloji maşınlar kafedrasının müdiri Nazim Vəliyev 2016-cı ildə ATU ilə "Det-Al" Alüminium Kompleksi arasında aparılan elmi-praktik əməkdaşlığın nəticələri haqqında məlumat verib. Kafedranın əməkdaşları Arif Əsgərov "Vərəq-rulon pəstahlarının istehsalında istifadə edilən maye alüminium ərintilərinin rafinləşdirilməsi və modifikasiyasının bəzi məsələləri", Rövşən Qasımov isə "Sonlu elementlər analizinin universal proqram sistemi ANSYS və ondan maye metal axınının tədqiqində istifadə edilməsi" mövzularında təqdimatlar ediblər.

**Mətbuat xidməti**

# SDU-da Ümumdünya Mülki Müdafiə Günü qeyd olunub

Martın 1-də Sumqayıt Dövlət Universiteti və Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzinin təşkilatçılığı ilə Ümumdünya Mülki Müdafiə Günü qeyd oluub.



Tədbiri açan humanitar məsələlər üzrə prorektor, dosent Ramiz Hüseynov ölkəmizdə və dünyada baş verən son hadisələrdə mülki müdafiənin önəmini vurğulayaraq maarifləndirmə məqsədi ilə keçirilən bu cür tədbirləri yüksək qiymətləndirib.

Sumqayıt Regional Mərkəzinin Təlim və əməliyyat Planlaşdırma İdarəsinin rəisi, mayor Rafiq Həsənov "Mülki müdafiə gününün yaranması" mövzusunda çıxış edərək bildirdi ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının qərarı ilə elan olunan bu gün bütün qitələrdə kütləvi humanitar tədbir kimi qeyd edilir. Azərbaycan bu nüfuzlu beynəlxalq təşkilata 1993-cü ildə üzv olub. Beynəlxalq Mülki Müdafiə Günü hər il konkret bir problemə həsr edilir. Əhalinin müdafiəsini təşkil etmək, fövqəladə hallardan mühafizə sahəsində əhalinin hazırlığını təmin etmək mülki müdafiə orqanları qarşısında mühüm vəzifə kimi durur. Son illər ölkəmizdə bu sahəyə xüsusi diqqət yetirilir.

QAC Sumqayıt şəhər bölməsinin sədri Mətanət Məhərrəmova "Mobil dəstə üzvlərinin rolu" mövzusunda çıxış edərək fövqəladə hallara hazırlıq üzrə "Mobil dəstə"nin fəaliyyəti, prinsipi, malik olduqları avadanlıqlar və texnika haqqında ətraflı məlumat verib.

Universitetin tibbi hazırlıq və mülki müdafiə kafedrasının müəllimi Sabir Ələkbərov "Əhalinin mühafizəyə hazırlanmasında beynəlxalq təcrübənin öyrənilməsi", filologiya fakültəsinin II kurs tələbəsi Nigar Məmmədova "Gənclərin fövqəladə hallara hazır olması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında rolu" mövzularında çıxış ediblər.

Maraqla qarşılanan tədbirdə FHN-nın tərkibində fəaliyyət göstərən qurumlar, nazirliyin fəaliyyəti, keçirilən təlimlərin əks olunduğu videoçarx nümayiş olunub.

Tədbirin praktik hissəsində şərti xəbərdarlıq siqnalı ilə univesitetdə "Zəlzələ" həyəcanı elan edilib. Tələbələr tərəfindən dərs gedişində baş verən zəlzələ zamanı təhlükəli zonadan təxliyyə olunma qaydaları, yaralanmış şəxslərə ilk tibbi yardımın göstərilməsi üsulları nümayiş olunub.

**Mətbuat xidməti**

# UNEC-də imtahan sessiyasının yekunları ictimaiyyətə açıqlanıb

Fevralın 28-də UNEC-də imtahan sessiyasının yekunları ictimaiyyətə açıqlanıb. "Müşahidəçilərin müşahidələri və gözləntiləri" adlı görüşdə UNEC-də 2016-2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasında obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədi ilə həyata keçirilən tədbirlər planına əsasən, prosesi izləyən təhsil ekspertləri, valideynlər, QHT və KİV nümayəndələri iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov imtahan sessiyasının obyektiv və şəffaf keçirilməsində göstərdiyi dəstəyə görə ictimaiyyət nümayəndələrinə təşəkkür edib. Rektor bildirib ki, imtahan sessiyasında bir sıra yeniliklər həyata keçirilib. Belə ki, SABAH Mərkəzi və Beynəlxalq İqtisadiyyat Məktəbində imtahanlar mərkəzləşmiş qaydada təşkil edilib. Hər iki fakültədə tələbələrin mənimsəmə göstəricisi çox yüksək olub. İmtahanların təşkili və apelyasiya prosesi ilk dəfə olaraq fakültələrə ötürülüb. Zaqatala filialı və Maliyyə-İqtisad Kollecində də ilk dəfə olaraq imtahanlar UNEC-də tətbiq edilən qaydalara əsasən keçirilib. Sessiya dövründə 5491 tələbə apelyasiyaya müraciət edib. Sessiyanı akademik kəsirlə başa vuran tələbələrin sayı isə ötən illərlə müqayisədə 2 dəfə azalıb. Tələbələrin imtahan nəticələrinə 1 bal əlavə edilib.





Təhsil eksperti, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Bayram Hüseynzadə, "Trend" İnformasiya Agentliyinin baş direktor müavini Arzu Nağıyev, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev, valideynlər UNEC-in imtahan prosesinin birbaşa cəmiyyətə etibar etməsinin təqdirəlayiq olduğunu, istər imtahan sessiyasına hazırlıq işlərinin təşkilinin, istərsə də imtahanların olduqca şəffaf və obyektiv keçirilməsinin əyani şahidi olduqlarını bildiriblər.

Təhsil eksperti, "XX Əsr" Təhsil Mərkəzi İctimai Birliyinin rəhbəri Etibar Əliyev sessiya dövründə tələbələr arasında keçirdikləri anonim sorğunun nəticələrini açıqlayıb. Qeyd edib ki, 400 tələbə arasında keçirilən anket sorğusunun nəticələrinə əsasən gənclər imtahan prosesindən razı qaldıqlarını bildirib, ali təhsil ocağında tətbiq edilən islahatları yüksək qiymətləndiriblər.

Sonda ictimaiyyət nümayəndələrinə UNEC-ə göstərdikləri dəstəyə görə sertifikat və hədiyyələr təqdim olunub. UNEC-də imtahan sessiyasının obyektiv təşkilinə görə Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarəedilməsi mərkəzi, informasiya təminatı və ictimaiyyətin operativ məlumatlanmasına görə isə Marketinq və kommunikasiya departamenti sertifikatla təltif edilib.

**Mətbuat xidməti**

# SDU-da kimya sənaye müəssisələrinin rəhbərləri tələbələrlə görüşüblər

Martın 2-də Sumqayıt Dövlət Universitetində (SDU) "Azərikimya" İB-nin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Muxtar Babayev, "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov, "SOCAR Polimer" MMC-nin maliyyə direktoru Fuad Əhmədov, "Azərikimya" İB "Etilen - polietilen" zavodunun direktoru Oqtay Niftəliyev, SOCAR-ın "Karbamid" zavodunun direktoru Xəyal Cəfərov tələbələrlə görüşüblər.

Görüşdə universitetin rektoru, professor Elxan Hüseynov çıxış edərək təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, qarşılıqlı əməkdaşlığın qurulması olduqca əhəmiyyətlidir. Rektor hazırda ali təhsil ocağının bir çox müəssisələrlə səmərəli tədris əlaqələrinə malik olduğunu diqqətə çatdıraraq bu təşəbbüsün birgə ixtisaslı kadrların hazırlanması işinə töhfə verəcəyinə əminliyini ifadə edib. Qeyd edib ki, ali təhsil müəssisəsində "Sumqayıt Texnologiyalar Parkı" və "Azərikimya" İB-nin müəssisələri ilə iş birliyi yaradılıb, AMEA-nın Polimer Materialları İnstitutu ilə universitet arasında təhsil-elm-istehsalat çərçivəsində elmi əməkdaşlıq üzrə istiqamətlər müzakirə edilərək hədəflər müəyyənləşdirilib, bu günlərdə "Azərişıq" ASC-nin Tədris Mərkəzi ilə əməkdaşlıq müqaviləsi imzalanıb. Tələbələrin tədris zamanı əldə etdikləri nəzəri biliklərin zənginləşdirilməsi məqsədilə onlar ölkəmizin bir sıra idarə və istehsalat müəssisələrinə, həmçinin "Azərikimya" İB-nin təşəbbüsü ilə Türkiyənin "Petkim" Petrokimya Holdinqə istehsalat təcrübəsinə göndərilir. Bu əlaqələr tələbələrə təcrübə qazanmaq imkanı verməklə yanaşı, gələcəkdə həmin müəssisədə çalışmaq arzusunda olanlara verilən növbəti dəstəkdir. Belə təcrübələrin təşkili tələbələrin əldə etdiyi nəzəri biliklərin təcrübə ilə vəhdətdə daha dərindən mənimsəmələrinə və onların peşəkar kadr kimi yetişməsinə kömək edəcəyini təmin edir.





Tədbirdə "Azərikimya" İB-nin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Muxtar Babayev, "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov, "SOCAR Polimer" MMC-nin maliyyə direktoru Fuad Əhmədov, "Azərikimya" İB "Etilen - polietilen" zavodunun direktoru Oqtay Niftəliyev, SOCAR-ın "Karbamid" zavodunun direktoru Xəyal Cəfərov rəhbərlik etdikləri müəssisələrdə görülən işlər, yeniliklər haqqında ətraflı məlumat verərək tələbələrin karyera imkanlarının genişləndirilməsində bilik, bacarığın hər zaman öndə dayandığını diqqətə çatdırıblar. Qonaqlar sonra tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıblar.

Görüşdə daha sonra müəssisələr arasında imzalanacaq əməkdaşlıq memorandumunun müddəaları, müştərək layihələr və elmi əməkdaşlıq müzakirə edilib. Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və "Azərikimya" İB-nin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Muxtar Babayev əməkdaşlıq haqqında memorandum imzalayıblar. Müqavilədə tərəflərin təhsil, elm və texnikayönümlü qarşılıqlı maraqların və ehtiyacların təmin olunmasına yönəldilmiş sahələrdə əməkdaşlıq, birgə maarifləndirici proqramların reallaşdırılması, tədris mübadiləsinin aparılması, ixtisasartırma və yenidənhazırlanma kurslarının təşkili, yeni texnologiyaların öyrənilməsi və inkişafında təcrübə mübadiləsi, universitet tələbələri üçün müəssisənin aparıcı mütəxəssislərinin seçmə mühazirələrinin təşkili və digər məsələlərin həyata keçirilməsi nəzərdə tutulur.

**Mətbuat xidməti**

## Aqrar Universitetinin rektoru tələbələrlə görüşüb

Magistratura pilləsi təhsildə elmi dərəcə hesab edilir. Hətta bu pilləni bitirən tələbələr ali təhsil müəssisələrində bilik və təcrübələri daxilində işlə təmin olunur. Deməli, magistratura həm də universitetdə kadrların gəncləşməsi üçün baza rolunu oynayır. Elə bu səbəbdən də Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov vaxtaşırı təhsilin magistratura pilləsinin 1-ci kursuna qəbul olan tələbələrlə görüşür, onların təhsil şəraitləri, problemləri, arzu və təklifləri ilə maraqlanır.

Belə görüşlər artıq ənənə formasını alıb və tədrisin daha uğurlu alınmasında səmərəsini verib. Bu il magistratura təhsili almaq üçün 32 ixtisas üzrə 159 nəfər tələbə məhz bu universiteti seçib. 97 nəfər magistrant isə təhsilini dövlət sifarişi əsasında alır. Magistrantların bir qismi yeni istifadəyə verilən tələbə evində yerləşdirilib. Bu dəfə keçirilən görüşdə də tələbələrlə səmimi söhbət aparılıb, onların təklifləri dinlənilib.

ADAU-nun rektoru İbrahim Cəfərov görüş zamanı bir daha deyib ki, siz bizim üçün əslində kadr bazası hesab edilirsiniz. Eyni zamanda dövlət və elm üçün böyük əhəmiyyət kəsb edirsiniz. Elmin gələcəyi sizlərin əlindədir. Odur ki, müəllimlərinizə tələbkar olun və çox öyrənməyə çalışın. Elmi nəzəriyyənin təcrübəyə tətbiqi üçün isə hər cür şərait var və siz bu şəraitdən istənilən formada bəhrələnə bilərsiniz.

Görüşdə tələbələr xaricdə təhsil, iş məsələsi, dil öyrənmək, təcrübələrdə iştirak etmək və başqa suallarına müsbət cavablar alıblar.

**Mətbuat xidməti**

## Bayburt Universitetinin əməkdaşları ADMİU-nun qonağı olub

ADMİU-da beynəlxalq əlaqələrin genişlənməsi sahəsində mühüm işlər görülür. Bu istiqamətdə görülən işlərin başlıca prinsiplərindən biri dünyanın nüfuzlu ölkələrinin ali məktəbləri ilə müqavilələrin, sazişlərin, sözləşmələrin imzalanmasıdır. Silsilə danışıqların və görüşlərin davamı olaraq, Türkiyənin Bayburt Universitetinin bir qrup rəsmi nümayəndəsi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin qonağı oldu. Bayburt Universitetinin prorektorları, tibb elmləri fakültəsinin dekanı prof. Dr. Halil İbrahim Şimşek, insan və cəmiyyət elmləri fakültəsinin dekanı, sosial elmlər fakültəsinin dekanı, prof. Dr. Süleyman Çiğdem, ilahiyyat fakültəsinin dekanı, prof. Dr. Nasrullah Hacimüftüoğlu, elmi katib Mete Yusif Ustabulut, ümumi işlər üzrə müavin Haruk Teoman, türk dili qurumunun rəhbəri, prof. Dr. S.Kaçalin universitet haqqında geniş məlumat verərək, iki universitet arasında elm-təhsil, bilik, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığın təməlinin qoyulmasını və gələcəkdə də inkişaf etdirilməsi arzusunda olduqlarını ifadə etdilər.

Qonaqlar Bayburt Universitetində incəsənət fakültəsinin yaradılması istiqamətində görülən işlərdən və gələcək planlardan bəhs etdilər. ADMİU-nun tədris işləri üzrə prorektoru, professor Validə Məmmədova, beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, professor Gülşən Əliyeva, elmi katib, dosent Fatimat Məmmədova ilə Bayburt Universitetinin nümayəndələri arasında əməkdaşlıq haqqında gələcək planlar müzakirə olundu və yaradılacaq ixtisasların tədris planları təhlil edildi. ADMİU-nun nümayəndələri qonaqlara mədəniyyət və incəsənət sahəsində professional mütəxəssisləri, lazımi tədris planları ilə dəstək olacaqlarına və Bayburt Universitetinin gələcək perspektivi üçün lazım olan fənn proqramlarının hazırlanmasında köməkliyin göstərilməsinə dair öhdəlik götürdülər.

Bayburt Universitetindən gələn rəsmi heyət tərəfindən ADMİU-nun kitabxanasına dəyərli kitablar hədiyyə edildi.

**Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

## Bakı Mühəndislik Universitetində

Bakı Mühəndislik Universitetində "Xocalı harayı" adlı tədbir keçirilib. Tədbirdə öncə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib. Tədbirə giriş sözü ilə açan universitetin rektoru səlahiyyətlərini icra edən professor Havar Məmmədov Xocalı soyqırımının tarixi kökləri barədə ətraflı məlumat verib. O qeyd edib ki, bu gün Xocalı faciəsinin dünyaya tanıdılmasının təməlini ulu öndər Heydər Əliyev qoyub. Xocalıda baş verən qanlı hadisələrə ilk dəfə hüquqi-siyasi qiymətin ulu öndər Heydər Əliyev tərəfindən verildiyini vurğulayıb. Soyqırımı cinayəti ilə bağlı həqiqətlərin dünya miqyasında təbliğində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərindən danışıb.



Tədbirdə çıxış edən AMEA-nın şöbə müdiri İlqar Niftaliyev bildirib ki, Azərbaycan xalqı zaman-zaman erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Azərbaycanlılar tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla nəticələnib. Beləliklə, erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, faciənin soyqırım kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyətə start verildi. Bu siyasət indi də davam etdirilir. Burada əsas məqsədin tarixi ədalətin bərpasına nail olmaq, soyqırım cinayətkarlarını dünya ictimaiyyətinin mühakiməsinə vermək olduğunu bildirib. Sözügedən siyasətin gerçəkləşməsində "Xocalıya ədalət!" kampaniyası müstəsna rol oynayıb.

Çıxış edən natiqlər vurğulayıblar ki, rus ordusuna məxsus 366-cı motoatıcı alayın iştirakı ilə erməni qəsbkarları tərəfindən reallaşdırılmış Xocalı soyqırımı XX əsrin ən böyük faciələrindən biridir. Qeyd olunub ki, həmin hadisə nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i yaşlı olmaqla 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Tədbirdə vurğulanıb ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri ermənilərin Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayəti qınamalı və Xocalı soyqırımına beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Tədbirdə universitetin tələbələrinin ifasında Xocalı soyqırımını əks etdirən " Xocalı harayı " adlı bədii kompozisiya nümayiş olunub və "Sarı gəlin" mahnısı səsləndirilib.

## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında Xocalı faciəsinin 25-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirilib. Akademiyanın professor-müəllim və tələbə heyətinin iştirakı ilə gerçəkləşən tədbir soyqırım qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb. Tədris işləri üzrə prorektor Sirac Məmmədov bu amansız soyqırım aktının insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil olduğunu qeyd edib və onu təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlığa qarşı törədilən amansız bir cinayət adlandırıb.



Prorektor bildirib ki, Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət davam etdirilir.

S.Məmmədov ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin soyqırıma hüquqi qiymət verilməsi yolunda ardıcıl işlər apardıqlarını bildirib və erməni faşizminin beynəlxalq müstəvidə ifşa edilməsinin çox vacib olduğunu diqqətə çatdırıb.

Sonra çıxış edən Xocalı sakini, faciə zamanı döyüşlərdə iştirak etmiş Qiyas Əhmədov o vaxt cərəyan edən hadisələrdən və baş verən proseslərdən söz açıb.

Daha sonra soyqırım haqqında sənədli film nümayiş etdirilib.

Tədbir akademiya tələbələrinin hazırladığı Xocalı hadisələrini əks etdirən flashmob ilə sona çatıb.

**Xaqani MƏMMƏDOV,**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi*

## Heydər Əliyev adına liseydə

Bakıdakı Heydər Əliyev adına liseydə Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar "Unutqanlıq qorxunc bəladır" adlı ədəbi-bədii kompozisiya keçirilib. Tədbirdə liseyin müəllim-şagird kollektivi ilə yanaşı Milli Məclisin deputatı Hüseynbala Mirələmov, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Jalə Abdiyeva, Təhsil Nazirliyinin şöbə müdiri Almaz Əsgərova, məktəb direktorları, KİV nümayəndələri və digər qonaqlar iştirak edib. Öncə iştirakçılar Xocalı faciəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib.



Tədbiri giriş sözü ilə açan liseyin direktoru Sevinc Orucova qanlı fevral gecəsindən ürəkağrısı ilə danışıb. Bildirib ki, Xocalı şəhərində həyata keçirilmiş bu soyqırım nəticəsində 613 nəfər qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 1275 nəfər girov götürülmüş, 150 nəfərin taleyi isə hələ də bəlli deyil. S.Orucova qeyd edib ki, "Unutqanlıq qorxunc bəladır. Biz bu faciəni nəinki unutmamalıyıq, yetişdirdiyimiz savadlı, hərtərəfli gənclərimizlə bu misli görünməmiş faciəni dünya ictimaiyyətinə çatdırmalıyıq".

Tədbirdə çıxış edənlər Xocalı faciəsinin dəhşətlərindən söz açıb.

Liseyin yuxarı sinif şagirdlərinin Xocalı haqqında hazırladıqları səhnəciklər, söylədikləri şeirlər iştirakçılara kövrək anlar yaşadıb.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*

## Bakı Qida Sənayesi Kollecində

Bakı Qida Sənayesi Kollecində Xocalı faciəsinin 25 illiyinə həsr olunan anım mərasimi keçirilib.

Tədbiri Bakı Qida Sənayesi Kollecinin direktoru Vilayət İsmayılov açaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğından danışıb. Qeyd edilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan ediblər.

Xocalı soyqırımının bəşər tarixində ən qanlı faciələrdən biri olduğunu söyləyən direktor onun acı nəticələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı (genosidi) günü haqqında" qərar qəbul edib. Qəbul olunmuş qərara əsasən, Azərbaycan və bəşər tarixinin qanlı səhifələrindən biri olan bu hadisələr hər il fevralın 26-da Xocalı Soyqırımı Günü kimi qeyd olunur. Kollecin direktoru Xocalı faciəsi haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ölkə başçısı İlham Əliyev, Heydər Əliyev Fondu tərəfindən məqsədyönlü işlərin aparıldığını söyləyib.



Anım mərasimində kollecin tədris hissə müdiri Adil Tapdıqov, müəllim Firidun Orucov,Tələbə Gənclər Təşkilatının sədri Röya Əsgərova çıxış edərək Xocalıda baş verənlərin Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin davamı olduğunu qeyd ediblər.

Sonda tələbələr Xocalıya həsr olunan şeirlər söyləyib, səhnəciklər nümayiş etdiriblər.

**Akif KƏRİMLİ**

## Lənkəran Dövlət Universitetində

Lənkəran Dövlət Universitetində bəşər tarixinə XX əsrin ən dəhşətli hadisələrindən biri kimi daxil olmuş Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Fevralın 24-də təşkil olunan anım tədbirində Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri açan universitetin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov bu faciəyə siyasi-hüquqi qiymətin ilk olaraq ümummilli lider Heydər Əliyev tərəfindən verildiyini bildirdi və qeyd etdi ki, Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bütün dünyanın, bəşərin faciəsidir. Tarix və onun tədrisi metodikası kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Rakif İbadov "Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilən erməni vandalizmidir" mövzusunda məruzə etdi.

Universitetin tədqiqat işləri və innovasiyalar üzrə prorektoru vəzifəsini icra edən professor Yədulla Ağazadə, tarix üzrə fəlsəfə doktoru, dosent Kamal Mahmudov, universitetin doktorantı Ülkər Hüseynova, tərcümə (ingilis dili) ixtisası üzrə IV kurs tələbəsi Arzu Nəsibova, maliyyə ixtisası üzrə II kurs tələbəsi Elnur Səmədzadə çıxış edərək Xocalı soyqırımının dəhşətlərindən, Azərbaycan əhalisinə qarşı törədilmiş vəhşiliklərdən danışdılar. Qeyd edildi ki, universitetin kollektivi "Azərbaycan həqiqətlərini dünyaya çatdıraq!" hərəkatına qoşulmuşdur. Gənclər universitetin veb saytında Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəallıq göstərmişlər.

Tədbirdə Xocalı soyqırımı haqqında videofilm nümayiş etdirildi. Qeyd edək ki, universitetdə tədris aparılan akademik qruplarda birinci dərs saatları Xocalı soyqırımına həsr edilmişdir. Universitetin Elmi kitabxanasında Xocalı faciəsini əks etdirən kitab sərgisi açılmışdır.

*Mətbuat mərkəzi*

## Bilik Fondunun təşkilatçılığı ilə

Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə təsdiqlənmiş "Xocalı soyqırımının 25-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı"na əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Bakıda və müxtəlif bölgələrdə silsilə tədbirlər keçirilib.

Tədbirlərə fondun əməkdaşlarının və Könüllülər Birliyi üzvlərinin soyqırım qurbanlarının xatirəsini yad etməsi ilə başlanılıb. Tədbirdə fondun icraçı direktoru Oktay Səmədov xalqımızın yaxın tarixində baş verən qanlı hadisələrin yalnız müəyyən günlərdə deyil, hər zaman xatırlanmasının və həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının zəruriliyini vurğulayıb. Toplantıda Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırım aktı kimi tanınması istiqamətində Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasətin uğurları, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə başlanmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyasının əhəmiyyəti barədə də geniş məlumat verilib.

Belə tədbirlərdən biri də fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Okinava Karate Federasiyasının birgə təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Xocalı faciəsi - qan yaddaşımızdır" mövzusunda keçirilib.

Xocalı soyqırımına həsr olunmuş videoçarxın nümayişilə başlayan tədbirdə çıxış edən Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev Ermənistanın azərbaycanlılara qarşı tarix boyu soyqırım törətdiyini xatırladaraq, Xocalı qətliamının insanlıq tarixində qanlı səhifə olduğunu söyləyib.

Bundan başqa, Bilik Fondunun təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində də Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə muzeyin direktoru, akademik Nailə Vəlixanlı bildirib ki, Xocalı soyqırımı tariximizin ən qanlı səhifələrindən biridir. Nailə xanım dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsini, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını bildirib.

Faciənin ildönümü ərəfəsində Bilik Fondunun yerli nümayəndələrinin təşkilatçılığı ilə Qax, Oğuz, Şəmkir, İsmayıllı, Nardaran Bilik evlərində, həmçinin digər rayonlarda yerli icra hakimiyyəti nümayəndələrinin, ziyalıların, fəal gənclərin və məktəblilərin iştirakı ilə anım mərasimləri keçirilib.

**İnformasiya təminatı sektoru**

## 20 nömrəli məktəb-liseydə

Bakı şəhəri A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə "2 I" sinfinin rəhbəri Samirə Hacıyevanın "Xocalı - 25 il sənsiz!" mövzusunda "açıq dərs"i keçirildi.

Xocalı soyqırımına həsr olunmuş "açıq dərs" Xocalı qurbanlarının xatirəsinin 1 dəqiqəlik sükutla anılması ilə başlandı.

Tədbirdə şagirdlər öz ifalarında faciənin ağırlığını şeir və səhnəciklər vasitəsi ilə yüksək səviyyədə kövrələrək ifa etdilər. Kənan Qasımzadə, Məryəm Eyvazlı, Ceyhun Ağazadə, Nicat Haşımzadə, Mirağa Muradzadə, Şəhla Balakişiyeva, Nilufər Hacıbəyli, Aytac Qafarzadə, Aliyə Əliyeva, Əkbər Hüseynli dərs zamanı xüsusilə fərqləndilər.

Şagirdlərdən Mehdi Umudov, Ayan Həmidova, Olya Baxışova, Əkbər Əlizadə, Haday Əhmədov, Suel Məmmədzadə, Mamed Mamedov, Sofiya Rıtko, Malik Sadıxzadə, Məhəmməd Məmmədov, Ramal Kərimli Xocalı soyqırımı qurbanlarının kiçik səhnəciklə yaşanan ağrı- acılarının az da olsa təəssüratını yaratdılar.

"2 I" sinfinin rəhbəri Samirə Hacıyevanın sözlərinə görə, "açıq dərs"in Xocalı mövzusunda keçirilməsində məqsəd faciə qurbanlarının xatirəsini yad etmək, şagirdlərdə ulu öndərimizin davamçısı olan möhtərəm Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə olan inamı möhkəmləndirməkdir.

**Şəlalə TAHİRLİ**

# ADPU ilə AMİM arasında anlaşma memorandumu imzalanıb



Martın 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov Azərbaycan Müəllim İnkişafı Mərkəzinin (AMİM) direktoru Qrem Pollok, təhsil mütəxəssisi Bronvin Pollok, təhsil ekspertləri Asif Cahangirov və İlkin Həsənov ilə görüş keçirib. Görüşdə ADPU-nun Təhsilin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin müdiri, dosent Sənan Əliyev, beynəlxalq əlaqələr üzrə prorektoru Nigar Abbaszadə, Dövlət nümunəvi sənədlərlə və tələbələrlə iş bölməsinin müdiri Şəhla Gülməmmədova iştirak ediblər. Görüş zamanı ADPU ilə AMİM arasında əməkdaşlıq və məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edən müəllimlərin inkişafı, eyni zamanda tələbə və akademik heyət üçün nəzərdə tutulan ustad dərslərin təşkili məsələləri müzakirə edilib.

Görüşdə ADPU ilə AMİM arasında anlaşma memorandumu imzalanıb. Memorandum hər iki müəssisə arasında əməkdaşlığın, faydalı proqramların, müəllimlər üçün treninqlərin keçirilməsi, layihələrin və qarşılıqlı fəaliyyətlərin inkişafı məqsədilə imzalanıb. Qeyd edək ki, ADPU-nun müəllim və tələbə heyəti üçün nəzərdə tutulan bu layihələr, proqramlar və treninqlər müasir təlim metodları çərçivəsində ibtidai sinif müəllimlərinin öyrətmə bacarıqları və strategiyalarının yüksəldilməsi, onların inkişafı və istifadəsi, müntəzəm qiymətləndirməsi, müəllimin rolu və əsas öhdəliklərinin aşılanması istiqamətində həyata keçiriləcəkdir.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov və AMİM-in direktoru Qrem Pollok iki müəssisə arasında anlaşma memorandumunun bağlanılmasından məmnun qaldıqlarını bildirərək, bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına inamlarını ifadə ediblər.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

# Ukraynanın təhsil və elm nazirinin birinci müavini BSU-da olub



Fevralın 28-də Ukrayna Respublikasının təhsil və elm nazirinin birinci müavini Vladimir Kovtunes, nazirliyin beynəlxalq əməkdaşlıq və Avropa inteqrasiya idarəsinin rəisi Anna Novosad, Ukrayna Respublikasının Azərbaycandakı səfiri Aleksandr Mişşenko və Ukraynadan gəlmiş digər qonaqlar Bakı Slavyan Universitetində (BSU) olublar. Qonaqları qəbul edən universitetin rektoru, professor Nurlana Əliyeva BSU-nun Ukraynanın ali təhsil müəssisələri ilə əlaqələrinin tarixindən, bugünkü vəziyyətindən danışıb.

N.Əliyeva Ukraynanın rəsmi şəxslərinin müxtəlif dövrlərdə universitetə baş çəkmələrinin, tələbə-müəllim heyəti ilə görüşlər keçirmələrinin tədris prosesinə müsbət təsir etdiyini, ölkələrimiz arasındakı əlaqələrin inkişafında önəmli rol oynadığını deyib. O, buna nümunə olaraq bu günlərdə Azərbaycanla Ukrayna arasında diplomatik münasibətlərin yaranmasının 25 illiyinə həsr olunan tədbiri qeyd edib. Bildirib ki, tədbirdə Ukrayna Ali Radasının Azərbaycan Respublikası ilə parlamentlərarası qrupunun sədri Maksim Kuryaçinin və digər deputatların iştirakı Ukrayna dövlətinin Azərbaycana xüsusi diqqətinin bariz nümunəsi sayıla bilər. Rektor bu münasibətlərin gələcəkdə daha da genişlənməsi üçün universitetin üzərinə düşən vəzifələrə də toxunub.

Ukrayna Respublikasının təhsil və elm nazirinin birinci müavini Vladimir Kovtunes öz ölkəsində təhsil sahəsində gedən islahatlardan, Azərbaycanla elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədi ilə nəzərdə tutulan planlardan danışıb. O, Ukrayna ilə Azərbaycan arasında tələbə mübadiləsi, müəllim-professor heyətinin uzunmüddətli ezamiyyətləri məsələsinə də toxunub.

BSU-nun prorektoru, professor Rafiq Novruzov BSU ilə Ukraynanın ali məktəbləri arasındakı birgə layihələr barədə məlumat verib.

Görüşün sonunda qonağa BSU-nun 70 illik yubileyinə həsr edilmiş kitab və digər milli hədiyyələr verilib.

**Mətbuat xidməti**

## Ötən ay Təhsil Nazirliyinə 15693 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə və Vətəndaşların Qəbulu Mərkəzində 2017-ci ilin fevral ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində həmin mərkəzlərə ümumilikdə 15693 müraciət daxil olub. Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 12687 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 3006 vətəndaşa xidmət göstərilib. Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 1283 sənəd (659 məktub, 401 ərizə, 223 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox tələbələrin yerli ali və orta ixtisas təhsil müəssisələrinə köçürülməsi və bərpası, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), ümumtəhsil məktəblərinin 1-ci siniflərinə qəbul, müəllimlərin işə qəbulu, müəllimlərin diaqnostik qiymətləndirilməsi ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin bazar ertəsi (3018 zəng) və çərşənbə axşamı (2700 zəng) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub. Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin bazar ertəsi (808 müraciət) və çərşənbə axşamı (635 müraciət) günləri, əsasən, saat 10:00-dan 13:00-dək və 14:00-dan 16:00-dək müraciət edilib.

## Fənn müsabiqələri keçiriləcək

Martın 5-də ölkənin bütün şəhər və rayonlarında VI və VII sinif şagirdləri arasında fənn müsabiqələrinin birinci mərhələsi keçiriləcək. Fizika, kimya, biologiya, riyaziyyat və informatika fənləri üzrə keçiriləcək fənn müsabiqələrinin ilk mərhələsində 14 mindən çox şagirdin iştirakı gözlənilir. Bu, ötən tədris ilinə nisbətən 5000 nəfər çoxdur.

Fənn müsabiqələrinin keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkar edilməsi, aşağı sinif şagirdlərinin fənlərə olan marağının artırılması və onlarla məqsədyönlü işlərin aparılmasıdır.

İki mərhələdən ibarət olan fənn müsabiqələrinin final mərhələsinin cari ilin iyun ayında keçirilməsi planlaşdırılır.

Müsabiqənin final mərhələsinin nəticələrinə əsasən, şagirdlər fərdi mükafatlandırılmaqla bərabər, rayon və şəhərlərin reytinq cədvəlinə uyğun olaraq ölkə üzrə qalib komandalar müəyyən ediləcək. Yüksək nəticə göstərmiş şagirdlərin fənn müəllimləri də təltif olunacaq. Eyni zamanda ölkə üzrə istedadlı şagirdlər bazası yaradılacaq və həmin şagirdlər müvafiq fənlər üzrə müxtəlif beynəlxalq fənn və layihə olimpiadalarına hazırlıqlara dəvət ediləcəklər.

## Məktəbdənkənar təhsil müəssisələrinin pedaqoji heyətinin qiymətləndirilməsi keçirilib

Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetində bölgələrdə yerləşən məktəbdənkənar təhsil müəssisələrinin pedaqoji heyətinin bilik və bacarıqlarının qiymətləndirilməsi keçirilib.

3 gün davam edən qiymətləndirmədə 3616 nəfər müəllim iştirak edib. Bu da regionlar üzrə pedaqoji işçi heyətinin ümumi sayının 88,32 faizini təşkil edir.

15 istiqamət üzrə aparılan qiymətləndirmədə məntiqi düşünmə və pedaqoji qabiliyyət, peşə-ixtisas, informasiya-kommunikasiya texnologiyaları üzrə biliklər və psixoloji xüsusiyyətlər yoxlanılıb.

Pedaqoji heyətə 90 dəqiqə ərzində 60 sual təqdim olunub.

Ölkə üzrə məktəbdənkənar təhsil müəssisələrinin sayının optimallaşdırılması zamanı müəssisələrin yeni tərkibinin müəyyənləşdirilməsi üçün imtahan nəticələri nəzərə alınacaqdır.

# ABŞ Dövlət Departamentinin Regional İngilis dili Ofisinin rəhbəri ADU-da olub

Fevralın 28-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət Departamentinin Regional İngilis dili Ofisinin rəhbəri Con Silver Azərbaycan Dillər Universitetinin qonağı olub. Qonağı universitetdə görməkdən məmnunluğunu bildirən ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev ona ali təhsil müəssisəsinin tarixi, tədris prosesi və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verib.

Görüşdə ingilis dili müəllimlərinin hazırlığı məsələləri, bu ixtisas üzrə təhsil alan tələbələrə ingilisdilli mütəxəssislərin dərs deməsi ilə bağlı müzakirələr aparılıb. Müzakirələr zamanı ADU ilə ABŞ Dövlət Departamentinin Regional İngilis dili Ofisi arasında səmərəli əməkdaşlıqla bağlı məsələlərə də toxunulub.

Görüşdə, həmçinin ABŞ səfirliyinin İctimai əlaqələr şöbəsinin mədəniyyət və təhsil işləri üzrə müşaviri Emi Pitersen də iştirak edib.

Qonaqlar görüşdən sonra ADU-nun İnformasiya Resurs Kompleksi ilə yaxından tanış olublar.

**İnformasiya Departamenti**



# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-praktik seminar keçirilib

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqi sənəti fakültəsində "İncəsənət tarixi: XXI əsrdən baxış" silsiləsindən "Klassisizm: Tarix və əhəmiyyəti" mövzusunda elmi-praktik seminar keçirilib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, əməkdar incəsənət xadimi Kamilə Dadaşzadə musiqidə klassisizmin özünü daha çox opera janrında büruzə verdiyini söyləyib, Fransa və İtaliya mədəniyyətində lirik faciədən və operaseriyadan söz açıb. O,Vyana klassik məktəbinin nümayəndələrindən Y.Haydn, V.Motsart və L.Bethovenin yaradıcılığının klassisizm tələblərinə uyğun gəldiyini vurğulayıb.

Tədbirdə universitetin tələbələrinin "Klassisizm dövrünün ümumi səciyyəsi","Y.Haydn musiqi klassisizmin banisi kimi", "V.A.Mosartın yaradıcılığı klassisizm dövrünün təzahürü kimi", "Bethovenin yaradıcılığında patetik modusunun təzahürünə dair" və "Klassisizm və teatr" mövzularında mühazirələri dinlənilib.

Sonra ADMİU-nun musiqi sənəti fakültəsinin tələbələri dünya klassiklərinin əsərlərini ifa ediblər. Tədbirdə ADMİU-nun rektoru, professor Fərəh Əliyeva çıxış edərək elmi-praktik seminarda iştirak edən tələbələri və müəllimləri təbrik edib, onlara gələcək yaradıcılıq işlərində uğurlar arzulayıb.



# AzTU ilə Almaniya və Çexiya universitetləri arasında əlaqələr genişləndirilir

Almaniyanın Brandenburq Texniki Universiteti ilə Çexiyanın Liberek Texniki Universitetinin nümayəndələri Azərbaycan Texniki Universitetində (AzTU) olublar. Qonaqları qəbul edən AzTU-nun rektor əvəzi Xalıq Yahudov Azərbaycanda texniki sahənin inkişafının prioritet istiqamət olduğunu bildirib. Rektor əvəzi AzTU ilə Avropa universitetləri arasında olan əlaqələrə diqqət çəkərək qeyd edib ki, qarşılıqlı əməkdaşlıq elmdə tərəqqiyə səbəb olaraq iqtisadiyyatda yeni inkişaf prosesi yarada bilər.

Xalıq Yahudov AzTU haqqında qonaqlara geniş məlumat verərək vurğulayıb ki, universitetdə yaradılan şərait və innovativ texnologiyaların elmə tətbiqi daha əlverişli əməkdaşlığa imkan verir.

Görüşdə bildirilib ki, əlaqələr çərçivəsində müəllim, tələbə mübadiləsi ilə yanaşı təcrübələrin aparılması üçün texniki bazadan yararlanmaq da nəzərdə tutulur.

Brandenburq Texniki Universitetinin maşınqayırma üzrə ixtisas rəhbəri, metalkəsən dəzgahlar kafedrasının müdiri Silvio Simon da qarşılıqlı əlaqələrdən məmnun olduğunu bildirib.

Liberek Texniki Universitetinin maşınqayırma fakültəsinin beynəlxalq əlaqələr üzrə dekan müavini Karel Frana da Çexiya universitetləri ilə Azərbaycan universitetlərinin tarixi əlaqələrini yada salaraq keçmişdə qalan bu əməkdaşlığın qarşıda böyük perspektivlər yaradacağına əmin olduğunu deyib.

Görüşdə hər iki universitetin nümayəndələri ilə maşınqayırma fakültəsindən başqa digər fakültələrlə də əlaqələrin qurulması məsələsi müzakirə olunub. İlkin olaraq AzTU-nun mühəndis biznesi və menecment fakültəsi ilə əməkdaşlıq nəzərdən keçirilib. Qərara alınıb ki, Brandenburq və Liberek Texniki universitetləri ilə iqtisadiyyat üzrə də əlaqələr yaradılsın.



**Mətbuat xidməti**

# Azərbaycan Memarlıq və İnşaat Universitetində “Qış məktəbi” təşkil olunub

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) ilk dəfə tələbələrin “Qış məktəbi” layihəsi həyata keçirilib. Bu il Rusiyanın Tambov və Voronej Dövlət Texniki universitetlərindən gələn 36 nəfər layihədə iştirak etmək hüququ qazanıb. Onlardan 3-ü müəllim, 33-ü tələbədir. 10 gün davam edən “Qış məktəbi”ndə rusiyalı tələbələrə memarlıq fakültəsinin müəllimləri mühazirələr oxuyub, ixtisas dərsləri keçirilib. Bundan başqa, tələbələrin Bakının qədim və müasir memarlıq abidələri ilə tanış olmaları üçün avtobusla turlar təşkil olunub, burada əyani dərslər keçirilib. Səfər çərçivəsində tələbələr İçərişəhər, Qız qalası, Şirvanşahlar Sarayı, müasir tikililər - Heydər Əliyev Mərkəzi, “Alov qüllələri” kompleksi, “Yarat” Müasir İncəsənət Mərkəzi, Dövlət Bayrağı Meydanında olublar, onlar bu tikililər barədə ətraflı məlumatlandırılıblar.

Rusiyalı tələbələr səfər çərçivəsində Şəhidlər xiyabanını da ziyarət ediblər, onlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bu münaqişədə minlərlə vətəndaşımızın şəhid, 1 milyondan artıq qaçqın və məcburi köçkün olması barədə məlumat verilib. Layihədə iştirak edən tələbələrin asudə vaxtının səmərəli təşkil olunması üçün onların Bakının digər tarixi yerlərinə - Yanardağ, Qobustan, Atəşgah və Qala qoruğuna gəzintiləri təşkil olunub, həmçinin bölgələrə səfərləri də gerçəkləşib. Onlar Qəbələ-Mingəçevir-Şəki turuyla “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksini, Şəki Xan sarayını, Karvansarayı gəziblər. Mingəçevir şəhəri ilə tanış olan qonaqlar Mingəçevir Su Elektrik Stansiyasına da baş çəkiblər.

Tambov Dövlət Texniki Universitetinin memarlıq fakültəsinin 5-ci kurs tələbəsi Viktor Voronov Azərbaycanda ilk dəfə olduğunu, səfərinin uğurlu keçdiyini vurğulayıb.



“Qış məktəbi”ndə keçirilən dərslərin səviyyəsindən çox razı qaldığını deyən qonaq mühazirələrlə yanaşı, praktik dərslərə üstünlük verilməsini bəyənib. V.Voronov: “Auditoriyada bizə nəzəri biliklər verilir, amma həmin binaları, tikililəri, konstruksiyaları əyani şəkildə görmək daha vacibdir. Bakıda dərslərlə yanaşı İçərişəhərə, Qız qalasına, “Alov qüllələri” kompleksinə, Heydər Əliyev Mərkəzinə ekskursiya zamanı biz daha çox şey öyrəndik, yeni biliklər, məlumatlar əldə etdik. Yaxşı haldır ki, Bakı nə qədər inkişaf etsə də, qədimliyini qoruyaraq saxlayıb. Bir tərəfdə müasir tikililər, digər tərəfdə qədim şəhər, Şərq üslubunda karvansaraylar, məscidlər, ötən əsrin əvvəllərinə məxsus Avropa memarlıq məktəbinin ən gözəl nümunələri. Bakı füsunkar şəhərdir, mən şəhərinizə vuruldum. Yəqin ki, Bakıya yenə gələcəyəm, bu dəfə turist kimi”, - deyərək öz təəssüratlarını bölüşüb.

Voronej Dövlət Texniki Universitetinin memarlıq fakültəsinin 5-ci kurs tələbəsi Lyudmila Vanşeva Bakı ilə yanaşı, Şəkinin memarlığını, landşaftını çox bəyəndiyini deyib. Rusiyalı qonaq burada Şəki xan sarayı, Karvansaray, Kiş kəndindəki Alban məbədinə etdikləri ekskursiyaların onda xoş təəssürat oyatdığını söyləyib. Bizimlə söhbətində Lyudmila bir neçə il bundan əvvəl Hollandiya universitetlərindən birində “Qış məktəbi”ndə iştirak etdiyini, lakin Bakıda, AzMİU-da təşkil olunan proqramdan razı qaldığını vurğulayıb. O, Hollandiyada tədrisə daha çox üstünlük verildiyini, burada isə nəzəri biliklərlə yanaşı, əyani dərslərin təşkilinin xoşuna gəldiyini bildirib. Onu da əlavə edib ki, dərslərin belə qurulması daha faydalı nəticə verər. Buradakı müəllimlərin mühazirədə söylədiklərini əyani şəkildə şəhərdə, məhz həmin binaların özündə onlara göstərməsi təcrübə baxımından çox əhəmiyyətlidir.

“Qış məktəbi” layihəsinin son günündə məktəbin məzunları - Tambov və Voronej Dövlət Texniki universitetlərinin tələbələri ilə görüş keçirilib. AzMİU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Nərgiz Abdullayeva tələbələrə AzMİU-nun tarixi, kafedraları, fakültələri, beynəlxalq əlaqələri, mübadilə proqramları, professor- müəllim və tələbə heyəti haqqında ətraflı məlumat verib. Prorektor rusiyalı tələbələrin “Qış məktəbi”ndən, orada tədris olunan dərslərdən, asudə vaxtlarının səmərəli keçməsi üçün təşkil olunmuş gəzintilərdən razı qaldıqlarına ümid etdiyini bildirib.

Tambov Dövlət Texniki Universitetinin müəllimi İrina Volkova və Voronej Dövlət Texniki Universitetinin müəllimi Tatyana Zadvoryanskaya onlara göstərilən diqqət və qayğıya görə AzMİU-nun rəhbərliyinə, təşkilatçılara təşəkkürünü bildirib və layihənin davamlı olmasını arzulayıblar.

Tədbirin sonunda tələbələrə sertifikatlar təqdim olunub.

# Paytaxt təhsilində yeniliklər

## Üçüncü könüllülük proqramı başa çatıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsində reallaşdırılan üçüncü könüllülük proqramı başa çatıb. Üçüncü könüllülük proqramı çərçivəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinə 540 nəfər müraciət edib. Onlardan müvafiq meyarlar əsasında 250 nəfər müsahibəyə çağırılıb və 35 nəfər müsahibədən müsbət nəticə əldə edib. Seçimlərin nəticələrinə uyğun olaraq, 28 nəfər BŞTİ-nin müvafiq sektorlarında və 7 nəfər isə xidmət bölmələrində fəaliyyətə başlayıb.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq 3 ildir ki, könüllü əsaslarla çalışmaq arzusunda olan gənclərlə əməkdaşlıq edir. İntizamlı, xoşrəftar, kollektivdə çalışmağı, informasiya-kommunikasiya texnologiyaları ilə işləməyi bacaran, xarici dil biliklərinə malik, ali təhsilli və ya ali təhsil müəssisələrinin son kursunda oxuyan gənclər BŞTİ-nin müxtəlif sektorlarında 3 ay təcrübə keçmək imkanı qazanırlar. İndiyədək BŞTİ tərəfindən həyata keçirilmiş ilk könüllülük proqramı əsasında 15, ikinci könüllülük proqramında 26, üçüncü könüllülük proqramında isə 35 nəfər müxtəlif sektorlarda və xidmət bölmələrində fəaliyyət göstəriblər. Onlardan 11 nəfəri hazırda BŞTİ-nin əməkdaşıdır. Könüllü kimi fəaliyyətlərini uğurla başa vuran gənclərin hər birinə BŞTİ tərəfindən müvafiq arayış verilir.

## Ümumdünya Mülki Müdafiə Günü qeyd edilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrində 1 mart - Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar tədbirlər keçirilib.

Tədbirlərin keçirilməsində əsas məqsəd şagirdlərin diqqətini fövqəladə hallar zamanı davranış qaydalarının mənimsənilməsinə yönəltmək, baş verə biləcək təbii fəlakət, yanğın və qəza hadisələri zamanı düzgün təxliyə olunmanı öyrətməkdən ibarətdir.

Paytaxtın rayonları üzrə mülki müdafiəyə məsul şəxslərin iştirak etdiyi tədbirlərdə mülki müdafiənin məqsədi və əhəmiyyəti, Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi barədə şagirdlərə geniş məlumat verilib.

Məktəblərdə mülki müdafiə qrupları tərəfindən şagirdlərin iştirakı ilə təlim prosesi də həyata keçirilib. Şagirdlər ilkin yardım və təxliyə zamanı bacarıqlarını nümayiş etdiriblər.

Təlim zamanı şagirdlərə yanğının söndürülməsi, yaralılara tibbi yardımın göstərilməsi, kimyəvi zəhərlənmə zonasının lokallaşdırılması, obyektə kimyəvi kəşfiyyatın təşkili ilə bağlı zəruri tədbirlər haqqında məlumat verilib. Ətrafdakı radiasiyanın müəyyən olunması, əleyhqaz və digər vasitələrdən istifadə qaydaları izah edilib.

Bir çox məktəblərdə mülki müdafiəyə həsr olunan “açıq dərs”lər təşkil olunub. Dərslər zamanı fövqəladə hal anlayışı, mülki müdafiə, texnogen qəzalar, fərdi mühafizə vasitələri, yanğın, partlayış, zəhərlənmə təhlükəsindən mühafizə, dəm qazından zəhərlənmənin profilaktikası, “112” zəng xidmətindən istifadə mövzularında ətraflı məlumatlar verilib. Eləcə də şagirdlərin fövqəladə hallarla bağlı bilikləri yoxlanılıb.

## Birgə layihələr müzakirə olunub

Bakı Şəhəri üzrə Təhsil İdarəsində Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşları ilə görüş keçirilib. Görüşdə BŞTİ-nin sektor müdirləri Lamiyə Şərəfxanova, Anar Qədiməliyev, Təlimə Dəstək Mərkəzinin direktoru Samirə Bektaşi, ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyinin Regional İngilis dili Mərkəzinin nümayəndələri Con Silver, Meri Boymer, Emi Peterson və digər qonaqlar iştirak ediblər.

Görüşün keçirilməsində əsas məqsəd beynəlxalq əlaqələri genişləndirmək və qarşılıqlı əməkdaşlıq



çərçivəsində təhsilimizi daha da inkişaf etdirməkdən ibarətdir. Görüş zamanı iki qurum arasındakı əməkdaşlıq istiqamətləri, həyata keçirilən layihələr və xarici dil tədrisi üzrə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması barədə müzakirə aparılıb. Ümumi təhsil məktəblərində fəaliyyət göstərən ingilis dili müəllimlərinin peşəkar inkişaf proqramlarında iştirakından və şagirdlərin dil səriştəsinin artırılmasına xidmət edən layihələrdən bəhs olunub. Dilin tədrisi üzrə mövcud ehtiyaclar, tələblər və beynəlxalq təcrübənin yerli arenada tətbiqi barədə səmərəli fikir mübadiləsi aparılıb.

## Məktəblilər arasında şahmat üzrə turnir

“Məktəblinin dostu” pilot layihəsinin tətbiq olunduğu 30 məktəb arasında şahmat turniri keçirilib.

Təhsil Nazirliyi və “ASAN Xidmət”in birgə tərəfdaşlığı ilə həyata keçirilən yarışın təşkilində əsas məqsəd şagirdlərin intellektual inkişafına dəstək olmaq və asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmaqdan ibarətdir.

Bakı şəhəri 53 nömrəli tam orta məktəbdə keçirilən turnirin açılış mərasimində çıxış edən “Məktəblinin dostu” pilot layihəsinin rəhbəri Rüstəm Ağayev yarışın təşkilində göstərdikləri köməyə görə məktəb rəhbərləri və müəllimlərə təşəkkürünü bildirib.



Yarış 7 turdan ibarət İsveçrə sistemi ilə keçirilib. Hər məktəbdən iki şagird (1 qız, 1 oğlan) olmaqla, ümumilikdə 60 məktəbli şahmat turnirinə qatılıb. Turniri Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, Yasamal rayonu Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov, şahmat üzrə qadınlardan ibarət milli komandamızın baş məşqçisi Fikrət Sideyfzadə, “ASAN Xidmət”in İnsan Resursları və Təlim şöbəsinin müdir müavini Cahangir Hacıyev və valideynlər izləyiblər.

Turnirin qalibləri müəyyənləşdirilib. Qaliblərə medal və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, “Məktəblinin dostu” pilot layihəsi çərçivəsində belə tədbirlərin gələcəkdə də təşkili nəzərdə tutulur.

## “İslam Həmrəyliyi ili” ilə əlaqədar səyyar mühazirələr

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəblərində “İslam Həmrəyliyi ili” ilə əlaqədar səyyar mühazirələr keçirilir.

Səyyar mühazirələr Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə imzalanmış “Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında” Fəaliyyət Planına uyğun olaraq təşkil edilir.

“İslam Həmrəyliyi ili” çərçivəsində “Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi”, “Azərbaycan cəmiyyətində İslam həmrəyliyi” mövzularında keçirilən mühazirələrdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin nümayəndələri, rayon icra hakimiyyətləri və rayon polis idarələrinin əməkdaşları, tərbiyə işləri üzrə direktor müavinləri (təşkilatçılar), uşaq birliyi rəhbərləri, psixoloqlar, valideyn icmasının nümayəndələri və IX-XI sinif şagirdləri iştirak ediblər.



Tədbirlərdə çıxış edənlər ölkəmizdə “İslam Həmrəyliyi ili” elan olunmasının Azərbaycanın İslam dünyasındakı nüfuzundan və hörmətindən qaynaqlandığını və IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsinin böyük tarixi əhəmiyyətə malik olduğunu qeyd ediblər.

Mühazirələrdə gənclər arasında milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliğinin əhəmiyyətinə toxunulub, hər bir gəncin vətənpərvərlik ruhunda böyüməsinin vacibliyi vurğulanıb, dini radikalizm və ekstremizmin zərərli təsirləri, gənclərin onların fəsadlarından qorunmaları üçün maarifləndirmə işlərinin aparılmasının vacibliyi qeyd olunub. Azərbaycanda tarixən formalaşmış tolerantlıq mühitindən, mehriban şəraitdə yaşayan çoxsaylı xalqların həyatından, multikultural dəyərlərin inkişafından da bəhs edilib. Qeyd edək ki, mart-aprel aylarında “İslam Həmrəyliyi ili” ilə əlaqədar səyyar mühazirələrin paytaxtın 34 ümumi təhsil məktəbində keçirilməsi nəzərdə tutulub.

**www.baku.edu.gov.az**

# Qəbul imtahanlarında 180 məzunu 600-dən çox bal toplayan rayon

**Niyazi RƏHİMOV,** *"Azərbaycan müəllimi"*

Azərbaycanın dilbər guşələrindən biri olan Bərdə ölkəmizin təhsil tarixində özünəməxsusluğu ilə seçilir. Sasanilər dövründən başlayaraq təhsil tarixinin əsası qoyulan bu şəhərdə hər dövrə uyğun tədris ocaqları fəaliyyət göstərmişdir. Bu gün də Bərdədə təhsil ənənələri qorunub saxlanılır, ölkəmizdə aparılan təhsil islahatı rayonda uğurla həyata keçirilir. Rayonda hazırda Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Bərdə Peşə Liseyi mövcuddur. Hazırda Bərdə Rayon Təhsil Şöbəsinin tabeliyində 74 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 59-u tam orta, 10-u ümumi orta, 5-i isə ibtidai məktəbdir. Bundan başqa, Bərdədə İnklüziv təhsil komponentli günüuzadılmış tam orta məktəb də mövcuddur ki, bu tədris ocağı 2016-cı ilin yanvar ayından birbaşa Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Ümumtəhsil məktəblərində təhsil alan 21228 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2873 nəfər müəllim məşğul olur. Bunlardan 2533 nəfəri ali, 782 nəfəri isə orta ixtisas təhsillidir. 2837 nəfər müəllimin 2638-i qadındır.

## Maddi-texniki baza

Son illər respublikamızın hər yerində olduğu kimi Bərdədə də təhsilin maddi-texniki bazası yenilənib. Belə ki, ən müasir standartlara cavab verən rayon təhsil şöbəsinin inzibati binası tikilib istifadəyə verilmişdir. Bundan başqa, son 5 il müddətində şəhər 7 nömrəli ümumi orta, Türkmən kənd tam orta, Şahvəlilər kənd tam orta, Qullar kənd ümumi orta, Qazaxlar kənd tam orta, Mirzalıbəyli kənd tam orta, 1 nömrəli Nazirlı kənd tam orta məktəbləri üçün yeni binalar tikilib istifadəyə verilmişdir. Rayon icra hakimiyyətinin vəsaiti hesabına şəhər 5 və 6 nömrəli tam orta məktəblərdə əsaslı təmir işləri tam başa çatdırılmışdır. Təhsil Nazirliyinin vəsaiti hesabına rayonun 12 məktəbində-şəhər 1, 3 nömrəli, Kələntərli, Əmirli, Əliyanlı, Qaradəmirçi, Əyricə, Mirzəxan, Piyadalar, Böyük Qəcər kənd ümumi orta və Lək kənd ibtidai məktəblərində cari təmir işləri aparılmışdır.

Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət proqramlarına uyğun olaraq təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən rayonun 74 məktəbindən 59-u internet şəbəkəsinə qoşulub.

Dərslik özünün funksiyasına görə tədris resursları içərisində xüsusi yer tutur. 2016-2017-ci dərs ilində ölkənin ümumtəhsil məktəblərinin I,V və IX sinifləri üçün dərsliklər yenidən nəşr edilmişdir. Ümumilikdə bu il dövlət vəsaiti hesabına 132 adda 90266 ədəd dərslik və 74 adda 7601 ədəd müəllim üçün vəsait rayonun məktəblərinə çatdırılmışdır.

## Təhsil layihələrində iştirak: uğurlar

Bərdə rayonunda fəaliyyət göstərən ümumtəhsil məktəbləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin həyata keçirdiyi layihələrdə fəal iştirak edirlər. 2016-cı ildə pilot layihə olaraq Bərdə rayonunun 2 məktəbində - şəhər 3 və 8 nömrəli məktəblərdə təmayül siniflər yaradılmışdır. Həmin siniflərdə aparılan monitorinq zamanı şagirdlərin bilik və bacarıqlarının müasir tələblərə cavab verdiyi müəyyən edilmişdir.

Aparılan məqsədyönlü işlərin nəticəsidir ki, akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-lisey və Nizami Gəncəvi adına şəhər 2 nömrəli tam orta məktəb hər biri iki, şəhər 3, 4, 8 nömrəli tam orta, Qaradəmirçi və Muğanlı kənd tam orta məktəbləri isə bir dəfə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur.

## Məktəbəhazırlıq qrupları

"Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli, 271 nömrəli qərarına əsasən ilk dəfə olaraq rayonun 59 ümumtəhsil məktəbində 1022 uşaqdan ibarət 71 qrup təşkil olunmuşdur. Həmin qruplarda təlim-tərbiyə işini 71 nəfər müəllim aparır. Qruplarda 5 yaşlıların hazırlığı üçün hər bir şərait yaradılmışdır.

## Metodiki işin təşkili

Rayon təhsil şöbəsi ən yaxşı müəllimlərin aşkar edilməsini, onların təcrübəsinin öyrənilib yayılmasını, müəllimlərin bilik və bacarıqlarının artırılmasını daim diqqət mərkəzində saxlayır. Dərs ili ərzində məktəblərdə ayrı-ayrı fənlərdən dərslər dinlənilir, "açıq dərs"lər keçirilir.

Metodkabinetin əməkdaşları məktəb metodbirləşmələrində müzakirə edilən məsələlərə dair istiqamətverici tövsiyələr hazırlayır, onların işinin planlaşdırılmasında yaxından iştirak edirlər. Dərsin müasir tələblər səviyyəsində təşkili, onun səmərəliliyinin artırılması, şagirdlərin bilik səviyyəsinin öyrənilməsi, yeni pedaqoji texnologiyaların tətbiqi və təcrübəsinin öyrənilməsi təmin olunur.

Rayonda fəaliyyət göstərən ümumtəhsil məktəbləri 16 dayaq məntəqəsinə təhkim olunmuşdur. Metodkabinetin əməkdaşları vaxtaşırı dayaq məntəqələrinə daxil olan məktəblərin müəllimləri üçün seminarlar, praktik konfranslar, təlim kursları təşkil etmiş, yeni təlim texnologiyalarına aid dərs nümunələrinin hazırlanmasında, "öyrədənlərin öyrədəni"sertifikatı almış metodistlərin, müəllimlərin görüşlərinin təşkil edilməsində, distant təhsil "Sifariş-təklif" prinsipi üzrə ixtisasartırma təhsilinə ehtiyac üzrə qrafikin hazırlanmasında yaxından iştirak etmişlər.

Metodkabinet Bərdə rayon ümumtəhsil məktəblərində təhsil alan riyaziyyat-texniki və təbiət fənləri, habelə bədii və texniki yaradıcılıq, incəsənət, idman sahələri üzrə istedadlı şagirdləri müəyyənləşdirmiş, RTŞ-də və məktəblərdə "İstedad bankı" yaradaraq, geniş tədbirlər planı hazırlamışdır. Tədbirlər planına müvafiq olaraq metodmərkəz silsilə tədbirlər həyata keçirmiş, inşa, foto, rəsm müsabiqələri, sərgilər, ekoloji mövzularda, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında, asudə vaxtlarını səmərəli təşkili, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsinə yönəldilən müxtəlif tədbirlər təşkil edilmişdir.

Vətənə məhəbbət hissinin gənclərdə aşılanması, zabitlik peşəsinə marağın artırılması RTŞ-ın qarşısında duran prioritet məsələlərdəndir və bu sahədə məqsədyönlü işlər aparılır. Bu işlərin nəticəsidir ki, son illərdə Cəmşid Naxçıvanski adına hərbi liseyə 45, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə 6, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasına 9 nəfər, hərbi həkim ixtisasına 8, Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 3, Milli Aviasiya Akademiyasına 2, Daxili Qoşunların Ali Hərbi Məktəbinə 3, Türkiyədə Hərbi Tibb Məktəbinə isə 1 nəfər qəbul olmuşlar.

## Ali məktəblərə qəbul

Bərdə rayon ümumtəhsil məktəblərinin məzunları istər respublikamızda, istərsə də xaricdə olan nüfuzlu ali məktəblərə yüksək ballarla qəbul olmuşlar. Təsadüfi deyil ki, son 5 ildə ali məktəblərə qəbul imtahanlarında Bərdə rayon ümumtəhsil məktəblərini bitirən məzunlardan 180 nəfəri 600-dən, 320 nəfəri isə 500-dən çox bal toplayıb. Bərdə məktəblərini bitirən məzunlardan 12 nəfəri Prezident təqaüdünə layiq görülüb. Sevindirici haldır ki, akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunu Arzu Həsənli isə qəbul imtahanlarında maksimum nəticə-700 bal toplayaraq Bakı Ali Neft Məktəbinə daxil olub. Bundan başqa, akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunları Nəriman Knyazlı 686, Kənan Eminov 690, Səbinə İsmayılova 692, Mədinə Şükürlü 692, 8 nömrəli tam orta məktəbin məzunları Lalə Gəraylı 690, Fidan Abbasova 679, Lamiyə Abbasova 680, şəhər 1 nömrəli məktəbin məzunu Taleh Məhərrəmov 682, Xanqaraqoyunlu kənd tam orta məktəbin məzunu Rahib İsmayılov 691, Zümürxan kənd tam orta məktəbinin məzunu Zərrintac Bəylərova 685 bal toplayaraq nüfuzlu ali məktəblərə daxil olmuş, Prezident təqaüdünə layiq görülmüşlər. Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunu Pərvaz İbrahimli isə musiqi sahəsində xüsusi istedada malik olan gənc kimi Prezidentin xüsusi aylıq təqaüdünü alanlar sırasındadır.

Onu da xatırladaq ki, akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin 2013-2014-cü il buraxılışında bir sinifdən 3 şagird Prezident təqaüdünə layiq görülmüşdür.

## Pedaqoji heyətin nailiyyətləri

Hazırda Bərdə rayon ümumtəhsil məktəblərində çalışan müəllimlərdən 13 nəfəri əməkdar müəllim, 8 nəfəri isə "Tərəqqi" medallıdır. Bundan başqa, 10 nəfər müəllim Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. Müəllimlərdən 3 nəfəri "Əməkdar məşqçi", 3 nəfəri isə "Fəxri bədən tərbiyəsi və idman işçisi"adı alıb.

Bərdə müəllimləri respublikamızda keçirilən müsabiqələrdə də uğurla iştirak edirlər. Müəllimlərdən Minayə Nəbbaqi, Flora Əliyeva, Püstə Mehdiyeva, Mehriban Hacıyeva, Rəna Həsənova, Adib Salmanov, İradə Baxşəliyeva, Könül Kazımova, Ülviyyə Eminova, Ruhiyyə Mustafayeva, Nicat İsmayılov, Tofiqə Məmmədova, Nərgiz Həsənova, Rüxsarə Mirzəyeva, Sədiqə Ağamalıyeva, Aqil Həsənov, Günel Nəsibli "Ən yaxşı müəllim " müsabiqəsinin qalibi olmuşlar. Sevindirici haldır ki, şəhər 2 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Ülviyyə Eminova, şəhər 8 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimləri Nərgiz Həsənova və Rüxsarə Mirzəyevanın qabaqcıl iş təcrübəsi yayılmışdır. Müəllimlərdən Flora Əliyeva III siniflər üçün Azərbaycan dili üzrə "Qiymətləndirmə vasitələri" adlı dərs vəsaitinin, Rəna Həsənova "Coğrafiyadan məsələlər", Məhbubə Hüseynova "Riyaziyyat damlaları", Nərgiz Həsənova isə "Təlim məqsədlərinə aid didaktik materiallar" kitablarının müəlliflərindən biridirlər.

ABŞ Dövlət Departamentinin və Beynəlxalq Tədqiqatlar Mübadiləsi Şurası "İREX" tərəfindən həyata keçirilən proqramın (TEA) iştirakçısı olan şəhər 4 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Tofiqə Məmmədova Kaliforniya Dövlət Universitetində, Çikaqoda təcrübə mübadiləsində iştirak edib və ölkəmizi layiqincə təmsil edərək diplom və sertifikatlarla təltif olunub.

"Elektron təhsil" Respublika müsabiqəsində akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin ibtidai sinif müəllimləri Püstə Mehdiyeva "İbtidai təhsildə İKT-dən istifadə üzrə ən yaxşı metodika" nominasiyası üzrə respublika birincisi, Flora Əliyeva isə "Milli elektron tədris resurslarının yaradılması" nominasiyaları üzrə nominant olmuşlar.

## Məktəblilər, olimpiada və müsabiqələr

İstedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsi və rəğbətləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında məktəblilərin fənn olimpiadası müstəsna rol oynayır. Bu məsələ RTŞ-ın daim diqqətindədir. Görülən işlərin məntiqi nəticəsidir ki, Bərdə rayon məktəbliləri respublika fənn olimpiadalarında uğurla iştirak edirlər. Son ildə məktəblilər fənn olimpiadalarında 2 gümüş, 2 bürünc medal qazanmışlar. 2015-ci ildə VII-VIII sinif şagirdləri arasında keçirilən fənn olimpiadasında şəhər 5 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Təhmin Muradov Respublikada biologiya fənnindən ən yüksək bal toplamışdır.

Bundan başqa, Bərdə məktəbliləri respublikada və xaricdə keçirilən digər müsabiqə və yarışlarda da uğurla iştirak edirlər. Belə ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə keçirilmiş "İstedadların hazırlığı laboratoriyası" layihəsində akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb -liseyin şagirdi Ayxan Mikayılov dəfələrlə I və II yerləri tutmuşdur. Çexiyanın Liditse şəhərində 39-cu Beynəlxalq Uşaq İncəsənət sərgisində akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin şagirdləri Fərhad Məhərrəmov və Rauf Baxşəliyev I yerə layiq görülmüşlər. Hazırda Fərhad Məhərrəmov Azərbaycan Tibb Universitetinin ikinci kurs tələbəsidir.

"Nə? Harada? Nə zaman?", "Breyn-rinq", "Xəmsə" milli intellektual oyunlarında Bərdə məktəblilərindən ibarət komanda respublikada həmişə qaliblər sırasında olub. Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş "Azərbaycan, doğma vətənim mənim!" mövzusunda "Breyn-rinq" intellektual oyununda rayonun komandası I yeri tutaraq Azərbaycan cempionu adına layiq görülmüşdür. "Xəmsə" milli intellektual oyunun Qarabağ zonası üzrə III Azərbaycan çempionatında Bərdə məktəblilərindən ibarət komanda I yeri tutaraq final mərhələsində iştirak etmək huququ qazanmışdır. Final mərhələsinə vəsiqə alan rayonun "Hərum" komandası II yeri tutmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və "GameTV.az" Prodüsser Mərkəzinin birgə təşəbbüsü ilə təşkil olunan "Əlaçı" intellektual oyununda Xanqaraqoyunlu kənd tam orta məktəbinin şagirdi Rahib İsmayılov qalib olmuşdur.

"Şahin" hərbi-idman oyunlarında rayonun komandası dəfələrlə rayonlararası zona yarışlarında I yeri tutaraq respublika finalında 20 komanda arasında V-VI yerlərə layiq görülmüşdür.

## Məktəbdənkənar təhsil müəssisələri

Bərdə Rayon Təhsil Şöbəsinin tabeliyində 5 məktəbdənkənar təhsil müəssisəsi-Uşaq Gənclər İdman Məktəbi, Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Gənc Texniklər Mərkəzi, Uşaq Yaradıcılıq Mərkəzi, Uşaq Gənclər Şahmat Məktəbi fəaliyyət göstərir. Bu müəssisələrdə fəaliyyət planlarına uyğun olaraq bir sıra tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun 21-28 dekabr 2016-cı il tarixlərində keçirdiyi "Beyin həmləsi" şahmat çempionatında 12 yaşlı şahmatçı İbrahim İbrahimli I yerə layiq görülmüşdür.

Respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında VIII Spartakiadanın Mingəçevir şəhərində keçirilən zona mərhələsində voleybol üzrə yarışlarda oğlanlardan ibarət komanda I yeri tutaraq respublika mərhələsində iştirak etmək hüququ qazanmış və həmin mərhələdə II yerin sahibi olmuşdur. Kyokuşinkaykan Karatenin Ciyutaido idman növü üzrə IV Respublika Çempionatında rayonun ümumtəhsil məktəblərinin şagirdləri Nihad Quliyev, Raul Musayev, Taleh Abdullayev I yerin sahibi olmuşlar. XXI Respublika Çempionatı və Ciyutaido üzrə Respublika Çempionatında şagirdlərdən Akşin Cümazadə, Nihad Quliyev, Raul Musayev, Hikmət Quliyev, Səməd Səfərli I, Elgün Məmmədov, Ümüd Əhmədov, Sahi Sədiyev isə II yeri qazanmışlar.













# Təhsillə yaşanan həyat



Təhsilimizin inkişafında, qazandığı uğurlarda bu sahədə çalışanların hərəsinin öz payı var. Kimininki az, kimininki isə çox. Düşünürük ki, bu günlərdə yaşı 60-a çatmış Ağababa İbrahimov təhsilimizə töhfə payı çox olan insanlardandır. Ağababa müəllimin əmək bioqrafiyasına qısaca nəzər salmaq buna əmin olmaq üçün kifayətdir. Gənc yaşlarından təhsil sahəsinə gələn Ağababa İbrahimov uzun illər paytaxtdakı ilk təhsil komplekslərindən birinə - 80 nömrəli bağca, 200 nömrəli məktəb və 43 nömrəli liseyi özündə birləşdirən bağça-məktəb-lisey kompleksinə rəhbərlik edib. Onun direktor olduğu müddətdə kompleks paytaxtın ən yaxşı ümumtəhsil müəssisələrindən birinə çevrilib.

Direktorluqdan irəli çəkilərək Bakının Nərimanov rayonunun təhsil şöbəsinə müdir təyin olunan Ağababa müəllim bir təhsil müəssisəsi çərçivəsində reallaşdırdığı və təhsilin keyfiyyətini yüksəltməyə hədəflənmiş yenilikçi təşəbbüslərini, layihələrini rayon miqyasında tətbiq etmək imkanı qazanıb. Ağababa müəllimin buradakı uğurlu fəaliyyəti də diqqətdən yayınmayıb və o, Təhsil Nazirliyində şöbə müdiri vəzifəsinə irəli çəkilib. Nazirliyin məktəbdənkənar fəaliyyətin təşkili şöbəsində işlədiyi illərdə istedadlı şagirdlərin aşkara çıxarılması və inkişafı, gənc idmançıların yetişdirilməsi, məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin daha da canlandırılması istiqamətində yaradıcılıqla çalışıb.

Ağababa İbrahimov daha sonra təhsil nazirinin müşaviri olub, Goranboy Rayon Təhsil Şöbəsində müdir müavini işləyib. İndi isə Astara Pedaqoji Kollecinin direktorudur. Çalışdığı bütün vəzifələrdə öz işinin öhdəsindən bacarıqla gəlib və fəaliyyəti həmişə yuxarı instansiya təhsil orqanlarının rəhbərləri tərəfindən təqdir olunub. 2005-ci ildə ölkə Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub. Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanını alıb.

Ağababa müəllim yaradıcı insandır, dərslik və metodik vəsaitlər müəllifidir, elmi-kütləvi kitabları, ölkə mətbuatında dərc olunan maraqlı hekayələri onu həm də istedadlı yazar kimi tanıdıb.

Təhsilimizin fədailərindən olan Ağababa İbrahimovu ömrünün kamillik zirvəsinə qədəm qoyması - 60 yaşı münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı və fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*

# Orta məktəblə birgə elmi-praktik konfrans

Gəncə Dövlət Universitetinin təhsilin pedaqogikası və metodikası kafedrasının təşəbbüsü ilə Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəblə bağlanmış əməkdaşlıq müqaviləsinə uyğun olaraq həmin məktəbdə "Təlimin keyfiyyətli təşkilində dərketmə üsullarının tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirilib.

Ciddi maraq yaratmış elmi-praktik konfransda təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri, dosent Allahverdi Quliyev "Təlimin keyfiyyətinin yüksəldilməsində dərketmə üsullarından istifadənin əhəmiyyəti", kafedranın baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Günay Kazımova "Təlimin keyfiyyətinin yüksəldilməsində təhsil islahatlarının əsas xüsusiyyətləri", Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin direktoru Nizami Rzayev "Təhsildə müasir təlim texnologiyalarından istifadənin elmi əsasları", təcrübə və karyera şöbəsinin müdiri, dosent Mahir Məmmədov "Təcrübəçi tələbələrlə fənn müəllimlərinin birgə işinin təşkili məsələləri" adlı məruzələrlə çıxış ediblər. Məruzələrin əsas məzmunu və tezisləri Hovard Qardner nəzəriyyəsindəki "Biz şagirdlərimizin müxtəlif üsullarla dərk etməsini inkişaf etdirməklə təhsilin keyfiyyətini yüksəldə bilərik" fikrinə əsaslanmış, təlim texnologiyalarından səmərəli istifadənin əhəmiyyəti qeyd edilmiş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

**GDU-nun**
**mətbuat xidməti**

# Qəzənfər Kazımovun yaradıcılıq üfüqləri



Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Qəzənfər Kazımov XX əsr Azərbaycan filologiyasının altmışıncılar nəslinin görkəmli nümayəndələrindəndir. Onun müasir Azərbaycan dilinin müxtəlif sahələrinə - dil tarixi, bədii dil, üslubiyyat, etimologiya, leksikologiya, frazeologiya məsələlərinə, yazılı abidələrə, aşıq yaradıcılığına, klassik və çağdaş yazıçılarımızın sənətkarlıq xüsusiyyətlərinə dair 76 kitabı, 400-dən artıq elmi və elmi-publisistik məqaləsi çap olunmuş, 100-dən artıq müəllifin kitabı onun elmi redaktorluğu ilə işıq üzü görmüşdür. Alim öz geniş diapazonlu fəaliyyəti, zəngin yaradıcılıq irsi ilə Azərbaycan dilçiliyinə, bütövlükdə türkologiya aləminə fundamental əsərlər bəxş etmişdir. Elmi ictimaiyyət arasında rezonans doğuran sanballı kitabları, monoqrafiyaları, araşdırmaları, 10 cildlik əsərləri sübut edir ki, o əsl ziyalıdır və Azərbaycan dilçiliyi tarixində artıq öz möhürünü vurmuş, imzasını qoymuş şöhrətli alimlərimizdəndir.

Gənclik illərində Azərbaycanın M.Rəfili, Ə.Dəmirçizadə, Ş.Qurbanov, İ.Şıxlı kimi görkəmli alim və yazıçılarını ilk dəfə Pedaqoji İnstitutun auditoriyalarında görüb tanıyan Q.Kazımovun yaddaşında bu ziyalılar, xüsusilə yazıçı və şairlərlə keçirilən görüşlər, iştirakçısı olduğu mədəni tədbirlər əbədi izlər buraxır. 1962-ci ildə Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturaya qəbul olur. Görkəmli türkoloq, professor Ə.Dəmirçizadənin rəhbərliyi ilə "Ə. Haqverdiyevin dramaturgiya dili" ("Dağılan tifaq" pyesi əsasında) mövzusunda namizədlik dissertasiyası ilə elmi-tədqiqata başlayır. "Dağılan tifaq" faciəsinin leksik xüsusiyyətləri, frazeologiyası və üslubu ilə bağlı tədqiqatlarını namizədlik dissertasiyasında ümumiləşdirir. O, 1967-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi alır, 1988-ci ildə "Azərbaycan Sovet satirik nəsrinin dili, 1920-1940-cı illər (komizm dil vasitə və üsulları problemləri)" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Qəzənfər müəllim həmişə yenilikçi alim kimi seçilmiş, novator fikirləri ilə dilçiliyimizi zənginləşdirmişdir. Xalqımızın dilinə, tarixinə qara ləkə yaxan, kölgə salan bəzi dırnaqarası ziyalılara öz intellekti ilə həmişə sərrast cavablar vermiş, onları vaxtında susduraraq, Azərbaycan xalqının tarixinin qədimliyini faktlarla sübut edir. O, əsl vətəndaşlıq mövqeyində duraraq, dilimizi və tariximizi saxtalaşdıranlara qarşı həmişə mübarizə aparmışdır.

Q.Kazımov hərtərəfli filoloq, nüfuzlu ədəbi tənqidçidir. Dövri mətbuatda müasir Azərbaycan ədəbiyyatı ilə bağlı ədəbi-nəzəri tədqiqatlarında komizm vasitə və üsullarının tədqiqi, dilçilik, ədəbiyyatşünaslıq ilə bağlı nəzəri problemlərin araşdırılması onun yaradıcılığının əsas xəttini təşkil edir.

Q.Kazımov istedadlı tarixçi və etnoqrafdır. Onun qədim türk tarixi, Azərbaycan xalqının etnogenezi haqqında dəyərli monoqrafiyaları bu şəxsiyyətin tarix elminə dərindən bələd olduğunu aşkarlayır. Millətinin, mənsub olduğu xalqın keçmişini tədqiq edən alimin qədim dövr tarixinə baxışı obyektivdir. Türk etnosunun, türk sivilizasiyasının yaratdığı etnokulturoloji mədəniyyət, qədim türk mifləri və tarixi Q.Kazımovun vətənpərvərlik, millətsevərlik duyğusu ilə yazdığı əsərlərin aparıcı mövzusudur. Dünya dilləri ilə bağlı monogenez problemi son dövrlərdə Q.Kazımovun tədqiqatlarının əsas obyektlərindən biridir. Alimin dil tarixi ilə bağlı araşdırmaları Azərbaycan dilçiliyində mövcud olan ənənənin davamıdır, lakin onun araşdırmaları heyrət doğuracaq faktlarla zəngindir. Yeni etimologiyalar, rekonstruksiyalar həm inandırıcı, həm də mükəmməldir. Alimin fonetik qanunauyğunluqlar əsasında qədim praformaları bərpa etməsi, səs keçidlərinin tarixi mənzərəsini yaratması, dilin dərin qatlarına nüfuz etməsi yeni dil faktlarını üzə çıxarmışdır. Q.Kazımovun tədqiqatları ilə tanışlıq göstərir ki, o həm də tarixi fonetikanın mükəmməl bilicisidir. Qədim səs keçidləri, protetik səslərin söz köklərinin evalyusiyasındakı rolu alimin əsərlərində obyektiv həllini tapmışdır. Dünyanın qohum olmayan dilləri arasında leksik, fonetik paralellər aparan alim onların eyni kökdən yaranması qənaətinə gəlir, qənaətini zəngin dil faktları ilə əsaslandıra bilir. Q.Kazımovun bu istiqamətdə apardığı tədqiqatlarda maraq doğuran məqamlardan biri də, onun qənaətinə görə, türklərin ilk vətəninin Mərkəzi Asiya deyil, Ön Asiya olması fikridir. Alimin inandırıcı dəlilləri, tarix kitablarında əksini tapmayan dəqiq elmi məlumatlar məhz onun dil tarixi ilə bağlı tədqiqatlarında bizə əyan olur. Azərbaycanın ilk türklərin vətəni olması fikrini alim dil qanunauyğunluqları ilə əsaslandırır. Alimin şumer-türk paralelləri ilə bağlı ortaya çıxardığı dil faktları uzun illərin, ağır zəhmətin bəhrəsidir. Əsərlərində protoazərbaycan dili haqqında geniş məlumat verən professor dilimizin ən qədim qatlarını tədqiq etməyə nail olmuşdur. Azərbaycan dilinin qədim dövrü ilə bağlı onun mülahizələri dilimizin ən qaranlıq səhifələrinə aydınlıq gətirir. Son dövrlərdə Qəzənfər müəllimin yunan ədəbiyyatının incilərindən olan Homerin "İliada" və "Odisseya" əsərləri ilə qədim oğuz eposu olan "Kitabi-Dədə Qorqud" arasında müəyyən etdiyi paralellər onun ədəbiyyatla, ədəbi-bədii düşüncə ilə dərindən məşğul olduğunu sübut edir.

Q.Kazımov dilçiliyin müxtəlif sahələri ilə məşğul olan bir tədqiqatçı-alimdir. Onun müasir Azərbaycan dilinin sintaksisi, komizm nəzəriyyəsi, üslubiyyat, folklorşünaslıq və qrammatika məsələlərinə dair sanballı araşdırmaları vardır. Lakin Q.Kazımov dil tarixçisi kimi daha məşhurdur. Elmi fəaliyyətinin ilk dövründə nisbətən yaxın tarixi keçmişə üz tutaraq, Ə.Haqverdiyev və C.Məmmədquluzadənin əsərləri əsasında milli dilin XX əsrin əvvəllərindəki durumunu öyrənən alim bir qədər sonra Azərbaycan dili tarixini yenidən dövrləşdirmiş, ayrı-ayrı dövrləri səciyyələndirən dil xüsusiyyətlərini göstərmişdir. O, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Cahan şah Həqiqi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi sənətkarların yaradıcılığı haqqında tədqiqatlar aparmış, Azərbaycan ədəbi dilinin inkişafında onların xidmətlərini müəyyənləşdirmişdir.

Azərbaycan dilçiliyinin elə bir sahəsi yoxdur ki, müəllif orada öz qələmini sınamamış olsun. O, Azərbaycan dilinin müasir vəziyyəti və tarixini, ədəbi və üslubi inkişafını araşdıran mütəxəssislərimizdəndir. Azərbaycan ədəbiyyatı, ədəbi və bədii dili, Azərbaycan dilinin qohum və başqa dillərlə tarixi əlaqələri və s. kimi məsələlərlə də professional səviyyədə məşğul olmuşdur. Əsərləri haqqında 250-yə qədər elmi və publisistik məqalə yazılmışdır. Q.Kazımov sözün həqiqi mənasında xeyirxah insan kimi gənc nəslin yetişməsində əməyini əsirgəməmişdir. Onun rəhbərliyi ilə onlarla doktorluq və namizədlik dissertasiyası müdafiə edilmiş, 40-a qədər elmlər doktoru və namizədinin opponenti olmuşdur. Oçerklər, tərcümə və kiçik hekayələrin müəllifidir. Respublika Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür.

İstedadlı alim-dilşünas kimi böyük nüfuz qazanan Qəzənfər Kazımov eyni zamanda gözəl müəllim-pedaqoq kimi tanınır. Uzun müddət - 50 ilə yaxın bir müddətdə pedaqoji fəaliyyətlə məşğul olub, nəsil-nəsil müəllimin müəllimi olub, elmi-pedaqoji kadrların hazırlanmasında xüsusi xidmətləri olub. Filologiya fakültəsinin dekanı kimi mühüm bir vəzifədə fəaliyyət göstərmişdir. O, uzun müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU-da) və digər ali təhsil ocaqlarında çalışmış, minlərlə Azərbaycan dili və ədəbiyyat müəlliminin hazırlanmasında bilavasitə iştirak etmişdir. Ali məktəblərin filologiya fakültələri və orta ümumtəhsil məktəbləri üçün onlarca proqram, dərslik, dərs vəsaitləri hazırlamışdır. Respublikamızda sintaksis üzrə əvəzsiz mütəxəssis sayılan professor Q.Kazımov ali və orta məktəb dərsliklərinin müəllifidir. Bu dərsliklər çağdaş dövrümüzün interaktiv təlim üsullarına cavab verir. Həmin dərsliklər dəfələrlə nümunəvi dərsliklər kimi Təhsil Nazirliyinin mükafatına layiq görülmüşdür. Q.Kazımov nəinki nüfuzlu dilçi alim, həmçinin sevilən pedaqoqdur. Onun mühazirə və seminarları həmişə diqqəti cəlb etmiş, tələbələrin rəğbətini qazanmışdır. Bu gün onun yüzlərlə tələbəsi, magistri, aspirantı öz müəlliminin işini ləyaqətlə davam etdirir.

Alimin əməyi yüksək qiymətləndirilmiş, o əməkdar elm xadimi adına layiq görülmüşdür. Əlbəttə, xalqımız bu cür alimlərlə fəxr etməyə bilməz. Məhz professor Qəzənfər Kazımov kimi elm adamları xalqımızın keçmişi ilə gələcəyi arasında körpü yaradır. Alimin tədqiqatları elmimizin inkişafına daim yeni nəfəs, yeni ruh verir. O, bizim üçün əsl ziyalılıq etalonudur, nəşr etdirdiyi kitablarla, tələbələrinə düz yol göstərən ustadlardandır, məhsuldar elmi fəaliyyəti ilə ictimaiyyətin önündə olan ziyalıdır. Q.Kazımov hörmətə layiq şəxsiyyət, böyük insandır.

Həyatının 80-ci baharını yaşayan professor Qəzənfər Kazımovun elmi və ictimai-pedaqoji fəaliyyətini göz önünə gətirib arxada qalan illərə baxanda şərəflə yaşanmış, mənalı bir ömür görünür. Qoy Qəzənfər müəllimin yaradıcılıq potensialı tükənməsin...

**Sayalı SADIQOVA,**
*filologiya elmləri doktoru, professor*

# Məktəbdə "Mənim ana dilim" adlı tədbir keçirilib



"Mənim Ana dilim, Azərbaycan dilim, Doğma dilim! Anamızın bizə beşik başında layla dediyi, nağıllar söylədiyi doğma dilimizi sevək və göz bəbəyi kimi qoruyaq...". Bu fikirlər Bakıdakı 175 nömrəli tam orta məktəbdə keçirilən "Mənim ana dilim" adlı tədbirdə vurğulanıb. Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra aparıcılar Mirbacı Hüseynova, Zərifə Əliyeva və Nəsimi Süleymanlı tədbirin məqsəd və məramından bəhs ediblər. Onlar Ana Dili Gününün yaranması tarixi haqqında iştirakçıları ətraflı məlumatlandırıblar.

Məktəbin şagirdləri İlkin Bağırzadə, Ülvi Əliyev, Fidan Quliyeva, Zəhra Gülməmmədzadə, Nərgiz İsmayılzadə, Səlimli Göyərçin, Toğrul Nəbiyev, İsmayıl Mahmudov, Ayan Hüseynova və başqaları görkəmli söz ustadlarının - S.Vurğunun, B.Vahabzadənin, M.Şəhriyarın ana, vətən və Azərbaycan dili haqqında yaradıcılıq nümunələrini səsləndiriblər. Əziz Mehdiyevin tarda "Şur" təsnifinin ifası, Nuray Əmirovanın ifasında səslənən "Azərbaycan" mahnısı, Fatimə Bədəlbəylinin "Nəlbəki" rəqsi iştirakçılara xoş ovqat yaşadıb.

Sonra məktəbin direktoru Qələndər Qələndərov qonaqlara, pedaqoji kollektivə, şagirdlərə, tədbirin təşkilatçısı Azərbaycan dili və ədəbiyyat müəllimi Hökumə Qurbanovaya minnətdarlığını ifadə edib. Bildirib ki, dil hər bir millətin, xalqın varlığı deməkdir. Dünyada yüzlərlə dil mövcuddur. Onlardan ən şirini, ən doğması, ən zəngini bizim dilimiz - Azərbaycan dilidir. Bu dildə səslənən şeirlər, mahnılar biz azərbaycanlılar üçün doğma və əzizdir, Azərbaycan dili Azərbaycan xalqının milli sərvətidir.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*

# Ekoloji mədəniyyət və incəsənət mövzusunda tədbir



Bakı şəhəri A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə "Ekoloji mədəniyyət və incəsənət, Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" mövzusunda tədbir keçirilib. Öncə "Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" adlı sərgiyə baxış olub.

Məktəbin coğrafiya müəllimi, əməkdar müəllim Validə Əhmədovanın rəhbərliyi, tarix müəllimi Könül Bağırovanın təşkilatçılığı ilə baş tutan tədbir Azərbaycanın ekoloji tarixi, mədəniyyəti, incəsənəti barədə şagirdləri maarifləndirmək və onların diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına və mühafizə edilməsinə yönəltmək məqsədi daşıyıb. Tədbirdə ayrı-ayrı regionlar - Bakı, Quba, Lənkəran, Şəki, Tovuz və Qarabağ üzrə stendlər yaradılıb. Hər regionu məktəbin milli geyimdə olan 10 və 11-ci sinif şagirdləri təmsil edib.

Tədbir şagirdlərin rəqs edərək stendlərə yaxınlaşması ilə başlayıb. Ardınca məktəbin tarix müəllimi Könül Bağırova sərgi iştirakçılarını bu layihə barədə məlumatlandırıb. Sonra qonaqlar stendlərlə tanış olublar. Hər region öz stendini zövqlə hazırlanmış divar qəzetləri, qədim tarixi əşyalar, həmin regiona xas milli yeməklər, çərəzlər, meyvələrlə təqdim edib. Hər bölgənin stendinə yaxınlaşdıqca həmin bölgəyə aid musiqi səslənir, şagirdlər şirin ləhcələrlə tədbir iştirakçılarını salamlayıb, həmin bölgənin tarixi, etnoqrafiyası, ekologiyası, bulaqları, nadir ağacları, maddi-mədəniyyət nümunələri, memarlıq abidələri barədə məlumat veriblər. Maraqla qarşılanan tədbir "Yallı" rəqsi ilə yekunlaşıb.

**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

Kafedralarda tədris olunan fənlər üzrə professor, dosent, baş müəllim və müəllim vəzifələrini tutmaq üçün müsabiqə

# ELAN EDİR

**I. Filologiya fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Azərbaycan dilçiliyi | Azərbaycan dilindən praktikum | 1 |
| 2. | Azərbaycan dili və onun tədrisi metodikası | Azərbaycan dili | 2 |
| | | Ana dilinin tədrisi metodikası | 2 |
| | | Azərbaycan dili və nitq mədəniyyəti | 1 |
| | | Azərbaycan dilinin tədrisi metodikası | 1 |
| 3. | İngilis dili və onun tədrisi metodikası | Xarici dildə oxu və nitq | 1 |
| | | Xarici dilin qrammatikası və fonetikası | 1 |
| | | Xarici dilin tədrisi metodikası | 1 |
| 4. | İngilis dili | İngilis dili | 3 |
| 5. | Ədəbiyyat və onun tədrisi metodikası | Uşaq ədəbiyyatı | 1 |
| | | Ədəbiyyatın tədrisi metodikası | 1 |
| 6. | Azərbaycan və dünya ədəbiyyatı | Azərbaycan ədəbiyyatı tarixi | 1 |
| | | Dünya ədəbiyyatı | 1 |
| 7. | Müasir Azərbaycan dili | Müasir Azərbaycan dili | 2 |
| 8. | Xarici dillər və onların tədrisi metodikası | Xarici dil (alman) | 1 |
| | | Xarici dil (fransız) | 1 |

**II. Riyaziyyat və informatika fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Riyazi analiz | Riyazi analiz | 1 |
| | | Funksional analiz | 1 |
| | | Adi diferensial tənliklər | 1 |
| 2. | Hesablama riyaziyyatı və informatika | İnformatika və İKT | 1 |
| 3. | Riyaziyyat və onun tədrisi metodikası | Elementar riyaziyyat | 1 |
| | | Riyaziyyatın tədrisi metodikası | 1 |
| 4. | Cəbr və Həndəsə | Cəbr | 2 |
| | | Həndəsə | 2 |

**III. Fizika və texnologiya fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Texnologiya və onun tədrisi metodikası | Elektrotexnika və radiotexnika | 1 |
| | | Metal və ağac məmulatların hazırlanması texnologiyası | 1 |
| | | Texnologiyanın tədrisi metodikası | 1 |
| 2. | Ümumi fizika | Ümumi fizika | 1 |
| | | Mexanika və molekulyar fizika | 1 |
| | | Elektrik maqnetizm və optika | 1 |
| 3. | Fizikanın tədrisi metodikası | Fizikanın tədrisi metodikası | 2 |
| | | Məktəb fizika kursunun məsələ həlli və elmi əsasları | 1 |

**IV. Kimya və biologiya fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Biologiyanın tədrisi metodikası | Biologiyanın tədrisi metodikası | 2 |
| 2. | Analitik və fiziki kimya | Analitik və fiziki kolloid kimya | 2 |
| 3. | Mülki müdafiə və tibbi biliklərin əsasları | Mülki müdafiə və tibbi biliklərin əsasları | 2 |
| 4. | Botanika | Botanika | 1 |
| | | Bitki fiziologiyası | 1 |
| | | Mikologiya | 1 |
| 5. | Üzvi kimya və kimya kafedrası | Üzvi kimya | 1 |
| | | Kimya texnologiyası | 1 |
| 6. | Ümumi kimya və kimyanın tədrisi metodikası | Ümumi və qeyri üzvi kimya | 1 |
| | | Kimyanın tədrisi metodikası | 1 |
| | | Qeyri-üzvi kimya | 1 |
| 7. | İnsan və heyvan fiziologiyası | Uşaq anatomiyası, fiziologiyası və gigiyenası | 1 |
| | | İnsan anatomiyası | 1 |
| | | İnsan və heyvan fiziologiyası | 1 |
| 8. | Zoologiya | Zoologiya | 2 |
| | | Genetika və seleksiya | 1 |

**V. Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Təsviri incəsənət, rəsmxətt və onların tədrisi metodikası | Təsviri sənətin tədrisi metodikası, incəsənətin tarixi və dekorativ tətbiqi sənət | 2 |
| | | Tərsimi həndəsə, Perspektiva, Rəsmxətt və onun tədrisi metodikası | 2 |
| | | Rəsm və Boyakarlıq | 2 |
| 2. | Fiziki tərbiyə və çağırışaqədərki hazırlığın tədrisi metodikası | Fiziki tərbiyə və onun tədrisi metodikası | 1 |
| | | Gimnastika və onun tədrisi metodikası | 1 |
| | | Yüngül atletika və onun tədrisi metodikası | 1 |
| | | Gənclərin çağırışaqədərki hazırlığın tədrisi metodikası | 1 |
| | | Güləş, milli güləş, əlbəyaxa döyüş və onların tədrisi metodikası | 1 |
| 3. | Musiqi və onun tədrisi metodikası | Dirijorluq və onun tədrisi metodikası | 1 |
| | | Əsas musiqi aləti və onun tədrisi metodikası | 2 |
| | | Vokal və onun tədrisi metodikası | 1 |
| | | Musiqinin tədrisi metodikası | 1 |

**VI. Tarix və coğrafiya fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Türk və Şərqı Avropa xalqları tarixi və tarixin tədrisi metodikası | Türk xalqları tarixi | 2 |
| | | Tarixin tədrisi metodikası | 2 |
| 2. | Azərbaycan tarixi | Azərbaycan tarixi | 2 |
| 3. | İqtisadı coğrafiya və coğrafiyanın tədrisi metodikası | İqtisadi və sosial coğrafiya | 2 |
| | | Coğrafiyanın tədrisi metodikası | 1 |
| 4. | Fəlsəfə və sosial fənlər | Fəlsəfə | 1 |
| | | Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları | 1 |
| 5. | Ümumi coğrafiya | Fiziki coğrafiya (Azərbaycanın, Materiklərin və okeanların fiziki coğrafiyası ) | 2 |
| 6. | Ümumi tarix | Yeni tarix | 1 |
| | | Müasir tarix | 1 |
| 7. | Ümumi pedaqogika | Pedaqogika | 3 |

**VII. İbtidai təhsil fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | İbtidai təhsilin pedaqogikası və metodikası | Pedaqogika | 1 |
| | | İbtidai təhsilin kurikulumu | 1 |
| 2. | Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası | Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası | 1 |
| | | Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları | 1 |
| | | Riyaziyyatın tədrisi metodikası | 1 |

**VIII. Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsi**

| № | Kafedralar | Fənlər | Yerlərin sayı |
|---|---|---|---|
| 1. | Korreksiyaedici təlim | Defektologiya və loqopediyanın əsasları | 1 |
| | | Görmə və eşitmə funksiyalarının psixokorreksiyası | 1 |
| | | İnkişafdan geri qalan uşaqların psixologiyası və fiziki tərbiyəsinin əsasları | 1 |
| 2. | Yaş və pedaqoji psixologiya | Psixologiya (Uşaq, yaş və pedaqoji psixologiya) | 1 |
| | | Psixologiyanın tədrisi metodikası, İnkişaf və yaş psixologiyası | 1 |
| | | Eksperimental psixologiya | 1 |
| 3. | Ümumi psixologiya | Psixologiyanın əsasları və psixoanaliz | 2 |
| | | Psixologiya | 2 |
| | | Sosial psixologiya | 2 |
| 4. | Məktəbəqədər təhsilin pedaqogikası və metodikası | Məktəbəqədər pedaqogika | 2 |
| | | Savad təlimi və ətraf aləmlə tanışlığın metodikası | 1 |

**Qeyd:**

1. Müsabiqə "Azərbaycan Dövlət Pedaqoji Universitetində professor, dosent, baş müəllim, müəllim vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq keçiriləcəkdir. "Qaydalar" **www.ADPU.edu.az** saytında yerləşdirilmişdir.
2. Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə və **www.ADPU.edu.az** saytında dərc olunan gündən bir ay müddətində qəbul ediləcəkdir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Rektorun adına ərizə;*
*2. Kadrların şəxsi uçot vərəqəsi;*
*3. Tərcümeyi-hal;*
*4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin notariat qaydası ilə təsdiq edilmiş surətləri;*
*5. Elmi və elmi-metodik işlərin siyahısı.*

**Sənədlər Az,1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68 ünvanda 111-ci otaqda (I mərtəbə) qəbul edilir.**

**Əlaqə telefonları:**
(012)498-08-16 və (012)498-17-94

**REKTORLUQ**

## BÖLGƏ XƏBƏRLƏRİ

## Məktəbdə "1 mart - Ümumdünya Mülki Müdafiə Günü" qeyd edilib

Martın 1-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Sumqayıt Regional Mərkəzi tərəfindən Abşeron rayonunun Ceyranbatan qəsəbə 2 nömrəli tam orta məktəbdə "1 mart-Ümumdünya Mülki Müdafiə Günü"nə həsr olunmuş nəzəri-praktik maarifləndirmə tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Leyla İsmayılova öncə qonaqları salamlayaraq tədbirin tərbiyəvi əhəmiyyətindən danışıb. Direktor tədbir iştirakçılarına Mülki Müdafiə Gününün yaranma tarixi, məqsəd və vəzifələri barədə məlumatlar verərək, Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatına qoşulmasından və onun keçirdiyi bütün tədbirlərdə fəal iştirak etməsindən söz açıb.

Sonra FHN Sumqayıt Regional Mərkəzinin əməkdaşları "Fövqəladə hallar. Fövqəladə hallar zamanı davranış qaydaları", "Mülki müdafiə işinin təşkil edilməsi", "Fərdi mühafizə vasitələrindən istifadə qaydaları", "112" qaynar telefon xətti təhlükəsizliyimizin qarantıdır" mövzularında çıxışlar ediblər.

## Məktəb Kiçik Akademiyasının konfransı olub

Martın 1-də E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə Məktəb Kiçik Akademiyasının konfransı olub. Konfransda MKA-nın, şagird elmi cəmiyyətinin üzvləri, rayon təhsil şöbəsinin əməkdaşları, şəhər məktəblərindən MKA-ları təmsil edən şagirdlər və elmi himayəçilər iştirak ediblər.

MKA-nın humanitar, təbiət, texniki bölmələrinin hesabatı dinlənilib. Texniki fənlər üzrə 9-cu sinif şagirdləri Aysel Məmmədli və Misir Cəfərovun təqdimatında "Biz gələcəkdə hansı yenilikləri etmək istərdik" layihəsi çərçivəsində informatikadan "Sensorlu klaviatura", "Qoruyucu ekran" və b. araşdırmaların həyata keçiriləcəyi qeyd olunub, riyaziyyatdan "Qızıl qaydanın payız fəslində təbiətə tətbiqi", "Bərabəryanlı və düzbucaqlı trapesiyanın bəzi xassələri" mövzusunda araşdırmalar təqdim olunub.Humanitar bölmə üzrə "Azərbaycanı tanıyaq" layihəsi çərçivəsində Qubaya səyahət edən şagirdlərin təqdimatı İlknur Muradın təqdimatında dinlənilib.İsmayıllının tarixi abidələrinin araşdırılması məqsədi ilə Basqala səyahət edən şagirdlərin "Basqalın tarixi abidələri" haqqındakı araşdırmalarını VIII sinif şagirdi Nilufər Qəhrəmanova təqdim edib.

Təbiət bölməsi üzrə ŞEC-nin tərkibində olan 7-ci sinif şagirdlərinin "Dərman bitkiləri" haqqında apardığı araşdırmaların təqdimatı və nümunələrin sərgisi konfrans iştirakçılarının xüsusi marağına səbəb olub.

Sonda Kiçik Akademiyanın işində fəal iştirak edən şagirdlərə məktəbin direktoru Əhmədağa Ələkbərov tərəfindən tərifnamələr təqdim olunub.

**Sevda QASIMOVA,**
*E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyin direktor müavini*

## Sagird Gənclər Təşkilatının təqdimatı mərasimi

Salyan Rayon Təhsil Şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, əsasnaməsi Salyan Rayon Gənclər və İdman İdarəsi və təhsil şöbəsi tərəfindən təsdiq edilmiş Şagird Gənclər Təşkilatının təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində Salyan Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rahab Əhmədov, rayon gənclər və idman idarəsinin rəisi Araz Hüseynov, təhsil şöbəsinin müdir müavini Kubra Quliyeva və ümumtəhsil məktəblərinin uşaq birliyi rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər Şagird Gənclər Təşkilatının yaradılması təşəbbüsünü bəyənərək, təşkilatın işinə uğurlar arzulayıb, uşaq birliyi rəhbərlərinə tapşırıq və tövsiyələrini veriblər.

Sonra Şagird Gənclər Təşkilatının təqdimatı keçirilib.

## Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiyalar təşkil edilir

Sabirabad Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, 4 nömrəli şəhər tam orta məktəbində V-XI siniflər üzrə tərtib olunan qrafikə əsasən rayonun Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiyalar təşkil edilir. Ekskursiyaların məqsədi məktəbliləri muzeyin kolleksiya fondu, ayrı-ayrı dövrlərə aid eksponatlarla tanış etmək, tariximizin və tarixi abidələrin öyrənilməsi, onların qorunub saxlanması ruhunda tərbiyə etmək və vətənpərvərlik ideyalarına sadiq olan şəxsiyyət yetişdirməkdir.

V "b" sinfinin rəhbəri Ülviyyə Həsənovanın rəhbərliyi altında şagirdlər Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər. Ekskursiyada şagirdlər ayrı-ayrı dövrlərə aid eksponatlarla, rayonun müxtəlif ərazilərindən arxeoloji qazıntılar nəticəsində tapılan əmək alətləri ilə tanış olublar.

Sonda Ülviyyə müəllim şagirdlərin suallarını cavablandırıb.

Qeyd olunub ki, ekskursiyalar tərtib olunmuş qrafikə uyğun olaraq V-XI siniflər üzrə tədris ilinin sonunadək davam edəcək.

## "Ağ ölüm əsrin bəlasıdır" mövzusunda maarifləndirici tədbir

Saatlı Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, rayonda "Ağ ölüm əsrin bəlasıdır" mövzusunda təşkil edilən silsilə tədbirlər davam edir. Növbəti maarifləndirici tədbir Şirinbəy kənd tam orta məktəbində keçirilib.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbir iştirakçılarını salamlayan məktəbin direktoru Daşdəmir Ulfanov gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün məktəbdə görülən işlərdən və tədbirlərdən söz açıb. Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili şöbəsinin baş inspektoru Elvin Quliyev narkomaniya və onun fəsadları barədə geniş məlumat verib.

Təhsil şöbəsinin müdiri Seyidağa Kazımov bildirib ki, hazırda məktəbyaşlı uşaqların təhsildən yayınmasına, nəzarətsizliyinə şərait yaradan, eləcə də övladlarına qarşı fiziki, psixoloji və digər zorakılıqlara yol verən valideynlər barədə qarşılıqlı informasiya mübadiləsinin vaxtında təmin edilməsinə və araşdırmaların aparılmasına böyük ehtiyac vardır.

Sonda şagirdləri maraqlandıran suallara aydınlıq gətirilib.

**Hazırladı: Şakir CƏFƏROV**, *"Azərbaycan müəllimi"*

# Şagirdlərə Azərbaycanın zəngin tarixi, incəsənəti və ədəbiyyatı ilə bağlı biliklər aşılayırıq

> Tariximizin hər səhifəsi bizim üçün əzizdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.
>
> **Heydər ƏLİYEV,**
> **ümummilli lider**

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və mədəniyyəti ilə haqlı olaraq fəxr edir.

Uzun və mürəkkəb inkişaf yolu keçmiş müxtəlif sənət növlərinin hər biri Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa imkan verir. Xalqımızın həyatında və məişətində mühüm yer tutan el sənətimizin də zəngin tarixi vardır.

İncəsənətimizdən danışanda, təbii ki, ilk göz önünə gələn xalçaçılıq sənətidir. Dünyada məşhur olan Azərbaycan xalçalarının tarixi çox qədim dövrlərə gedib çıxır. Əbəs yerə deyil ki, Azərbaycan xalçaları 2010-cu ilin noyabrından etibarən YUNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına daxil edilib.

Dünya musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Azərbaycan musiqisinin çoxəsrlik ənənələri vardır. Azərbaycan milli musiqi sənətində xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur.

Azərbaycanın milli musiqisinin təməl daşını, onun bünövrəsini muğamlar təşkil edir. Təsadüfi deyildir ki, Azərbaycan muğamları da UNESCO-nun "Qeyri-maddi Mədəni İrsi"nin Reprezentativ Siyahısına daxil edilib. Bu işdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük əməyi vardır.

Məlum olduğu kimi, Heydər Əliyev Fondunun dəstəyi ilə muğam sənətinin qorunub saxlanılması, çox zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2005-ci ildən "Muğam televiziya müsabiqəsi" keçirilir. İlk muğam müsabiqəsi 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə keçirilmişdir. Sonradan 2007, 2009, 2011, 2013 və 2015-ci illərdə də həmin müsabiqələr təşkil edilmiş, qaliblər Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılmışdır.

Mehriban xanım Əliyeva muğam sənətinə yüksək dəyər verərək, "Muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur" fikrini yüksək kürsülərdən səsləndirir.

2009-cu il dekabrın 27-də Bakıda, dənizkənarı Milli parkda Beynəlxalq Muğam Mərkəzinin açılışı da məhz ölkəmizin birinci xanımı Mehriban Əliyevanın səmərəli, yorulmaz fəaliyyətinin bəhrəsidir.

Məktəbimizin müəllimləri istər tədris prosesində, istərsə də sinifdənxaric tədbirlər zamanı bütün bunlar barədə şagirdlərimizi məlumatlandırır, onlara bənzərsiz mədəniyyətimiz, ədəbiyyatımız haqqında bilgilər aşılayırlar. Mən də ədəbiyyat fənninin tədrisi zamanı yetirmələrimizə izah edirəm ki, Azərbaycan hələ XI-XII əsrlərdə mədəniyyətinin intibah dövrünü yaşayıb. Bu dövrdə dünya mədəniyyətinə Xaqani, Nizami kimi dahilər bəxş etmiş Azərbaycan mədəni oyanışın əsas mərkəzlərindən biri olub. Nizami yaradıcılığı ilə intibah ədəbiyyatı ən yüksək zirvəyə ucalmış, bu mütəfəkkir şairin doğulduğu Gəncə şəhəri Şərqdə ən böyük elm ocaqlarından biri kimi tanınmışdır. Bu dövrdə Azərbaycan alimləri müxtəlif elm sahələrinin, həmçinin təbabət, fəlsəfə, astronomiya, coğrafiyanın inkişafında da böyük uğurlar qazanmışlar.

Eyni zamanda Azərbaycanda memarlıq sahəsində də intibah baş vermişdir. Bu dövrün ən məşhur memarı Əcəmi Əbubəkr oğlu (XII əsr) bir-birindən gözəl türbələr, qalalar ucaltmışdır ki, bunların bariz nümunəsi olan Mömünə Xatun türbəsi hələ də öz möhtəşəmliyini qoruyub saxlamışdır.

Bu dövrdə Qız qalası, Gülüstan qalası, Mərdəkan qalası kimi onlarca müdafiə tikililəri inşa edilmişdir və bunlar da dünya memarlığının nadir incilərindəndir.

XVII-XVIII əsrlərdə də Azərbaycan elm, maarif, incəsənət və mədəniyyət sahələrində öz sözünü demişdir. Bu dövrün ən məşhur şairlərindən olan Qövsi Təbrizinin əlyazmaları bu gün dünyanın bir çox ölkələrində, həmçinin Britaniya muzeylərində saxlanılır. Bəhs edilən dövrdə Saib Təbrizi ən məşhur şairlərdən biri idi. Dünya şöhrətli ədəbiyyatşünas Y.B.Bertels S. Təbrizini XVII əsrin Hafizi adlandırmışdı.

Bu dövrdə "Əsli və Kərəm", "Aşıq Qərib" kimi məhəbbət dastanları, "Koroğlu" kimi qəhrəmanlıq dastanları yaranmışdı.

Şagirdlərimə izah edirəm ki, XVIII əsr Azərbaycan poeziyasının zirvəsini Molla Pənah Vaqif yaradıcılığı təşkil etmişdir. Məhəbbətin və insan gözəlliyinin tərənnümü, sözün əsl mənasında, Vaqif lirikasının əsas mövzusu idi.

XIX əsrdə də Azərbaycan mədəniyyəti və incəsənəti öz sözünü demiş, bu dövrdə Şimali Azərbaycan mədəniyyəti tərəqqipərvər xadimlərin bütöv bir nəslini yetişdirmişdi. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovla bərabər, böyük maarifçilər H.B.Zərdabi, S.Ə.Şirvani, düşündürücü komediyalar müəllifi N.B.Vəzirov və bir çox yazıçı və şairlərimizin adlarını çəkmək olar.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında tənqidi realizmin bütöv bir yaradıcılıq metodu kimi təşəkkülü başa çatmışdır. Tənqidi realizmi C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminlisiz təsəvvür etmək mümkün deyildir.

Məktəblilərə izah edirəm ki, XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın ictimai-siyasi həyatına böyük dövlət rəhbəri kimi daxil olan ümummilli lider Heydər Əliyevin ölkəmizdə mədəniyyət və incəsənətin inkişafında mühüm rolu olub. Ulu öndərin müvafiq sərəncamlarına əsasən Məhəmməd Füzulinin 500, dünya şöhrətli müğənnimiz Bülbülün 100, unudulmaz bəstəkarımız Qara Qarayevin 80, milli eposumuz "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyləri ölkəmizdə və beynəlxalq miqyasda yüksək səviyyədə qeyd olunmuşdur.

Heydər Əliyevin layiqli davamçısı olan möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən köklü dəyişikliklərin, böyük yüksəlişin müəllifidir. Xalqın iftixar mənbəyi olan mədəniyyətin çiçəklənməsi, zənginləşməsi və yenilənməsi prosesi böyük vüsət almışdır. Bu yüksəlişi bütün vətənsevər insanlar duyur, görür, alqışlayır və dəstəkləyirlər.

Cari ilin fevral ayında məktəbimizin direktoru N.Adıgözəlovun rəhbərliyi və təşkilatçılığı ilə "Ekologiya aylığı" layihəsi çərçivəsində "Azərbaycanın incəsənəti, tarixi və etnoqrafiyası" mövzusunda silsilə tədbirlərə start verilərək uğurla həyata keçirilmişdir.

Adıçəkilən aylıq çərçivəsində ənənəvi ağacəkmə aksiyası keçirilmiş, "dəyirmi masa"lar, sərgilər, foto-stendlər təşkil edilmiş, məruzələr hazırlanmış, ayrı-ayrı siniflərin divar qəzetləri buraxılmış, milli mədəniyyətimizi əks etdirən konsert proqramı tərtib edilmişdir. Bu işlərin icrasında məktəbimizin Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin əməyini xüsusi vurğulamaq istərdim. Belə ki, X.Quliyeva tərəfindən "Azərbaycanın tarixi, incənəti və etnoqrafiyası" mövzusunda "dəyirmi masa" təşkil olunmuş, bu tədbirdə məktəbin müəllimləri və şagirdləri fəal iştirak etmişlər. Fənn metodik birləşmənin rəhbəri F.Babayevanın təşkilatçılığı ilə məktəbin foyesində sərgi təşkil edilmiş, burada müasir və qədim kitablar, maddi mədəniyyət nümunələri olan əşyalar və milli şirniyyatımız nümayiş etdirilmişdir.

Aylıq çərçivəsində G.Babayevanın "Ümumortaq türk dili: gerçəklik və reallıq" mövzusunda məruzəsi maraqla dinlənilmişdir. K.Məmmədovanın hazırladığı konsert proqramı da hələ uzun müddət müəllim və şagirdlərimizin, habelə valideynlərin yaddaşında qalacaqdır.

Qeyd etmək istərdim ki, adıçəkilən aylıq layihənin həyata keçirilməsində məktəbimizin direktor müavinləri M.Hacıyev və P.Hacıyeva da öz töhfələrini vermişlər.

Bütövlükdə məktəbimizdə süzügedən aylıq çərçivəsində həyata keçirilmiş tədbirlər səmərəli olmuş, şagirdlərimizin Azərbaycanın tarixi, incəsənəti və etnoqrafiyası sahəsində biliklərinin zənginləşməsinə imkan yaratmışdır. Düşünürəm ki, bu istiqamətdə aparılmış ardıcıl və məqsədyönlü işlər davamlı olacaqdır.

**Nailə MƏMMƏDOVA,**
*Bakı şəhəri 250 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

> Şagirdin dünyagörüşünün formalaşması, milli-mənəvi dəyərlərə yiyələnməsində müəllimin rolu əvəzsizdir. Amerikalı pedaqoq İ.Braun demişdir: "Təhsildə ən çox təsir və nüfuza malik olan faktor müəllimdir. Beynin beyin üzərində, şəxsiyyətin şəxsiyyət üzərindəki təsirini əvəz edə biləcək bir şey hələ tapılmayıb".
>
> Ölkəmizdə müvəffəqiyyətlə həyata keçirilən təhsil islahatı nəticəsində vaxtilə təlimin ancaq elmlərin əsaslarının öyrənilməsinə yönələn funksiyası indi şagirdlərin həyati bacarıqlara yiyələnməsi üçün geniş imkanların yaradılmasına istiqamətlənmişdir. Bu biz müəllimlərdən öz üzərimizdə ciddi çalışmağı, nail olduqlarımız ilə kifayətlənməməyi, işimizi yeni standartlara, təlim strategiyalarına, qiymətləndirmə mexanizmlərinə uyğun qurmağı tələb edir. Bu gün qarşımızda milli-mənəvi dəyərlərə yiyələnmiş, müstəqil, tənqidi və yaradıcı təfəkkürə malik olan gənc nəsil yetişdirmək əsas vəzifə kimi durur. Bu vəzifələri həyata keçirmək üçün riyaziyyat müəllimləri də öz işlərini, riyazı dildə desək, yeni müstəvidə qurmalıdırlar.

# Müasir dərs və müəllim

Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdəndir. Riyaziyyatı tədris etmək üçün müəllimlərdən bu fənni, onun tədrisi metodikasını dərindən bilmək tələb olunur. Mən dərs planı hazırlayarkən ilk olaraq öz işimi mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlayıram.

İş forması və üsullarını mövzudan asılı olaraq elə seçirəm ki, onların tətbiqi şagirdləri dərsə maraqlandırsın, öyrənilən mövzunun dərindən mənimsənilməsini təmin etsin, yorğunluq hallarını aradan qaldırsın, onlarda düşünmə və tədqiqatçılıq qabiliyyətini inkişaf etdirsin.

Təlim metodlarını səmərəli tətbiq etməklə hər bir şagirdi düşünməyə, öz fikrini sərbəst ifadə etməyə, başqalarını dinləməyə, lazım olan biliyi özü əldə etməyə yönəldirəm. Çalışıram ki, dərs yorucu olmasın, onun üçün də tapşırıqları rəngarəng seçirəm. Bəzi özünə qapanan, utancaq, öz fikirlərini sərbəst çatdıra bilməyən şagirdlərə fərdi şəkildə tapşırıqlar verirəm. Belə şagirdlər fikirlərini şifahi şəkildə ifadə edə bilmədikləri halda yazılı şəkildə daha məntiqi formada nümayiş etdirirlər. Fərdi tapşırıqları sinifdəki şagirdlərin hər birinin düşüncə tərzinə, bilik, bacarıq və qabiliyyətinə uyğun hazırlayıram.

Qruplarla iş zamanı tapşırığı həll edə bilmək üçün şagirdlərdə möhkəm praktiki vərdişlər yaranmayıbsa, onlara istiqamət verirəm, gördüyü işləri izləyirəm. Təlim prosesində şəraiti, şagirdlərin hazırlıq səviyyəsini, psixoloji xüsusiyyətlərini nəzərə alıram və işə yaradıcı yanaşıram. Yaradıcılıq və pedaqoji ustalıq müvəffəqiyyətin rəhnidir.

Müasir təlim zamanı bütün şagirdlər dərsdə fəal iştirak edir və fikirlərini müstəqil söyləyirlər. Dərsin uğurlu alınması onu necə başlamaqdan, başqa sözlə desək, motivasiyanı necə qurmaqdan çox asılıdır. Odur ki, dərsə başlayarkən fənnə maraq yaradan, idrakı, təfəkkürü fəallaşdıran müxtəlif oyun və tapmacalardan istifadə edirəm. Bu həm sinfi, həm də şagirdləri tədqiqat aparmağa hazırlayır.

Məsələn, V sinifdə "onluq kəsrlər" mövzusunu tədris edərkən belə bir tapmaca söyləyirəm:

Vaxt ölçüsüdür özü,
Yaşı haqlayıb yüzü,
Adına bir "K" hərfi
Əlavə etsəniz siz,
Tam olmayan bir ədəd
Alarsınız, şübhəsiz.

Şagirdlər tapmacanın açmasını söylədikdən sonra onlara kəsrlər haqqında suallar verirəm:

- İndiyə qədər kəsrlər haqqında nə bilirsiniz?

Şagirdlərin cavablarını dinlədikdən sonra yenidən sual verirəm:

- "Kəsrləri yenidən öyrənməkdə məqsəd nədir?". Bu sual şagirdlərin marağına səbəb olur və onlar müxtəlif cavab variantları söyləyirlər.

Şagirdləri məntiqi düşünməyə yönəltmək, axtarışlar aparmağa həvəsləndirmək üçün məsələ həllinin böyük rolu vardır. Bunu nəzərə alan riyaziyyat müəllimləri demək olar ki, hər gün dərsdə məsələ həll etdirməyə çalışırlar. Mən məsələ həllini necə gəldi yox, sadədən mürəkkəbə doğru aparıram. Birinci növbədə şagirdlərdə məsələ həllinə maraq yaradıram. Bu məqsədlə hər hansı həndəsi anlayışa, fiqura aid məsələ həll edərkən həmin fiqurların canlı müşahidəsi, tərifi, xassələri, mühüm əlamətləri haqqında şagirdlərə esse yazdırıram. Yazılmış esselərin onlarla müzakirəsini aparıram. Çalışıram ki, sinifdə canlanma yaransın. Bu zaman şagirdlər anlayışların mənalarını, oxşar və fərqli cəhətlərini öyrənir, analiz-sintez, müqayisə etmək bacarıqlarını inkişaf etdirirlər.

Dərslərimdə fənlərarası inteqrasiyaya da geniş yer verirəm. Xüsusən riyaziyyatın ədəbiyyat və tarixlə inteqrasiyası şagirdlərin marağına səbəb olur. Riyazi anlayış və terminlərin ilk dəfə, nə vaxt və harada işlədilməsi şagirdlərdə böyük maraq doğurur. Məsələn, "Piramida" mövzusunu tədris edərkən Misir ehramları haqqında məlumat verirəm. "Müsbət və mənfi ədədlər" mövzusunu tədris edərkən Nizaminin "Yeddi gözəl" poemasından "Xeyir və Şər" hekayəsindən aşağıdakı parçanı söyləyir və onu mövzu ilə əlaqələndirirəm:

"Çin qızı söylədi: iki növcavan
Başqa bir şəhərə oldular rəvan
Gəncin biri Xeyir, birisə Şərdi,
Onlar adları tək işlər görərdi".

Buradan müsbət ədədin Xeyir, mənfi ədədin isə Şər rolunda olduğu qənaəti alınır.

Müxtəlif mövzuların ədəbiyyat və tarixlə əlaqələndirilməsi də şagirdlərin fəallığını artırır, dünyagörüşünü zənginləşdirir. Təcrübəmə əsasən deyə bilərəm ki, riyaziyyatın ədəbiyyatla inteqrasiyası şagirdlərin həm də nitqinin və yaradıcı qabiliyyətlərinin inkişafına müsbət təsir edir. Q.Qaliley yazırdı: "Dünya riyaziyyat dilində yazılmış bir kitabdır, bunu ancaq həmin dilə yiyələnənlər öyrənə bilər".

XXI əsr informasiya əsridir. Zaman təhsildə kompüter və internetin imkanlarından maksimum dərəcədə faydalanmağı tələb edir. Riyaziyyat dərslərində İKT-dən istifadəyə geniş imkanlar var. Böyük riyaziyyatçılar haqqında məlumatlar, riyazi oyunlar, çertyojlar, şəkillər və s. internetdən çox asanlıqla əldə oluna bilir. Mən öz üzərimdə işləyərək əldə etdiyim informasiya resurslarından istifadə etməklə dərsimi daha maraqlı qurmağa çalışıram. İKT- dən istifadə ilə aparılan dərslər şagirdlərin marağını artırır, onları fəallaşdırır, dərsi daha cəlbedici edir. İKT-dən təlim prosesində əməyi yüngülləşdirən bir vasitə kimi deyil, hər bir dərsdə qoyulan təlim məqsədlərinə nail olmaq üçün istifadə edirəm. Planlaşdırma zamanı dərsin hansı mərhələsində və nə məqsədlə kompüterin tətbiq olunmasını nəzərə alıram, slaydlar hazırlayıram. Təcrübəmə əsasən deyə bilərəm ki, İKT-dən istifadə edərkən tədris materialı fəal və şüurlu mənimsənilir, təlimin keyfiyyəti yüksəlir və başlıcası şagirdlərin dərsə marağı artır.

İKT həm də şagirdlərdə müxtəlif sualların cavablarını tapmaq, müxtəlif məsələlərin həll yollarını bilmək üçün müstəqil axtarışlar aparmağa imkan yaradır. İnternetdən istifadə etməklə şagirdlər yazı bacarığı, söz ehtiyatı kimi müsbət keyfiyyət və vərdişlərə yiyələnir. Təbii ki, mən şagirdlərimə sosial şəbəkələrdən düzgün istifadə etmək, başqasının təsirinə düşməmək, təlim materialları ilə maraqlanmağı tövsiyə edirəm.

Yeni ideyalar, yeni metodlar və üsullar, təlim texnologiyaları, yaradıcı, tədqiqatçı, yüksək peşəkarlıq səviyyəsinə malik olan müəllim tələb edir. Bu gün qarşımızda dərsdə susan, yalnız sual verdikdə cavab verən, heç bir təşəbbüskarlıq göstərməyən dünənki şagirddən tamamilə fərqli bir insan dayanmışdır. İndi şagird bizimlə əməkdaşlıq edir, öz fikir və mülahizələrini sərbəst şəkildə bildirir, rəy söyləyir, fərqli yanaşma nümayiş etdirə bilir. Hətta müəyyən məsələlərdə bizimlə razılaşmaya da bilir. Müəllim öz ixtisasını dərindən bilməklə, yüksək pedaqoji, psixoloji, metodiki hazırlıq nümayiş etdirməklə bunları təşkil və idarə edə bilər. Müasir müəllim uşaqlara qayğı ilə yanaşmalı, onları başa düşməli, problemlərini, qayğılarını öyrənməklə hər birinə fərdi yanaşmağı bacarmalıdır.

Əlbəttə, müəllim təkcə yeni təlim texnologiyalarını mənimsəməklə və onları öz işində tətbiq etməklə kifayətlənməməlidir. O, daim yaradıcı, tədqiqatçı və öz peşəsinin vurğunu olmalıdır. Müəllim öz fənninin gözəlliklərini, incəliklərini şagirdlərə çatdırmaqla fənnə qarşı onlarda maraq yaratmalıdır. Belə olan halda şagirdlər həm fənni, həm də onu tədris edən müəllimi sevirlər, onun dərslərində müntəzəm iştirak edirlər. Odur ki, dərslərimdə böyük riyaziyyatçıların -filosofların riyaziyyat haqqında fikirlərindən, fənlərarası inteqrasiyadan, riyazi tapmacalardan, riyazi oyunlardan, resurslardan, rebuslardan, şeirlərdən və s. istifadə edirəm. Belə hallarda şagirdlər yorulmur, dərs daha fəal keçir.

Məşhur Çin mütəfəkkiri Konfutsinin bir fikrini fəaliyyətimdə əsas götürürəm: "Alicənab müəllim şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır, arxasınca dartmır, onda maraq oyadır, məcbur etmir, ona yol göstərir, lakin yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o şagirddə maraq oyadır, məcbur etmir, deməli, şagirdin bilik qazanması asanlaşır. Nə qədər ki, o, şagirdə yol açır, deməli, ona düşünmək imkanı verir. Müəllimlə şagirdin arasında müstəqilliyin yaranması, şagirdə bilik qazanmanın aşılanması və düşünmək imkanının verilməsi, məhz bunlar müəllimlik məharətidir". Məncə, bu sözlər hər bir müasir müəllim üçün fəaliyyət devizi ola bilər.

**Dilbər MƏMİŞOVA,**
*Bakı şəhəri 238 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi, qabaqcıl təhsil işçisi*

# "Bəzi vaxtlarda dərsi qrupun bir tələbəsi keçir"



## Niderland Krallığının Eyndhoven Texnologiya Universitetinin tələbəsi Şamil Mustafayevlə söhbət

Şamil Elçin oğlu Mustafayev 1993-cü ildə Gəncə şəhərində anadan olub. İbtidai təhsilini 4 nömrəli tam orta məktəbdə, ümumi orta və tam orta təhsilini isə Gəncə Özəl Türk Liseyində alıb. Tam orta təhsilini başa vurduqdan sonra 2010-cu ildə Bolqarıstanda yerləşən Amerikan Universitetinə qəbul olunub və orada kompüter elmləri və informasiya sistemləri üzrə ikili ixtisasla bakalavr pilləsini bitirib. Bakalavr təhsilinin bir semestrini mübadilə proqramı ilə ABŞ-ın Vermont Universitetində keçirib. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Niderland Krallığının Eyndhoven Texnologiya Universitetində (TU/e) biznes informasiya sistemləri üzrə magistratura təhsili alır, sonuncu kurs tələbəsidir.

*- Orta məktəb illərində uğurlarınız. Daha çox hansı fənlərə maraq göstərirdiniz?*

- Orta məktəbdə əsasən riyaziyyat, kimya və ingilis dili fənlərinə maraq göstərirdim. IX və X siniflərdə müvafiq olaraq kimya və ingilis dili üzrə şəhər birinciliyinin qalibi olmuşam. İlk müəllimlərimi çox gözəl xatırlayıram və fürsət düşdükcə onları ziyarət edirəm. Onlar mənim təhsilimdə böyük pay sahibidirlər və onları unutmaq günah olardı. Bu günə kimi qazandığım bütün nailiyyətlərə görə öz sahələrində güclü savada malik olan müəllimlərimə borcluyam.

*- Sizdə ixtisasınıza maraq necə və nə vaxtdan yarandı?*

- Orta məktəbdə kimya olimpiadasında mütəmadi iştirak etdiyim üçün kimyaçı olmağı düşünürdüm. Bundan əlavə, təhsilimi xaricdə davam etdirmək istəyirdim. Ancaq 2010-cu ildə Amerikan Universitetinə daxil olduqda bu iki istəyimin birindən keçməli idim, çünki həmin universitetdə kimya ixtisası mövcud deyildi. Uşaqlıqdan da digər marağım kompüterlərə idi və beləcə kompüter elmləri üzrə təhsil almağı qərara aldım.

*- Xaricdə təhsil almağa necə qərar verdiniz?*

- Məktəbdə ingilis dilinə marağım böyük idi. Məktəbdən sonra isə dil kurslarına gedirdim. IX sinifdən isə xaricdə təhsillə maraqlanmağa başladım. Orada müxtəlif ixtisaslar üzrə təhsil alan azərbaycanlı tələbələr tapdım və onlarla mütəmadi danışmağa başladım. Beləcə bu istək daha da böyüdü və 2010-cu ildə xaricdə təhsil almağa yollandım. Qəbul sənədi aldıqda, açığı, valideynlərim çox tərəddüd edirdi. Yad və uzaq ölkə, fərqli mədəniyyət, sosial ortam və maliyyə. Ancaq xaricdə təhsil almağımın gələcəyim üçün nə qədər önəmli olduğunu valideynlərimə izah etdikdən sonra razılaşdılar. Bu müddət ərzində ingilis dili müəllimim və ailə üzvlərim əsas dəstəkçilərim idi.

*- Dövlət Proqramına qəbul olunmanız xəbərini necə qarşıladınız?*

- Dövlət Proqramına qəbul olmağımı böyük sevinclə qarşıladım. Niderlandda təhsil xərcinin yüksək olduğunu nəzərə alsaq təqaüdsüz orada təhsil almağım qeyri-mümkün idi. Dövlətimizin gənclər üçün belə imkan yaratması mükəmməl addımdır. Bu proqramın müsbət tərəfləri çoxdur. Birincisi, güclü mütəxəssis olmağa savadı və qabiliyyəti olub, maliyyə imkanı olmayan gənclər üçün əla fürsətdir. İkincisi, Azərbaycan gənc ölkə olduğu üçün bəzi ixtisaslar yeni-yeni inkişaf etməyə başlayır, ancaq Avropa və Amerika təhsil sistemində bu ixtisaslar çox inkişaf edib. Belə ixtisaslara əsasən texnologiya ilə bağlı olan sahələr aiddir. Buna görə də Dövlət Proqramı bu ixtisaslar üzrə xaricdə təhsil alıb təcrübə toplamaq üçün mühüm bir proqramdır. Üçüncüsü, bu proqram vasitəsilə əcnəbi ölkədə təhsil alarkən oranın ən yaxşı təcrübələrini götürüb gələcəkdə Azərbaycanda tətbiq etmək mümkündür. Dördüncüsü isə ümumilikdə xaricdə təhsil insanın öz inkişafı üçün müsbət haldır.

*- Təhsilimizdə gedən son proseslərə münasibətiniz necədir?*

- Təhsilimizdə gedən son prosesləri yaxından izləyirəm. Xaricdə təhsil alan güclü mütəxəssislərin Azərbaycan universitetlərinə cəlb edilməsi müsbət haldır. Həmçinin məktəblər üçün mütəmadi olaraq yeniliklərin tətbiq olunması Azərbaycanın gələcəyi üçün çox önəmlidir. Ali məktəblərimizə gəldikdə isə, istərdim diplom işi yazan tələbələr bu işi şirkətlərdə yazsınlar. Bunun üçün isə universitetin ayrı-ayrı ixtisaslar üzrə müxtəlif şirkətlərlə sıx əlaqələri mövcud olmalıdır. Məsələn, bizim universitetdə 10 tələbədən 9-u istər bakalavr, istərsə də magistr pilləsi üzrə diplom işini şirkətdə yazır. Bu, bütün tərəflər üçün səmərəlidir. Şirkət pulsuz və ya kiçik pul müqabilində, tələbə vasitəsilə hər hansı mövzu barədə sualına cavab tapa və ya üzləşdiyi çətinliyi aradan qaldıra bilir. Universitet məzun etdiyi tələbənin real iş təcrübəsinə malik olmağına vəsilə olur və dünyaya öz töhfəsini vermiş olur. Tələbə isə bunun müqabilində həm təhsilinə dəstək üçün müəyyən məbləğdə pul qazanır, həm real iş təcrübəsinə malik olur, həm də diplom işini bitirdikdən sonra həmin şirkətdə qalıb işləmək şansı əldə edir.




*- Tələbə həyatınız necə keçir? Mütaliəyə münasibətiniz?*

- Tələbə həyatım tək təhsil almaqdan ibarət deyil. Asudə vaxtımı futbol oynamaqla, dostlarımla birgə gəzməklə, azərbaycanlıların toplaşdığı müxtəlif tədbirlərə qatılmaqla, Azərbaycanın mühüm dövlət bayramları və xüsusi günləri ilə bağlı universitetdə tədbirlər təşkil etməklə keçirirəm. Bundan başqa, Avropada futbol üzrə Azərbaycan milli komanda və klublarını dəstəkləyən azarkeş qrupunun (Milli Dəstə) həmtəsisçisi kimi mütəmadi olaraq idmançılarımıza dəstək oluruq. Mütaliəyə münasibətim yaxşıdır. Kitab oxumasam da, əsasən onlayn mütaliə ilə məşğul oluram. İxtisasıma aid yenilikləri müxtəlif onlayn portallardan oxuyuram. Həmçinin dünya siyasətinə marağım olduğu üçün tez-tez bununla bağlı xəbərləri oxuyuram.

*- Niderland təhsil sisteminin üstünlükləri barədə nə deyə bilərsiniz?*

- Niderland təhsil sisteminin bir çox üstünlükləri var. Niderland universitetlərinin istənilən pillə üzrə diplomu digər universitetlərin diplomu ilə ekvivalent sayılır. Yəni, Eyndhoven Texnologiya Universitetində bakalavr pilləsi üzrə məzun olan şəxslə, Delft Texnologiya Universitetinin eyni pillə və eyni ixtisas üzrə məzun olan şəxs bərabər savada malik olduğu kimi qəbul edilir. Buna görə də magistratura və ya PhD pilləsi üzrə istənilən Niderland universitetinə imtahansız qəbul ola bilir. Nəzəri biliklə yanaşı praktik biliyə də çox üstünlük verilir. Deməli olar ki, bütün mühazirələrdə ən azı bir qrup layihəsi olur və bu layihə mövcud şirkətin real məlumatlarına əsaslanır. Bunun isə təcrübə baxımından gələcəkdə tələbənin hər hansı şirkətdə işləməsinə müsbət təsiri var.

Eyndhoven Texnologiya Universiteti Niderlandın 2 ən güclü texnologiya universitetindən biridir. Mühəndislik və IT üzrə dünyanın top 100-lüyünə daxil olan bu universitet gələcəyin ən peşəkar mütəxəssislərini yetişdirməklə məşğuldur. Ali məktəb 2016-cı ilin nəticələrinə əsasən, universitet-şirkət əlaqələri nəticəsində hazırlanan tədqiqatların sayına görə Harvard Universitetini də qabaqlayaraq dünyada 1-ci yerə layiq görülüb. Burada dərs deyən ən məşhur riyaziyyatçı alimlərdən biri Edsger Deykstra olub. İxtisasım isə biznes informasiya sistemləridir (BİS). Bu ixtisas kompüter elmləri və sənaye mühəndisliyi kafedralarının birgə təsis etdiyi bir ixtisasdır. Bu ixtisasda daha çox informasiya sistemlərindən istifadə edilərək biznes proseslərinin təşkili, təhlili və optimallaşdırılması öyrədilir. Bu proqramın 2 illik olması isə əlavə üstünlükdür, çünki bu peşəyə tam yiyələnmək üçün yetərli qədər vaxt imkanı olur. Seçdiyim ixtisasın ən önəmli cəhətlərindən biri isə istənilən biznes prosesinin optimallaşdırılmasıdır. Sirr deyil ki, istər dövlət, istərsə də özəl şirkətlərdə həm maliyyə, həm də əməliyyatların aparılması istiqamətində optimallaşdırmaya ehtiyac var. Mənim də ixtisasım problemləri aradan qaldırıb, onların optimallaşdırılması ilə məşğul olmağa imkan yaradır.

*- Universitetdə müəllim-tələbə münasibətləri necə qurulub?*

- Oxuduğum universitetdə müəllim-tələbə münasibətləri dərs zamanı interaktiv olur. Tələbə istənilən zaman müəllimi dayandırıb sual verə bilər. Bundan başqa bəzi vaxtlarda dərsi, qrupun bir tələbəsi keçir. Bunun üstün cəhəti isə həmin mövzunu digər tələbə yoldaşının prizmasından dinləyib daha asan qavramaqdır. Yeganə problem müəllimlərdən dərsdən kənar yardıma ehtiyac olduqda bir çox zaman məşğul olmaları və tələbəyə vaxt ayıra bilməmələridir. Məsələn, Azərbaycanda bu problemlə heç vaxt qarşılaşmamışam. Təəssüflər olsun ki, burada belə hal teztez baş verir. Səbəb kimi isə müəllimlərin digər tədqiqat işləri ilə məşğul olmasını göstərirlər.

*- Universitetdə mühazirə və imtahan sessiyası necə təşkil olunur?*

- Universitetdə mühazirələr digər universitetlərdə olduğu kimi standart təşkil olunur. Əsasən slayd təqdimatlarından istifadə edərək tələbələrə dərsi başa salırlar. Bəzi hallarda həftənin 1 dərs günü əvvəlki dərs günündə keçilən dərsin kiçik imtahanı təşkil olunur. Belə olan halda tələbə hər mövzunu mütəmadi oxuyur və son ana saxlamır. İmtahanlara nəzarət çox ciddi şəkildə olur. Telefonların çantanın içinə qoyulması tələb olunur. Nəzarətə isə əsasən yaşlı işsiz şəxslər cəlb olunur ki, bu da əmək qabiliyyətini itirmiş vətəndaşlara əlavə pul qazandırmaq məqsədi daşıyır.

*- Xaricdə təhsilin hansı üstünlüklərini qeyd edə bilərsiniz? Tələbələr üçün hansı imkanlar var?*

- Xaricdə təhsilin üstünlükləri çoxdur. Xaricdə təhsil tələbənin dünyagörüşünü artırır, yad ölkədə sərbəst yaşamaq təcrübəsi qazandırır, yeni mədəniyyətlər öyrənmək, ingilis dilini inkişaf etdirmək və müxtəlif fərqli təcrübələr qazanmaq şansı yaradır. Həmçinin hər ölkənin öz ixtisaslaşmış sahəsi var və o sahə üzrə güclü mütəxəssislər yetişdirirlər. Əgər bir tələbənin müəyyən ixtisas üzrə xaricdə oxumaq arzusu varsa, mütləq o ixtisas üzrə güclü inkişafı olan ölkə və onun universitetini seçmək lazımdır. Böyük universitetlərin çox böyük kampusları olur ki, bu da tələbələrə dərsdən kənar özünü inkişaf etdirmək üçün əlavə imkanlar yaradır. Məsələn, universitetin bir çox idman növləri üçün bir neçə meydançası, üzgüçülük hovuzu və idman zalları olur. Azərbaycanda olduğu kimi, xarici universitetlərdə də tələbələr müxtəlif elmi tədqiqatlara cəlb olunur, onların biliklərindən və təcrübələrindən yararlanmağa çalışırlar. Bir çox belə elmi tədqiqatlar isə yeni innovativ məhsulun yaranmasına gətirib çıxarır ki, bu da həm universitet, həm müəllim, həm tələbə, həm də bəşəriyyət üçün hərtərəfli xeyirdir.

*- Xaricdə təhsil sizin ümidlərinizi doğrultdumu? Qənaətləriniz necədir?*

- Düşünürəm ki, xaricdə təhsil mənim ümidlərimi doğrultdu. Təbii ki, tam doğrultması üçün təhsilimi bitirib ixtisasım üzrə yaxşı iş yeri tapmaq önəmlidir. Ancaq düşünürəm ki, yaxşı mütəxəssis üçün iş yeri tapmaq heç də çətin deyil. İstər xaricdə, istərsə də Azərbaycanda. Yetər ki, universiteti bitirən məzun ixtisası üzrə peşəkar mütəxəssis olsun və işləmək həvəsi olsun.

*- Bir gənc olaraq Azərbaycanı Niderlandda təbliğ edə bilirsinizmi? Azərbaycanla bağlı hansı tədbirləriniz olub?*

- Azərbaycan diasporası ilə sıx əlaqələrim var. Mütəmadi olaraq istər səfirlik, istərsə də diaspora təşkilatlarının keçirdikləri önəmli tədbirlərə qatılırıq, təşkilində kömək edirik və lazım gəldikdə özümüz də çıxış edirik. Bir çox yeni gələn tələbələr üçün uyğunlaşma müddətinə ehtiyac olduğundan onlarla əlaqə saxlamaq bəzi vaxtlarda çətin olur və əlaqə yarandığı zaman isə təhsilinin bitməsinə çox az zaman qaldığını müşahidə edirik. Buna görə də, tələbələr olaraq çalışırıq ki, bütün universitetlərdə ən azı 1 tələbə ilə mütəmadi əlaqədə olaq və yeni azərbaycanlı tələbələr gəldikdə, onları Azərbaycanın təbliğinə cəlb edək. Düşünürəm ki, Azərbaycanı yetərincə təbliğ edə bilirik. İstər təhsilimizlə, istər mədəniyyətimizlə, istərsə də bayram günlərində keçirdiyimiz müxtəlif tədbirlərlə.

20 Yanvar və Xocalı soyqırımı qurbanlarının xatirəsinin anım günlərində əsasən diasporanın təşkil etdiyi tədbirlərə qatılırıq, çünki o tədbirlər daha kütləvi şəkildədir. Bayram günlərində isə kütləvilik o qədər də yüksək səviyyədə olmadığı üçün hərə öz universitetində və ya yaşadığı şəhərdə keçirməyə çalışır. Həmçinin idman yarışlarına da qatılıb Azərbaycan bayrağı altında iştirak edən idmançılarımıza dəstək oluruq. Məsələn, keçən ilin mart ayında Azərbaycanın futzal millisi Niderland millisi ilə qarşılaşırdı. Təxminən 10-a yaxın tələbə və 30-a yaxın burada yaşayan həmvətənlilərimizlə birgə millimizə dəstək olduq. Millimiz də dəstəyə qarşılıq olaraq Niderland millisi üzərində 5-1 hesabı ilə parlaq qələbə qazandı. Daha sonra, aprel ayında ermənilər tərəfindən Azərbaycanın cəbhə bölgələrində yaşayan vətəndaşlarımıza qarşı olan təxribatla bağlı Haaqada yerləşən erməni səfirliyi önündə aksiyada iştirak etdik. Aksiyaya Niderland Krallığının müxtəlif universitetlərindən 50-yə yaxın tələbə də qatılmışdı. Bayram günləri ilə əlaqədar tədbirlərə gəldikdə isə, keçən ilin 28 may tarixində Eyndhoven Texnologiya Universitetində 2 tədbir keçirdik. Universitetin kitabxanasının girişində Azərbaycanın mədəniyyətini, tarixini, coğrafiyasını, xalçalarını, flora və faunasını, həqiqətlərini və digər mühüm cəhətlərini əks etdirən kitabçalar və bukletlərdən ibarət stend yerləşdirdik. Ümumilikdə stendə yüksək maraq var idi. Müxtəlif ölkələrdən tələbələr stendimizə yaxınlaşıb kitabçaları götürürdülər, suallar verirdilər. Daha sonra isə təşkil etdiyimiz bayram tədbirində Azərbaycan, Türkiyə, Niderland Krallığı, İran, Oman, Meksika, Hindistan, Yunanıstan və Rusiyadan 35-ə yaxın tələbə iştirak etdi. Tədbir 28 May Respublika Günü haqqında təqdimat, Azərbaycan haqqında videoçarx, təbliğat materialları, milli rəqs və bayram süfrəsindən ibarət idi. Bu tədbirin də böyük uğurla keçdiyini deyə bilərik. Həmçinin, bu il Haaqada baş tutan Xocalı soyqırımı ilə bağlı tədbirlərə qatılıb təşkilati köməyimizi də göstərmişik. Qarşıda isə bizi Novruz bayramı və 28 May Respublika Günü gözləyir. Hazırda bunlarla da bağlı bayram və təbliğat tədbirlərinin təşkili üzərində iş gedir.

*- Gələcək planlarınız?*

- Gələcək planlarım təhsilimi bitirib Azərbaycan üçün güclü mütəxəssis olmaqdır. Bunun üçün isə istər xaricdə, istərsə də Azərbaycanda, ixtisasıma uyğun iş tapıb orada təcrübə toplamaq və həm Azərbaycana, həm də bəşəriyyətə xeyir verməkdir. Təbii ki, olduğum yerdən asılı olmayaraq, Azərbaycanın təbliğini də davam etdirmək gələcək planlarıma daxildir.

**Oruc MUSTAFAYEV,**
*Azərbaycan müəllimi*

## Göyçə dedim yaralarım göynədi...



**Orxan PAŞA**
**(Məhərrəm QASIMLI),**
*Azərbaycan Respublikasının*
*Dövlət mükafatı laureatı*

Göyçə dedim yaralarım göynədi,
Axşamlara qarışdırdım səhəri.
Qaçqın nənə, səsindəki ney nədi? -
Buludlandı gözlərimin qəhəri.

Sinəmizdə od qalayıb yağılar,
Çətin bizim qübarımız dağılar.
Murov deyən, Murğuz deyən ağılar
Viran yurdun miras qalmış bəhəri...

İnsafdımı Göyçə gölü ah uda,
Ovçusundan ayrı düşə ahu da.
Pərişandı Ələsgərin ruhu da,
Gəlib yetdi məzarının xəbəri.

Qoca qartal, qardaş idin mərdə sən,
Eldən ayrı düşdün yaman dərdə sən.
A telli saz, gəşt eləyib bir də sən
O dağlardan almalısan nəməri.

Şan-şan olub yaylaqların bağırı,
Sal qayalar pələng kimi bağırır.
Həsənnənə, Həsənbaba çağırır:
- Hazır eylə, hazır eylə yəhəri...

Oğuz oğlu, damarımız vurursa,
Dədəm Qorqud qurğumuzu qurursa,
Qoç dəlilər, Koroğlular durursa,
Qabaqdadı hələ Göyçə səfəri!

## Ana yurdum

Sən əbədi ilk baharım,
Ana yurdum, ana yurdum.
Ürəyimdə şah damarım,
Ana yurdum, ana yurdum.

Babaların ocağısan,
İsti ana qucağısan,
Ər oğullar oylağısan,
Ana yurdum, ana yurdum.

Qoç Koroğlun çoxdu sənin,
Dəli nərən oxdu sənin.
Heç bənzərin yoxdu sənin,
Ana yurdum, ana yurdum.

Hər mahalın bir tamaşa,
Heyranındı Orxan Paşa.
Bayrağınla ucal, yaşa,
Ana yurdum, ana yurdum.

## Qürbətin yolları

Eldən ayrı düşənlərin
Yurdu qürbətin yolları.
Qara bağrı bişənlərin
Dərdi qürbətin yolları.

İlik - sümük gizildədən,
Axşam-sabah sızıldadan,
Yandırıb da cızıldadan
Qordu qürbətin yolları.

Sağı bulud, solu çəndi,
Hər addımı qəhər-qəmdi,
Dirigözlü cəhənnəmdi,
Gordu qürbətin yolları.

İlim-ilim itməyi yox,
Axır ucda bitməyi yox.
Vətən sarı getməyi yox -
Kordu qürbətin yolları.

## Gəldim, ay bənövşəm

Bakıdan Tovuza yordum yolları,
Kimin nə dərdinə, kimə nə, gəldim.
Dağlar ətəyində tikan kolları
Qoy batsın dizimə, çənəmə gəldim.

Yazın əvvəlində qaçıb beş günə,
Gəldim ay bənövşəm, sənin eşqinə.
Bu sirri, sən allah, açma heç kimə,
Dönüb uşaqlaşdım-dünənə gəldim.

Ətrim xəyalımı uçurtdu göyə,
Köçdü dalğa-dalğa boyun ürəyə.
Gözləri yaşarmış mən divanəyə:
"Gəldinmi, ay dəli?!"-demənə gəldim.

Mələyə oxşatdım əzəl hüsnünü,
Kaş ki, bürünməyə xəzəl hüsnünü.
Canıma hopdurub gözəl hüsnünü
Yığışdım köksümə-sinəmə, gəldim...

## Olar



**Fatma İSRAFİLOVA,**
*Zaqatala şəhər 1 nömrəli*
*tam orta məktəbin direktoru,*
*əməkdar müəllim*

Möhkəmlik - Qartalın caynaqlarında
Ötgünlük - Bəbirin ayaqlarında
Xınalıq - Kəkliyin dırnaqlarında
Gözəllik - Ceyranın gözündə olar!

Yorğunluq yolların yoxuşlarında,
Durğunluq gözlərin yağışlarında,
Soyuqluq insanın baxışlarında,
İstilik üreyin közündə olar !

Heyrət dağ döşünün ətəklərində,
Zəhmət bal arının pətəklərində,
Qüdrət xaqanların bəbəklərində,
Qüvvət igidlərin dizində olar.

Bədəsil xasiyyət üz qarasıdır,
Sağalmaz yaralar söz yarasıdır...
Fəlakət qaş ilə göz arasıdır
Ya suda, ya odda, ya düzdə olar...

Hər şeyi həyatda qazanmaq asan
Mərifət - İnsanın özündə olar!
Cahillik cavanın coşqun çağında,
Aqillik qocanın sözündə olar.

## İnsanlar, illərin nə təqsiri var?

Beləcə bir il də keçdi ömürdən,
Bir ildə atını səyritdi keçdi...
Ömrün sirr-soraqlı səhifəsindən
Həyat bir ili də beləcə biçdi...
Bir ildə atını səyritdi keçdi...

Ürək qövr elədi, ürək od aldı,
Biruzə verməyi dillərdə gördük...
Əyrilik edənlər insanlar oldu
Təqsiri aylarda, illərdə gördük...

Güman da ümiddir təsəllimizdə,
Ümman çalxalansa dağ da udular...
Yaxşı da, yaman da öz əlimizdə
İnsanlar, illərin nə təqsiri var?!.

## Canım Naxçıvan



**Elbəyi MAQSUDOV,**
*Naxçıvan Dövlət Universitetinin*
*kafedra müdiri, professor*

Mən səni sevmişəm canda can kimi,
Əlçatmaz Tanrıya bir inam kimi,
İstərəm dünyada öz anam kimi
Hər zaman adını anım, Naxçıvan,
Müqəddəs Nuh yurdum, canım Naxçıvan.

Daş üstdə gül-çiçək bitirən vətən,
Çavidi, Cəlili yetirən Vətən
Dünyaya dahilər gətirən vətən,
Qürurum, sultanım, xanım Naxçıvan
Döyünən ürəyim, canım Naxçıvan.

Mən səndən öyrəndim eşqi, qüdrəti,
Düşmənə nifrəti, dosta hörməti,
Mərdliyi, sərtliyi, həm cəsarəti
Varlığım, həyatım, qanım Naxçıvan
Yenilməz məkanım, canım Naxçıvan.

Səni yağılardan qorumaq üçün,
Alçaq niyyətlərin qovurmaq üçün
Məhv edib, yandırıb, od vurmaq üçün
Gərəksə, alışım, yanım, Naxçıvan
Ey "Odlar diyarı"m, canım Naxçıvan.

Cahanın içində sən bir cahansan,
Bizlər övladınıq, sən bizə cansan,
Əzəli, əbədi Azərbaycansan
Şöhrətim,qüdrətim, şanım Naxçıvan,
Sənə canım qurban, canım, Naxçıvan!

## Qarabağın şəhid düşən balası



**Adilə NƏZƏROVA,**
*filologiya üzrə fəlsəfə doktoru*

Çətindir xar olmaq yağı içində,
Bu xalq hələ ümidindən güc alır.
Üzü gülmür qalıb ağı içində
Əsir düşən körpələri qocalır...

Köçən, qaçan... - yaralar yara bağlar,
Yol gözləyən yollar yolçu soraqlar.
O torpaqda hələ yer-göy qan ağlar,
Ağ yalanlar doğrulardan bac alır...

İtkinlərin itirilmiş sayından,
Altı yüz on üç şəhidin ahından,
Yeddi milli qəhrəmanın ruhundan
Səmalara səssiz fəryad ucalır...

Qarqarçay tək, Əsgəran tək qalası
Tapdaq altda quruyub göy talası.
Qarabağın şəhid düşən balası
Xocalıdır, Xocalıdır, Xocalı.

## Xocalı - soyqırım

Xocalı yaddaşlara qanla yazılmış,
xoş günlərinə məzar qazılmış.
Xocalı deyəndə bir oğul yada düşür -
ayağı qopmuş.
Bir ana yada düşür -
ölərkən üzünə heyrətlər hopmuş.
Bir qız yada düşür -
oğurlanmış xəyalları...
Qayadan atmış özünü...
Tarix əlbət, deyəcəkdir sözünü.
Xocalı! Son günün - əsir günün,
son gecən - yesir gecən.
O gün kirli beyinlərin qana susadığı an,
Vicdanların pas tutduğu,
insanlığın öldüyü zaman.
Bu bir faciədi, bizi Yaradan!
Çıxarmı şüurdan, çıxarmı yaddan?
Cəsədlər içində ana yatırdı,
bala süd əmirdi ölü anadan.
Ağladı torpaq da, səma da,
gözlərdəki yaş dondu havada.
Xocalı da ağladı,
ağladı için-için, ağladı aram-aram.
Xocalıda o gecə yazıldı neçə dram.
Əzablar bir faciə, işgəncələr dözülməz,
soyqırım bir dəhşətdi.
Xocalının o günü
dünya bilsin, vəhşətdi.
Ağladıqca Qarabağ,
ağladıqca bədən, can,
ağladı Azərbaycan...

## El sevər ürəkdən



**Seyidəli SƏDA,**
*təqaüddə olan müəllim*

Vətənə bağlıyam, ona qurbanam,
Mən onu canımdan əziz bilmişəm.
O mənim gözümdə dönüb dağlara,
Mən ona güvənib, cəngə girmişəm.

İncidir mənimçün hər qarış yeri,
Qoruyar Vətəni igid əsgəri,
Hər elə şərəfdi şəhid hünəri,
Yurd üçün mən şəhid-oğul vermişəm.

Bu dünya varında yoxdur tamahım,
İstərəm obamla birgə dolanım,
Təki uca olsun eldə ad-sanım,
El bilir gözümü yurda dikmişəm.

Şöhrətim dünyada doğma elimdi,
Namərdə bəd işdə gücüm qənimdi,
Torpağın yolunda ölüm mənimdi,
Yurdumu anatək qəlbən sevmişəm.

El sevər ürəkdən yurdun-yuvasın,
Gözlər elim, döyüş cəngi çalınsın,
Mən istərəm Qarabağım alınsın,
Vətənə can verən mərdi görmüşəm.

## Gözümdə Vətən

Olsa da gözümdə Vətən gülüstan,
Qıyıb bircə gülün verməram yada.
Hələ ki, sinəmdə döyünür ürək,
Çəkərəm qayğısın candan dünyada.

Sən mənim gözümə işıqsan, Vətən,
Şərəfsən sən mənim bütöv ömrümə.
Çəksən də sınağa sən məni hərdən,
Bir ana olmusan çətin günümə.

Bir övlad toxunsa ana qəlbinə,
Özü də alacaq bir zaman payın.
İbrətdir ananın sözü balaya,
Olmayıb heç görən ananın tayın.

## Ana dilim

Adında canım olan cananımdı ana dilim,
Hər zaman əzizlənən mehmanımdı ana dilim.

Bu dildə nə yazdımsa, mayəsində gözəllik var,
Saf eşqim, şux gözəlim, ceyranımdı ana dilim.

Varlığım, iftixarım, sevgili yarım, nigarım,
Qəlbimə hakim olan sultanımdı ana dilim.

Hər zülmə, cəhalətə min illərlə sinə gərmiş,
Əbədi, silinməyən fərmanımdı ana dilim.

Ruhum, canım, həmdəmim, eşqim, gülüm, gülşənim.
Hər dərdə əlac olan dərmanımdı ana dilim.

Dilimdə hər bir sözün yüz rəngi, yüz çaları var,
Dilləri heyran edən gülüstanımdı ana dilim.

Sadiqəm öz dilimə, öz soyuma, öz kökümə,
Min illərlə oxunan dastanımdı ana dilim.

## Bir Günəş istəyirəm



**Məsumə MUSA,**
*BDU-nun jurnalistika*
*fakültəsinin III kurs tələbəsi*

Bir Günəş istəyirəm
Mənim özümün olsun.
Doğsun hər gün ömrümə
Nuru gözümün olsun.

Günəşi görüm deyə,
Dan yeri ağarmadan.
Boylanıram güneyə,
Ay hələ heç batmadan.

Dənizi seyr edirəm,
Elə bil uzaqlarda
Yerlə səma birləşir
Günəşin yatağında.

Bir Günəş istəyirəm
Yoluma işıq saçsın.
Sonsuz arzularıma
Parlaq sabah açılsın.

Bir Günəş istəyirəm
Bir an belə batmasın.
Baxıb öz Ay yarına
Gecələr də yatmasın.

Od saçan Günəşimin
Şəfəqinə boyanım.
Uzanan gecələrin
Zülmətinə dayanım.

Günəş istərəm odlu
Oduna alovlanım.
Şəfqəti qucaq dolu
Olsun mərhəmət payım.

Qəlbimi üşüdərmi
Günəş solğun olarsa.
Dəli ruzgarlar kimi
İç dünyama dolarsa.

Yox bu, bir əfsanədir,
Xəyallarımdan keçən.
O göylər gözəlidir,
Kimdir Günəşi verən?!

Həsəd ilə baxıram
Əlçatmaz bir varlığa.
Ay da onun dərdindən
Çəkilib qaranlığa.

Ay- Günəş məhəbbəti
Pas atıb bir dəmir tək.
Mən də vaz keçdim ondan,
Gec deyil, sən də əl çək,
Bu istəkdən, ay ürək!

## Azərbaycan bayrağı



**Fəxri ŞƏFAHƏTLİ,**
*Azərbaycan Dövlət Bədən*
*Tərbiyəsi və İdman*
*Akademiyasının II kurs tələbəsi*

Azərbaycan bayrağı - milli
mənsubiyyətim azadlığım,
qüdrətim.
Dalğalandıqca mənim
O üç rəngli bayrağım
Artır, daha da artır dizlərimdə
taqətim.
Mavi rəng - türkçülüyüm.
Bəli türk oğluyam mən.
"Türk oğlu" - Türk adıyla
böyüklüyümdür mənim.
Qırmızı - müasirlik, müstəqillik.
Tarix boyu əyilməz
heç bir xalq millətə
Millətə, xalqa inam
Xalq sadiqdir dövlətə.
Qələbəyə inam var bu ərən
məmləkətdə,
Koroğlular, Babəklər yetirən
məmləkətdə.
Yaşıl rəng islamlığın bariz
nümunəsidir.
Bütün türk xalqlarını birliyə
çağıran səs,
islamlığın səsidir.
Səkkiz guşəli ulduz üstündə
ay parəsi
Səkkiz oğuz elinin adı
nişanəsidir.
Üstündəki ay para günəşin
şöləsidir.
Bu odlar ölkəsində həyat necə
firavan
İnsanları güləröz, insanları
mehriban.
Yaşa, sev bu diyarda dərdi
qəmini unut.
Bu dəyərli torpağı, bayrağını
uca tut.
Çalınsın zəfər zəngi bayraq
başımız üstə.
Xankəndində, Şuşada
dalğalansın ahəstə...

**Səhifəni hazırladı: Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*
s.kerimova@muallim.edu.az

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu

Azərbaycan Respublikası Təhsil Nazirliyi “Azərbaycan müəllimi” qəzeti

# “II YAZI” MÜSABİQƏSİ

## ELAN EDİR

Ölkənin təhsil müəssisələrində çalışan müəllimlər, pedaqoqlar tədris etdikləri fənlərlə bağlı fərdi pedaqoji təcrübələrini, müasir dərsin əsas meyarlarını özündə əks etdirən metodiki yazılarını təqdim etməklə müsabiqədə iştirak edə bilərlər. Yazılar 01 mart 2017-ci il tarixdən 31 mart 2017-ci il tarixinədək ***muallim@edu.gov.az*** elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və təcrübəli müəllimlərdən ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin qiymətli hədiyyə və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

### Müsabiqənin əsas şərtləri:

İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidir. Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər. Yazıların əvvəlində müsabiqə üçün hazırlandığı qeyd olunmalıdır.

**Əlaqə üçün:** (012) 538-51-41

TƏŞKİLAT KOMİTƏSİ


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Baş redaktor** Bayram Hüseynzadə — huseynzada@edu.gov.az 538-21-66
**Baş redaktor müavini** Sarvan İbrahimov — s.ibrahimov@muallim.edu.az 538-21-55
**Məsul katib** Elman Əbdülov — e.abdulov@muallim.edu.az 510-68-73
**Elm və təhsil şöbəsi** Yusif Əliyev — y.aliyev@muallim.edu.az 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev — o.mustafayev@muallim.edu.az 538-67-41
**İnformasiya şöbəsi** Niyazi Rəhimov — n.rahimov@muallim.edu.az 538-66-05
**Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova — s.kerimova@muallim.edu.az 539-19-74
**Məktublar şöbəsi** Şakir Cəfərov — sh.cafarov@muallim.edu.az 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6235, **Sifariş** 650
**Məsul növbətçi:** Ş.Cəfərov


## İDMAN XƏBƏRLƏRİ

### “Təhsil” Respublika İdman Mərkəzinin idmançıları qalib olub



Ağır atletika idman növü üzrə Azərbaycan birinciliyi keçirilib.

Yarışda idman klubları, məktəbləri və cəmiyyətlərindən ümumilikdə 150-yə yaxın idmançı iştirak edib.

Çempionatda çıxış edən “Təhsil” Respublika İdman Mərkəzinin ağır atletika üzrə yığma komandasının üzvləri ümumilikdə 4 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar.

Birinciliyin keçirilməsində məqsəd perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması olub.

### Basketbol turniri başa çatıb



Bakı şəhəri üzrə ümumi təhsil məktəblərinin şagirdləri arasında basketbol idman növü üzrə keçirilən turnir başa çatıb. Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən turnirdə VII-IX sinif şagirdləri iştirak edib.

Qızlardan ibarət komandalar arasında keçirilən yarışın nəticəsinə görə, Bakı Türk Anadolu Liseyinin komandası I, 158 nömrəli tam orta məktəbin komandası II, 17 nömrəli tam orta məktəbin komandası III yerə layiq görülüb.

Oğlanlardan ibarət komandalar arasında keçirilən yarışın nəticəsinə görə, 310 nömrəli tam orta məktəbin komandası I, Bakı Türk Anadolu Liseyinin komandası II, 220 nömrəli məktəb-liseyin komandası isə III yerin sahibi olub.

Yarışın bağlanış mərasimində Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşları qalib komandaları təbrik edib, onlara gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıblar.

Yarışda I, II və III yerləri tutan komandaların üzvləri müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

**www.baku.edu.gov.az**

## Etibarsız sayılır

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Cabbarlı Yunis Yusif oğluna verilmiş 295459 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Mədəni-Maarif Texnikumu** tərəfindən 2009-cu ildə Rüstəmova Esmira Kamran qızına verilmiş BB-II-084661 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1986-cı ildə Zeynalova Yeganə Novruz qızına verilmiş KB-016904 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2012-ci ildə Məmmədli Etibar Adil oğluna verilmiş B-240080 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1985-ci ildə Xəlilova Rəna Qələndər qızına verilmiş HB-955880 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Hacıyev Adəm Asif oğluna verilmiş A-051311 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Nuriyeva (Məmmədova) Könül Sərdar qızına verilmiş 037422 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 3 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Talıbov Arif Nadir oğluna verilmiş 258700 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1986-cı ildə Məsimov Vaqif Qurban oğluna verilmiş HB-006485 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi Dənizçilik Məktəbi** tərəfindən 1999-cu ildə Zeynalov Rauf Salman oğluna verilmiş MN-0003089 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi Dənizçilik Məktəbi** tərəfindən 1998-ci ildə Əfəndiyev Kamil Ramiz oğluna verilmiş MN-0001896 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tətəfindən 2005-ci ildə Ağayev Əlvan Nəcəfalı oğluna verilmiş B-029724 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Həmidova Firəngiz Tapdıq qızına verilmiş A-042026 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** tərəfindən 1999-cu ildə Əliyev Eldəniz Tərlan oğluna verilmiş Д-030283 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Babayev Elmir Elşad oğluna verilmiş B-112979 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə İmanova Aliyə Vilayət qızına verilmiş magistr tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 3 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Həsənova Zöhrə Qalib qızına verilmiş A-046087 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 5 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əzizov Elsevər Əzizağa oğluna verilmiş A-048407 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 32 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Şıxəliyeva Güldəstə Rasim qızına verilmiş A-515552 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1996-cı ildə Məmmədov Elmar Məmməd oğluna verilmiş AB-I-052413 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1991-ci ildə Məmmədov Elmar Məmməd oğluna verilmiş УB-I-124505 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** İsnovqışlaq kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Cümşüdov İbrət Fuad oğluna verilmiş A-375098 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Mahmudova Zülfiyyə Arzu qızına verilmiş B-007905 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 78 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Balazadə Kamal Nəbi oğluna verilmiş A-100353 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 94 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Xudaverdiyeva Kamilə Faiq qızına verilmiş B-593513 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Abdullazadə Rəsul Habil oğluna verilmiş B-688438 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1995-ci ildə Əfəndiyev Fuad Tofiq oğluna verilmiş AB-I-019590 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1992-ci ildə Məmmədova Təbəssüm Mirzə qızına verilmiş УB-I-114280 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Sor-sor kənd tam orta məktəbini 1976-cı ildə bitirmiş Dəmirov Rüstəm Mahmud oğluna verilmiş AZ-891480 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 5 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Heydərov Rəhman Gülalı oğluna verilmiş A-162164 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Xəlilli Fərid Çingiz oğluna verilmiş A-034403 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Maşxan kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Həsənova Xanım Bəylər qızına verilmiş B-072497 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2001-ci ildə Orucov Anar Rafiq oğluna verilmiş A-084037 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 3 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Nəzirə Fərhad qızına verilmiş B-445463 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 30 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Osmanov Vüsal Sərxan oğluna verilmiş A-441781 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayonu** 4 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Həsənova Sona İlqar qızına verilmiş 904714 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1997-ci ildə Əliyev Vüqar Əli oğluna verilmiş AB-I-065360 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 1997-ci ildə Həsənov İbrahim Firuddin oğluna verilmiş A-010884 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Nərimankənd kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Hüseynov Rövşən Məmi oğluna verilmiş 023501 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2016-cı ildə Zamanov Əhməd Mehman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2006-cı ildə Mirzəliyev Həşim Hüseynalı oğluna verilmiş B-056153 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2012-ci ildə Hüseynov Zaur Roman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Universiteti** tərəfindən 1986-cı ildə Məmmədova Qaratel Əsabil qızına verilmiş HB-007361 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2004-cü ildə Bayramova Arifə Aydın qızına verilmiş BB-II-005454 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** “Zəkalar” Liseyini 2015-ci ildə bitirmiş Quliyeva Fidan Ağaverdi qızına verilmiş AN-416192 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2005-ci ildə Qafarov Arif Fuad oğluna verilmiş B-030026 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Cəfərov Rasim Kamil oğluna verilmiş A-450663 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** Zərdabi qəsəbə tam orta məktəbini 2006-cı ildə bitirmiş Əhmədov Rauf Bayram oğluna verilmiş B-311474 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** akademik Z.Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyi 2013-cü ildə bitirmiş Əliyev Cavid İlqar oğluna verilmiş A-235652 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2002-ci ildə Maqmədova Aynurə Maqməd qızına verilmiş AB-II-083573 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Novruzova Emilya Namiq qızına verilmiş A-413434 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayonu** Rəhimli kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Həsənova (Kərimova) Türkan Elxan qızına verilmiş B-567104 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2015-ci ildə Osmanova Fidan Nazim qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Cavadzadə Ləman Azad qızına verilmiş B-486485 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 70 nömrəli Pilot Liseyi 2006-cı ildə bitirmiş Qurbanov Tahir Heybət oğluna verilmiş B-258686 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədzadə Riyad Eldar oğluna verilmiş A-637421 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** Əhmədağalı kənd tam orta məktəbini bitirmiş Qurbanov Elşən Seydalı oğluna verilmiş A-450902 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 178 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Qasımova Aynurə Tahir qızına verilmiş B-128757 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2001-ci ildə Babayev Murad Kamal oğluna verilmiş A-083330 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayonu** Mırtı kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Abdullayev Əsəd Sahib oğluna verilmiş B-085423 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 7 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Quliyev Elçin Zahir oğluna verilmiş A-739991 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin ingilis dili müəllimi Sədaqət Əhmədovaya anası

**LƏTİFƏ ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin müəllimi Yelena Mehdiyevaya atası

**AZAD ŞÜKÜROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – South Asia

by Andy Keedwell

### Activity 1

Match the beginning of the sentences (1–6) with their endings (a–f). An example has been done for you.

| | |
|---|---|
| **1.** Once the Nagas and the moon | **a.** who felt sorry for the moon. |
| **2.** One day an old woman hit the moon and hurt it | **b.** the children threw more and more sticks and stones. |
| **Example: The moon began to cry** | **c.** to explain the monthly movements of the moon. |
| **3.** The little girl was the only person in the village | **d.** although she had not meant to. |
| **4.** When the moon began to cry | **e.** lived together in peace and friendship. |
| **5.** The moon ran away | **because the children hurt it.** |
| **6.** The Nagas tell this story | **f.** as far as it could from the children. |

## The moon and the village

This story is told by the Naga people who live in the mountains of north-east India. It explains why the moon is a long way away from the Earth and why, every month, sometimes the sky grows dark and nothing can be seen except the stars and why, too, once a month the full moon appears shining down on the Earth.

The Nagas say that once upon a time the moon lived close to the Earth, near their village. It loved to live near people and it shared in the games of the children and the festivals that took place every year. One day, though, an old woman who was cleaning out her house after the heavy rains of summer struck the moon by accident with her wooden brush. The moon began to cry in pain. The children of the village thought this was very amusing and they began to throw sticks and stones at the moon's face, hurting it. Of all the children, only one little girl felt sorry for the poor moon and told the children to stop but they would not listen.

The moon was so hurt that it decided to go away and live far away from the Earth in the sky where it would be safe from the cruel children. This is why, say the Nagas, every month the moon hides its face and the sky is dark. The little girl, however, missed the moon so much that she began to sing a song to make the moon return and this is why, also every month, the moon turns its face to the Earth again to smile down on its only friend.

### Activity 2

Now answer questions 1–5 with a–e.

| Questions | Answers |
|---|---|
| **1.** Why did the children throw sticks and stones at the moon? | **a.** Because she felt sorry for the moon |
| **2.** Why did the little girl tell the children to stop? | **b.** So it can be safe from the children |
| **3.** Why did the moon enjoy living in the village? | **c.** Because they thought it was amusing |
| **4.** Why does the moon hide its face every month? | **d.** To make the moon return |
| **5.** Why does the little girl sing her song? | **e.** Because it loved to live near people and share in games and festivals |



© Hannah Eaton/British Council

### Activity 3

Look at these sentences from the text:

*The moon was **so hurt that** it decided to go away*

*The little girl, however, missed the moon **so much that** she began to sing a song to make the moon return.*

The word **so** helps to make the adjective or adverb stronger and also describes a reason or a result.

Match a phrase 1–6 with a phrase a–f and then connect them with **so + adjective/adverb that …**

An example has been done for you:

| | |
|---|---|
| **1.** The thief hit him hard | **a.** nobody could sit down. |
| **2.** There were many people in the classroom | **b.** he missed the interview. |
| **3.** The bus was late | **c.** he did not have time to answer them all. |
| **Example: The water was deep** | **d.** the museum closed early. |
| **4.** I feel tired | **e.** he stayed down on the ground and didn't get up. |
| **5.** The emails arrived quickly | **f.** I could sleep for weeks! |
| **6.** There were few visitors | **nobody was allowed to swim there.** |

Example: *The water was so deep that nobody was allowed to swim there.*

### Activity 4

In some stories, children act in a kind way. In others, they act in a cruel way. Do you think children are usually kind or cruel?

## Answers

**Activity 1**
1. e; 2. d; 3. a; 4. b; 5. f; 6. c

**Activity 2**
1. c; 2. a; 3. e; 4. b; 5. d

**Activity 4**
1. The thief hit him so hard that he stayed down on the ground and didn't get up.
2. There were so many people in the classroom that nobody could sit down.
3. The bus was so late that he missed the interview.
4. I feel so tired that I could sleep for weeks!
5. The emails arrived so quickly that he did not have time to answer them all.
6. There were so few visitors that the museum closed early.

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017